EVDƏ QAL, SAĞLAM QAL!

Ölkələrimiz arasında əlaqələrin inkişafı regional tərəqqiyə mühüm töhfələr verir



Bax 4

Siyasi partiyalar arasında geniş müzakirələrin aparılması üçün görüş keçirilib



Bax 3



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 113 (6078) 8 iyul 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## İlham Əliyev: "Biizim siyasətimizə heç bir kənar qüvvə təsir edə bilməz"



*"Xocalı soyqırımını törədən faşistlər demokrat ola bilməzlər"*

Bax 2

## Amerikanın "Medium" saytında Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti barədə məqalə dərc edilib



Armenia: Cultural Genocide, Denial and Deception

Nasimi Aghayev Follow

Jul 6 · 4 min read

Amerikanın "Medium" saytında Azərbaycan Respublikasının Los-Ancelesdəki Baş konsulu Nəsimi Ağayevin "Ermənistan: mədəni soyqırımı, tanımadan imtina və riyakarlıq" sərlövhəli məqaləsi dərc edilib. AZƏRTAC xəbər verir ki, materialda Ermənistanın Azərbaycana qarşı təcavüzündən, erməni silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağ regionunun işğal edilməsindən və bu...

Bax 2

## YAP tərəfindən "Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz" kitabı nəşr olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tarixi faktlara, sənədlərə istinadən beynəlxalq tribunalardan səsləndirdiyi Azərbaycan həqiqətləri ermənilərin əsrlər boyu dünyaya yaydıqları tarixi yalanları hər gün bir az daha artıq ifşa etməkdədir. SİA-nın verdiyi məlumata görə...



Bax 5

## Nazirlik: Bir sıra icazələr yenidən aktivləşdirildi

Bir sıra hüquqi və fiziki şəxslərin işçilərinin sayına uyğun olaraq yol verilən limitlər çərçivəsində icazələrin aktivləşdirilməsi həyata keçirilib. İqtisadiyyat Nazirliyindən SİA-ya verilən məlumata görə, Nazirlər Kabinetinin 2020-ci il 19 iyun tarixli 208 nömrəli...



Bax 5

## Əli Kərimli bizim suallarımıza cavab verdimi..?

Daha çox siyasi cameədə AXCP sədri kimi deyil, məhz klaviatura qəhrəmanı, yaxud bloger kimi tanıdığımız Əli Kərimlinin facebook səhifəsində yenidən sözün həqiqi mənasında ət tökən və pafoslu bir paylaşım nəzərimi cəlb...



Bax 14

## Messi "Barselona"da bir ayda 8,3 milyon avro qazanır!



"Barselona" Lionel Messinin maaşını azaldır. Bu haqda "El Chiringuito TV" məlumat yayıb. Bildirilir ki, klub prezidenti Jozep Bartomeu yaxın günlərdə kapitanının maaşında ixtisar etməli olacaq. Belə bir qərar hazırkı...

Bax 16

"Azərbaycan dövləti həyata keçirdiyi tədbirlərlə bir nümunə ortaya qoydu"



Bax 5

"Karantin rejimi ilə bağlı tətbiq edilən qaydalar hər kəs üçün əsas olmalıdır"



Bax 6

Həkimdən xəbərdarlıq: Yalnız avqust ayında yetişən qarpıza üstünlük verin



Bax 16



# İlham Əliyev: "Biizim siyasətimizə heç bir kənar qüvvə təsir edə bilməz"

*"Xocalı soyqırımını törədən faşistlər demokrat ola bilməzlər"*

***Biz müstəqil siyasət aparırıq və bizim siyasətimizə heç bir kənar qüvvə təsir edə bilməz. Müxtəlif məqamlarda bunu dəfələrlə nümayiş etdirmişik. Ona görə bu gün Azərbaycana olan rəğbət doğrudan da ən yüksək səviyyədədir. AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və "Xəzər" Televiziyasına müsahibəsində bildirib.***

Dövlətimizin başçısı deyib: "Biz doqquz il bundan əvvəl 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişik. Bildirməliyəm ki, o vaxt bizdən əvvəl Ermənistan namizədliyini vermişdi. Ancaq görəndə ki, biz namizədliyimizi verdik, bizim qarşımızda aciz olduqlarını başa düşdülər və namizədliklərini sakitcə geri götürdülər - yəni, o diplomatik döyüş arenasından qaçdılar. Ondan beş il sonra döyüş meydanından qaçdılar və beləliklə, Azərbaycan işğal edilmiş torpaqların bir hissəsini işğalçılardan azad etdi. Ona görə bu, 10 ildən sonra yenidən bizə verilən böyük beynəlxalq dəstəkdir. Mən öz ölkəmizi heç kimlə müqayisə etmək istəmirəm. Amma hesab etmirəm ki, bir çox ölkələr BMT-də bu qədər dəstək qazana bilər. Bu, yenə də bizim dürüstlüyümüzün, sözümüzə əməl etməyimizin nəticəsidir. Mən dəfələrlə demişəm, bizim sözümüz imzamız qədər təsirlidir və bunun təsiri eynidir. Biz sözümüzü tutan ölkəyik".

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanın məqsədyönlü fəaliyyəti ona gətirib çıxarıb ki, Ermənistanın üzərində mövcud olan çətir artıq deşilib. Biz onların əsl mahiyyətini üzə çıxarırıq, onların faşist mahiyyətini ifşa edirik. Prezident vurğulayıb ki, faşist Njdeyə abidə ucaldan və bu abidəni müdafiə edən faşistdir. Bunu biz deyirik və artıq dünya miqyasında bu fakt haqqında kifayət qədər məlumat var. Mən bu məsələni qaldırmayana qədər heç kim bu haqda danışmırdı. Mən bu məsələni qaldırdım və buna geniş beynəlxalq dəstək təmin edildi. İndi artıq hər kəs bilir ki, Njde faşist olubdur. Bu faşist onların qəhrəmanlıq simvoludur. Onların işğalçılıq siyasəti ifşa edilib. Artıq son vaxtlar bütün aparıcı beynəlxalq təşkilatların sənədlərində Azərbaycanın ərazi bütövlüyü birmənalı şəkildə dəstəklənir və işğal haqqında kifayət qədər dolğun məlumat var. Bir də ki, indiki Ermənistan rəhbərliyi əvvəlki hakimiyyətin bütün çirkin əməllərini üzə çıxarır. Artıq onların dediyi kimi, Ermənistana 1998-ci ildən 2018-ci ilə qədər quldurlar rəhbərlik ediblər. Onlar özləri bu cinayətkarları, rüşvətxorları ifşa ediblər.

Erməni lobbisi Ermənistanı bütün təşkilatlarda müdafiə edir. Mən bunu şəxsən Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin başçısı kimi görmüşəm. Yəni, Ermənistan tamamilə tənqiddən kənarda idi. O vaxt ermənipərəst deputatlar və əslən Avropa ölkələrindən olan varlı ermənilər bütün imkanlardan, öz maliyyə imkanlarından istifadə edib Ermənistanı bütün tənqidlərdən qoruyurdular.

"Ermənistanda insan haqlarının və demokratiyanın pozulması bu günün işi deyil. Ermənistanda heç vaxt demokratiya olmayıb. Ermənistan hələ müstəqil ölkə kimi formalaşandan dərhal sonra öz əsl xislətini göstərdi. Xocalı soyqırımını törədən faşistlər demokrat ola bilməzlər. Başqasının torpağına göz dikən, bir milyon insanı evsiz-eşiksiz qoyan ölkə demokrat ola bilməz. Onlar bir milyon Azərbaycan vətəndaşının və Ermənistanda yaşayan azərbaycanlıların elementar insan haqlarını pozublar. Ancaq ermənilərə himayədarlıq edənlər, ilk növbədə, erməni lobbisi, onun pulları, ondan sonra Ermənistan hökumətinin Avropada çirkin lobbiçilik fəaliyyəti onları həmişə bu tənqiddən qoruyurdu. Əslində, bu, lobbiçilik fəaliyyəti deyil, bu, korrupsiya fəaliyyətidir. Mən hesab edirəm ki, bu fəaliyyət Avropada geniş araşdırılmalıdır. Bizdə kifayət qədər siqnallar var ki, bəzi siyasi xadimlər, deputatlar, bəzi Avropa ölkələrinin hökumət üzvləri Ermənistana xüsusi münasibət bəsləyirlər. Elə adamlar var ki, Dağlıq Qarabağa yüzlərlə səfər edib. Bunun arxasında nələr dayanır, hamımız yaxşı başa düşürük. Ona görə Avropanın hüquq-mühafizə orqanları bu məsələni, Ermənistan hökumətinin Avropada korrupsiyanın yayılmasına verdiyi dırnaqarası töhfəni, əlbəttə ki, Ermənistanın riyakar siyasətini araşdırsınlar. Çünki o, hər bir güc mərkəzinə o güc mərkəzinin eşitmək istədiyini deyir yalandan. O, bir neçə stulda oturmaq istəyir. Bu günə qədər buna müvəffəq olub. O, saxta tarixi, uydurulmuş, yüz il bundan əvvəl dırnaqarası hadisələri - soyqırımı istismar etmək istəyir. Özündən qurban, yazıq bir xalq düzəltmək istəyir. Halbuki hər kəs yaxşı bilir ki, ermənilər bizə qarşı soyqırımı törətmişlər. Budur, əsas amillər", -deyə dövlətimizin başçısı vurğulayıb.

## Amerikanın "Medium" saytında Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti barədə məqalə dərc edilib

***Amerikanın "Medium" saytında Azərbaycan Respublikasının Los-Ancelesdəki Baş konsulu Nəsimi Ağayevin "Ermənistan: mədəni soyqırımı, tanımadan imtina və riyakarlıq" sərlövhəli məqaləsi dərc edilib. AZƏRTAC xəbər verir ki, materialda Ermənistanın Azərbaycana qarşı təcavüzündən, erməni silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağ regionunun işğal edilməsindən və bu bölgədə etnik təmizləmələr aparılmasından bəhs edilir.***

N.Ağayev yazır ki, müharibələr həmişə fəlakətlər gətirir, lakin əgər müharibə hərbi cinayətlərlə, o cümlədən dinc sakinlərə hücumlar, yaşayış məntəqələrinin qəsdən dağıdılması və ya "mədəni soyqırımı" törədilməsi ilə müşayiət olunursa, belə müharibə gələcək nəsillər üçün fəlakət xarakteri daşıyır. İŞİD-in Suriya və İraqda törətdiyi əməllər buna əyani sübutdur.




Müəllif qeyd edir ki, Qafqazda da hadisələr belə ssenari üzrə inkişaf edir, bunun əks-sədasını ABŞ-da da hiss etmək olar. 1990-cı illərin əvvəlində Ermənistan Azərbaycana qarşı elan edilməmiş müharibəyə başladı, nəticədə Azərbaycanın Qarabağ regionu işğala və etnik təmizləməyə məruz qaldı. Qarabağdan və Ermənistandan 1 milyona yaxın Azərbaycan vətəndaşı qovuldu. BMT Təhlükəsizlik Şurası bu işğalı dəfələrlə pisləyib, Ermənistan qoşunlarının işğal etdikləri ərazilərdən çıxarılmasını tələb edib, Ermənistan isə bu çağırışlara məhəl qoymadan suveren Azərbaycanın ərazilərinin təqribən 20 faizini hələ də işğal altında saxlayır. 30 ilə yaxındır ki, Azərbaycandan olan məcburi köçkünlər öz doğma evlərinə, yurdlarına qayıtmaq imkanından məhrumdurlar.

Hazırda beynəlxalq ictimaiyyət Ermənistanın hərəkətlərinin haqsız olmasını etiraf etməyə başlayıb, lakin ABŞ-dakı erməni icmaları heç bir təqsiri olmayan yüz minlərlə dinc sakinə qarşı Ermənistanın cinayətlərinə haqq qazandırmağa, erməni qoşunlarının işğal edilmiş rayonlardan çıxarılması barədə beynəlxalq birliyin çağırışlarını və təzyiqini dəf etməyə çalışırlar. Ermənilərin hərbi cinayətlərinin gizlədilməsi üçün bu cür cəhdlər ABŞ Konqresində də, ayrı-ayrı ştatların müxtəlif qanunvericilik orqanlarında da müşahidə olunur. Bəzi qanunvericilər ermənipərəst qanun layihələri və qətnamələr təqdim edirlər. Erməni lobbisi Konqresin bəzi üzvləri üçün əyləncə xarakterli səfərlər təşkil edir, belə konqresmenlər Azərbaycanın işğal altında olan ərazilərinə qanunsuz səfərlər edir, Ermənistanı tərifləyir, ermənilər tərəfindən törədilmiş hərbi işğalı və etnik təmizləmələri tamamilə dəstəklədiklərini bildirirlər. Bu dəhşətli addım ABŞ-ın çoxillik xarici siyasətinə zidd və Azərbaycandan olan 1 milyon məcburi köçkünün düşdüyü ağır vəziyyətə etinasızlıqdır.

N.Ağayev yazır ki, "mədəni soyqırımı" faktlarını saymaqla qurtarmaz. Azərbaycan mədəniyyətinin məhv olunmasına dəlalət edən əyani faktlar var. Məsələn, Azərbaycanın Şuşa şəhəri demək olar ki, viran edilib, bu şəhərdəki məşhur Mamay məscidi erməni kilsəsinə çevrilib, məscidin binasındakı lövhə silinib və erməni xaçı ilə əvəz edilib. Azərbaycanın qədim Ağdam şəhərində işğaldan əvvəl 50.000 azərbaycanlı yaşayırdı. Erməni qoşunları bu şəhəri yerlə-yeksan ediblər, indi oranı "Qafqazın Xirosiması" və ya "Kabus şəhər" adlandırırlar.

Ermənistanda və işğal edilmiş Qarabağ regionunda Azərbaycanın mədəni irsi olan 4500 tarix, din və mədəniyyət abidəsi talanıb, dağıdılıb və murdarlanıb. Azərbaycanlı diplomat qeyd edir ki, bu "mədəni soyqırımı"nın əsasən 1994-cü ildə atəşkəs haqqında saziş bağlanandan sonra törədilməsi ən dəhşətli faktdır.

1990-cı ildə Yerevanda yaşayan etnik azərbaycanlılara qarşı talanlar zamanı azərbaycanlıların "Dəmirbulaq" məscidi buldozerlə sökülüb. "The New Yorker" qəzetinin müxbiri Robert Kallen və erməni tarixçi Corc Bornoutyan həmin məscidin dağıdılmasının şahidləri olublar. Erməni jurnalistin çəkdiyi bir videoda Ermənistanın Vayots Dzor rayonunda azərbaycanlıların dəfn edildiyi qəbiristanın dağıdılması təsvir olunub. Videodan görünür ki, qəbirlər dağıdılıb və murdarlanıb. Bundan əlavə, Ermənistan on minlərlə erməninin qeyri-qanuni şəkildə Azərbaycanın işğal edilmiş ərazilərinə, əvvəllər azərbaycanlılara məxsus olmuş evlərə köçürüb. Bu fakt Avropa İnsan Haqları Məhkəməsinin qərarında da təsdiq edilib. Azərbaycanın Baş konsulu məqaləsinin sonunda yazır ki, kütləvi qətllər törədilməsinin, minillik tarixin məhv edilməsinin inkar olunması bu əməllərin törədilməsindən daha betərdir.

# Siyasi partiyalar arasında geniş müzakirələrin aparılması üçün görüş keçirilib

Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan siyasi partiyaların sədrləri və nümayəndələri tərəfindən Azərbaycanda siyasi partiyalar arasında geniş müzakirələrin aparılması üçün iyulun 7-də videokonfrans formatında görüş keçirilib. Görüşdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev də iştirak edib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindənSİA-ya verilən məlumata görə, "Azərbaycanda yeni siyasi konfiqurasiya: Pandemiya dövrü və yeni çağırışlar" mövzusunda keçirilən görüşü giriş sözü ilə açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, olduqca aktual mövzuya həsr edilən tədbirdə pandemiya dövründə meydana çıxan yeni çağırışlar fonunda siyasi sistemin əsas elementləri olan siyasi partiyaların fəaliyyəti müzakirə ediləcək. O, Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən siyasi islahatların gətirdiyi şərtlərin bütövlükdə ölkədə yeni dialoq və əməkdaşlıq mühiti yaratdığını, bu mühitin başlıca komponentlərinin isə dövlət başçısının VI çağırış Milli Məclisin ilk iclasındakı nitqində aydın şəkildə göstərildiyini diqqətə çatdırıb. S.Qafarova qeyd edib ki, ölkə Prezidentinin dərin məzmunlu, kifayət qədər konseptual tarixi nitqi siyasi sistemin də komponentlərini və perspektivlərini əhatə etməklə siyasi konfiqurasiyada və ictimai münasibətlər sistemində yeni tarixi mərhələ kimi qiymətləndirilə bilər. Parlamentin ölkədə həyata keçirilən siyasi islahatların daha uğurlu nəticələrlə müşayiət olunmasında mühüm rola malik olduğunu vurğulayan S.Qafarova VI çağırış Milli Məclisdə rəhbər orqanların tam dəyişdirildiyini, ilk dəfə olaraq müxalifət nümayəndəsinin Milli Məclis Sədrinin müavini vəzifəsinə seçildiyini, bununla yanaşı, müxalifət nümayəndələrinin həm sədr, həm də müavin vəzifələrində parlamentin komitələrinə başçılıq etdiklərini xatırladıb. O deyib ki, bu addım ölkədə siyasi sistemin yeni konfiqurasiyasına yol açmaqla yanaşı, Milli Məclisdə gedən proseslərə müsbət təsir göstərir və artıq başa çatmış yaz və növbədənkənar sessiyalarda parlamentin uğurla fəaliyyət göstərməsi, eləcə də buna münasibətdə ümumi ictimai rəyin müsbət olması həyata keçirilən islahatların nəticəsi kimi qiymətləndirilə bilər. Bu dövr ərzində qlobal pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, Milli Məclis üzərinə düşən vəzifələrin öhdəsindən gəlməyə çalışıb: yaz sessiyasında 12 iclas keçirilib, 123 qanun və qərar, o cümlədən 2 konstitusiya qanunu qəbul edilib. Milli Məclisin iclaslarında Nazirlər Kabinetinin, Hesablama Palatasının, İnsan hüquqları üzrə müvəkkilin, Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın və İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun hesabat və məruzələri dinlənilib. İyunun 30-da başa çatan növbədənkənar sessiya dövründə isə Milli Məclisin 8 iclası keçirilib, 35 qanun və qərar qəbul edilib.

Milli Məclisin Sədri, həmçinin qeyd edib ki, parlament cəmiyyətdə mövcud olan əsas siyasi qüvvələrin, cərəyanların və fikirlərin bütün spektrini tam əks etdirir, siyasi dialoq, milli və dövlətçilik məsələləri ətrafında əməkdaşlıq mühitinin möhkəmlənməsi Azərbaycanda siyasi münasibətlərin sağlam zəmində qurulmasına xidmət edir.



Prezident Administrasiyasının şöbə müdiri Ədalət Vəliyev çıxış edərək Azərbaycan Respublikasının Prezidenti tərəfindən dövlət idarəçiliyinin bütün istiqamətlərini əhatə edən çoxşaxəli islahatlar aparıldığını, ölkənin daha da qüdrətlənməsi və dünya birliyində yüksək mövqe tutması, xalqın rifah halının daha da yüksəldilməsi üçün genişmiqyaslı tədbirlər görüldüyünü, eləcə də həyata keçirilən müxtəlif xarakterli dövlət proqramlarının cəmiyyətin bütün üzvlərini əhatə etməsinin diqqətdə saxlanılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin danılmaz xidmətləri olduğunu görüş iştirakçılarının nəzərinə çatdırıb.

Ədalət Vəliyev aparılan köklü struktur və kadr islahatlarına toxunaraq, Prezident Administrasiyasında ilk dəfə olaraq xüsusi struktur bölməsinin yaradılmasının ölkə rəhbərliyinin siyasi partiyalarla müntəzəm iş aparılması, sağlam əməkdaşlığın qurulması, habelə Milli Məclis ilə daha nizamlı əlaqələrin təşkili işinə verdiyi əhəmiyyətdən irəli gəldiyini diqqətə çatdırıb, şöbə tərəfindən dövlət başçısının tapşırığı ilə indiyə qədər görülmüş işlər, aparılmış təhlillər, siyasi partiyalarla yaxından tanışlıq və əməkdaşlığa yönəlmiş çoxsaylı görüşlər, habelə konstruktiv əməkdaşlığın qurulması, yeni siyasi mədəniyyətin təşəkkülü barədə ətraflı məlumat verib. O bildirib ki, ölkə Prezidentinin təşəbbüsü və iradəsi ilə Azərbaycanda artıq siyasi islahatların yeni mərhələsi başlanıb, siyasi sistemin yeni konfiqurasiyası formalaşmaqdadır və bu, iqtidar-müxalifət münasibətlərinin müzakirələr vasitəsilə inkişaf etdirilməsinə söykənir.

Sadalanan tədbirlərin ölkədə siyasi sistemi möhkəmləndirmək, siyasi münasibətləri sağlam zəmində gücləndirmək məqsədi daşıdığını və çoxpartiyalı sistemin inkişaf etdirilməsinə yönəldiyini vurğulayan Ə.Vəliyev, həmçinin 9 fevral parlament seçkilərinin, habelə VI çağırış Milli Məclisin tərkibinin mütərəqqi yeniliklərinə diqqəti çəkib.

Siyasi islahatların dərinləşdirilməsi üçün növbəti mərhələnin Milli Məclisdə təmsil olunan siyasi partiyaların xüsusi yeri və rolu ilə aparılacaq partiyalararası konstruktiv siyasi müzakirələr olduğunu bildirən natiq Azərbaycan dövlətçiliyi üçün prinsipial olan məsələlərin milli həmrəylik yolu ilə həll edilməsinin vacibliyini qeyd edib. O, ölkə rəhbərliyinin koronavirus pandemiyası ilə mübarizədə həm ölkə daxilində, həm də qlobal miqyasda həyata keçirdiyi tədbirlər, habelə korrupsiyaya qarşı mübarizə tədbirləri barədə geniş məlumat verib.

Pandemiya dövründə dövlət başçısının siyasətinin prioritetinin insanların sağlamlığı və onların sosial müdafiəsinin təmin edilməsi olduğu, bütün zəruri qabaqlayıcı tədbirlərin görüldüyü, xəstələrin ödənişsiz müalicəsi üçün onlarla xəstəxana ayrıldığı, eləcə də 10 müasir modul tipli xəstəxana tikildiyi, istifadəyə verildiyi, zəruri tibbi avadanlıqlar alındığı, qısa müddət ərzində ölkədə lazımi tibbi ləvazimatların istehsalına başlanıldığı, habelə iqtisadi sabitliyin və məşğulluqla bağlı problemlərin həlli üçün 3,5 milyard manatdan artıq dəstək paketi qəbul olunduğu, 900 mindən çox işçinin əməkhaqqı tam həcmdə saxlanılmaqla, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqının əhəmiyyətli hissəsinin dövlət tərəfindən ödənildiyi, bununla yanaşı, 600 min aztəminatlı, işsiz və qeyri-rəsmi çalışan vətəndaşa yaşayış minimumuna uyğun olaraq vəsait ödənilməsinin təmin olunduğu və bu işin davam etdirildiyi, eləcə də vergiödəyiciləri üçün vergi güzəştləri və vergi tətillərinin nəzərdə tutulduğu Prezident Administrasiyasının şöbə müdiri tərəfindən diqqətə çatdırılıb. Görülən tədbirlər çərçivəsində ölkə başçısının təşəbbüsü ilə həm də rəmzi məna daşıyan və Azərbaycan cəmiyyətinin həmrəyliyini nümayiş etdirən Koronavirusla Mübarizəyə Dəstək Fondunun təsis edildiyi, həm ölkə Prezidenti, həm də Birinci vitse-prezident tərəfindən özlərinin birillik əməkhaqqı məbləğlərinin fonda ianə edilməsinin xüsusi rəğbət doğurduğu, eyni zamanda, Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Heydər Əliyev Fondu vasitəsilə qayğıya ehtiyacı olanlara bu çətin günlərdə göstərilən yardımların insanpərvərliyin və milli həmrəyliyin bariz nümunəsi olduğu vurğulanıb.

Ə.Vəliyev qeyd edib ki, Ümumdünya Səhiyyə Təşkilatının pandemiya ilə mübarizədə nümunəvi hesab etdiyi Azərbaycan tərəfindən, həmçinin könüllü beynəlxalq ianələr ayrılıb, 30-dan artıq dövlətə humanitar yardımlar edilib. Bununla yanaşı, 150 ölkənin kredit üçün müraciət etdiyi şəraitdə Azərbaycanın dayanıqlı iqtisadiyyatı sayəsində buna ehtiyacı olmadığı bildirilib. Bu dövrdə Azərbaycanın qlobal liderlik nümayiş etdirərək nüfuzlu beynəlxalq təşkilatların yüksək səviyyəli görüşlərinin təşəbbüskarı kimi çıxış etdiyi iştirakçıların diqqətinə çatdırılıb.

Prezident Administrasiyasının rəsmisi Azərbaycanda həyata keçirilən islahatların prioritet istiqamətlərindən biri olan korrupsiyaya qarşı mübarizənin pandemiya şəraitində də səngimədiyinə toxunaraq, Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən yüksək peşəkarlıqla həyata keçirilən tədbirlər barədə də danışıb. O, həmçinin pandemiya dövründə ölkədəki siyasi partiyaların mütləq əksəriyyətinin dövlət başçısının siyasətini yaxından dəstəklədiyini, Azərbaycanda iqtidar ilə müxalifət arasında milli maraqlar naminə indiyədək müşahidə edilməyən yaxınlaşmanın və səmərəliliyindən siyasi mühitində sağlam əməkdaşlıq şəraitinin meydana gəldiyini vurğulayıb. Çıxışının sonunda Ə.Vəliyev siyasi partiyaları dövlətçiliyin möhkəmləndirilməsi üçün birgə əməkdaşlıqda səylərini artırmağa çağırıb.

Daha sonra Milli Məclisdə təmsil olunan siyasi partiyaların nümayəndələri olan deputatlar müxtəlif mövzularda çıxış ediblər.

Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov Azərbaycanda koronavirus pandemiyasına qarşı mübarizədə görülən tədbirlərin miqyasından və səmərəliliyindən danışaraq respublikamızın bu sahədə qlobal səviyyədə nümunəvi dövlət olduğunu diqqətə çatdırıb.

Böyük Quruluş Partiyasının sədri, Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini Fazil Mustafa çıxışında pandemiya dövründə siyasi partiyaların davranışlarını təhlil edib. O qeyd edib ki, bu mübarizədə dövlətin gördüyü tədbirlərlə yanaşı, siyasi təşkilatların fəaliyyətinin də mühüm rolu var.

Ana Vətən Partiyasının sədri, Milli Məclisin İntizam komissiyasının sədr müavini Fəzail Ağamalının çıxışı isə pandemiya şəraitində siyasi partiyalarla vətəndaş münasibətlərinin sağlam təməllər üzərində qurulması məsələlərini əhatə edib.

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev koronavirus pandemiyasına qarşı mübarizədə beynəlxalq təşəbbüslərə toxunaraq Azərbaycanın bu istiqamətdə atdığı addımların dünya birliyi tərəfindən müsbət qarşılandığını bildirib.

Vətəndaş Həmrəyliyi Partiyasının sədri, deputat Sabir Rüstəmxanlı isə pandemiya dövründə ictimai maarifləndirmə və cəmiyyətin doğru məlumatlandırılmasında siyasi partiyaların rolundan danışaraq bu prosesdə doğru davranış qaydalarının təşviq olunmasında partiyaların üzərinə düşən vəzifələrin öhdəsindən gəlməsinin vacibliyini qeyd edib.

Vətəndaş Birliyi Partiyasının sədri, Milli Məclisin Aqrar siyasət komitəsinin sədr müavini Sabir Hacıyevpandemiya dövründə Azərbaycan dövlətinin sosial-iqtisadi təşəbbüslərini nəzərdən keçirərək bu sahədə həyata keçirilən genişmiqyaslı tədbirlərin əhəmiyyətini vurğulayıb.

Vəhdət Partiyasının sədri, Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini Tahir Kərimli pandemiya dövründə vətəndaş cəmiyyəti institutları və birliklərinin davranışları haqqında çıxış edərək mövcud vəziyyət və perspektivləri diqqətə çatdırıb.

Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədr müavini Asim Mollazadə çıxışında pandemiya dövründə qanunçuluğa riayət olunmasının əhəmiyyətindən danışaraq, eyni zamanda, vətəndaş məsuliyyətinin yüksəldilməsinin vacibliyinə diqqəti çəkib.

Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri, Milli Məclisin Regional məsələlər komitəsinin sədr müavini Elşən Musayev isə pandemiya dövründə kütləvi informasiya vasitələrində, o cümlədən sosial mediada ictimai məsuliyyət məsələlərinə toxunub, bu istiqamətdə atılması vacib olan addımlardan danışıb.

Maraqlı müzakirələrlə keçən tədbirin sonunda Milli Məclisdə təmsil olunan siyasi partiyaların adından bəyanat qəbul olunub.

Bəyanatda Azərbaycan Respublikasının Prezidenti tərəfindən dövlət idarəçiliyində aparılan islahatların yeni mərhələsi qeyd edilərək siyasi sistemi möhkəmləndirmək məqsədilə ölkənin yeni siyasi konfiqurasiyasının formalaşdırılmasına, həmçinin ölkədə çoxpartiyalı sistemin inkişaf etdirilməsinə, partiyalararası sağlam əməkdaşlıq mühitinin yaradılmasına yönəlmiş addımların təqdir edildiyi bildirilmiş, dövlətçilik üçün prinsipial olan məsələlərin milli maraqlar naminə səy birliyi və həmrəylik yolu ilə həll edilməsinin vacibliyi vurğulanıb, habelə Azərbaycan Respublikasının Prezidenti və Birinci vitse-prezidenti tərəfindən koronavirus pandemiyası ilə mübarizədə həm ölkə daxilində, həm də qlobal miqyasda həyata keçirilən tədbirləri dəstəklədiyi ifadə olunub.

Bəyanatda, həmçinin Milli Məclisdə təmsil olunan siyasi partiyaların ölkədə siyasi partiyalar arasında geniş konstruktiv müzakirələrin aparılması prosesində xüsusi yeri və roluna diqqət çəkilərək, Ermənistanın təcavüzkar siyasətini davam etdirdiyi, beynəlxalq və regional geosiyasi proseslərin doğurduğu yeni təhdidlərin mövcudluğu, habelə bütün bəşəriyyəti hədələyən koronavirus pandemiyası ilə mübarizədə milli və beynəlxalq səylərin artırılmasının zəruriliyi şəraitində siyasi partiyalar qarşısında birgə məqsədyönlü fəaliyyət üçün duran vəzifələr elan olunub.

Bu vəzifələrə Ermənistanın təcavüzkar siyasəti barədə dünya birliyinin davamlı məlumatlandırılması, eləcə də Azərbaycan Respublikasının demokratik, hüquqi, dünyəvi dövlət olduğunun, Azərbaycan xalqının sülhpərvərliyinin və tolerantlığının, eləcə də zəngin mədəniyyətinin beynəlxalq auditoriyaya hərtərəfli çatdırılması, ölkədə geniş vüsət alan islahatların nəticələrinin təhlili və yeni perspektivlərin müəyyən edilməsi üçün təkliflərin verilməsi, koronavirus pandemiyasına qarşı mübarizədə Azərbaycan dövlətinin yerli və beynəlxalq təşəbbüslərinin dəstəklənməsi və onların əhəmiyyətinin təbliği, bu istiqamətdə səylərin birləşdirilməsi ilə çoxtərəfli fəaliyyətin həyata keçirilməsi, habelə ölkədə partiyalararası geniş siyasi müzakirələrin baş tutması və dərinləşməsi üçün qarşılıqlı səylər göstərilməsi və s. daxildir.

# Ölkələrimiz arasında əlaqələrin inkişafı regional tərəqqiyə mühüm töhfələr verir

***İyulun 6-da Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə koronavirusla bağlı başsağlığı verib. Türkiyə prezidenti bütün dünyanı cənginə alan COVID-19 pandemiyası səbəbindən Azərbaycanda vəfat edənlərə Uca Allahdan rəhmət, müalicəsi davam edənlərin isə tezliklə şəfa tapmalarını diləyib: “Həyatını itirənlərə görə qardaş Azərbaycan xalqına millətim adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm. Azərbaycanda pandemiyaya qarşı gördüyünüz təsirli tədbirləri və fəaliyyəti yaxından izləyirik. Bu sahədə mübarizə aparan hər kəsə işlərində uğurlar arzulayıram.***



***İlham Əliyev:*** *“Bütün sahələrdə olduğu kimi, COVID-19-a qarşı mübarizədə də Azərbaycan və Türkiyə “Bir millət, iki dövlət” şüarı əsasında həmrəylik nümayiş etdirir”*

***Rəcəb Tayyib Ərdoğan:*** *“Bir millət, iki dövlət” şüarı ilə dost və qardaş Azərbaycana əlimizdən gələn hər cür köməyi göstərməyə hazırıq”*

“Bir millət, iki dövlət” şüarı ilə dost və qardaş Azərbaycana əlimizdən gələn hər cür köməyi göstərməyə hazırıq. Bu çərçivədə Can Azərbaycanın pandemiya ilə mübarizəsinə bir az da olsa fayda verə biləcək tibbi yardım ləvazimatlarının ölkənizə çatdırılmasını təmin edirik. Bu fürsətdən istifadə edərək pandemiya ilə mübarizədə Azərbaycanın yanında olduğumuzu bir daha ifadə edir, Zati-alinizə səmimi-qəlbdən cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına millətim adından və şəxsən öz adımdan əmin-amanlıq və rifah diləklərimi çatdırıram”. Azərbaycan Prezidenti İlham Əliyev də cavab məktubunda həmkarına təşəkkür edib və Türkiyədə həyatını itirənlərin ailəsinə başsağlığı verib: “Bütün sahələrdə olduğu kimi, COVID-19-a qarşı mübarizədə də Azərbaycan və Türkiyə “Bir millət, iki dövlət” şüarı əsasında həmrəylik nümayiş etdirir. Əminəm ki, birgə səylərimizlə koronavirus bəlasının öhdəsindən gələcəyik. Bu xüsusda qardaş Türkiyə Respublikası tərəfindən göndərilən humanitar yardıma görə Sizə öz adımdan və Azərbaycan xalqı adından dərin minnətdarlığımı bildirirəm. Bu, ölkələrimiz arasında qardaşlıq və dostluq münasibətlərinin növbəti bariz nümunəsidir”.

## “Bir millət, iki dövlət” Azərbacan-Türkiyə tarixi dostluq əlaqələri yüksəliş yolunda

Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Xalqlarımızın eyni soykökünə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib, sevincli, kədərli günlərdə də biri digərinin yanında olub. Ulu Öndər Heydər Əliyevin “bir millət, iki dövlət” olaraq xarakterizə etdiyi Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir. Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Eyni zamanda, türk dünyasının daha sıx şəkildə bir araya gəlməsini bu gün şərtləndirən ən mühüm amillərdən biri də məhz Azərbaycan və Türkiyənin münasibətlərinin inkişafından keçir. Prezident İlham Əliyev bununla bağlı bildirmişdir: “Türkiyə-Azərbaycan əlaqələri, eyni zamanda, bütün türk dünyası üçün də mühüm rol oynayır. Biz türk dünyasının birləşməsi, türkdilli dövlətlər arasında əlaqələrin inkişafı üçün birgə səylər göstəririk”.

Ölkələrimiz arasında bütün sahələrdə əlaqələr möhkəmlənməkdədir. Belə ki, ölkələrimiz arasında artıq bütün əsas detalları razılaşdırılmış yeni qaz müqaviləsindən gedir. Xatırladaq ki, keçən ay Türkiyə ilə Azərbaycan arasında qaz satışı və nəqli ilə bağlı saziş imzalanması böyük bir coğrafi məkanda reallaşdırılan enerji siyasətinin əsas konturlarını müəyyən edən mühüm faktorlardan biridir. Çünki Avropa İttifaqının, digər Qərb ölkələrinin böyük ümidlərlə baxdığı məşhur “Nabukko” kəmərinin inşa edilməsi xeyli dərəcədə məhz Azərbaycanla Türkiyə arasında razılaşdırılan yeni qaz sazişindən keçir. Bütün bunlar isə ölkələrimizin energetika sahəsində möhkəmlənən əlaqələrinin qlobal enerji təhlükəsizliyinin təminatına da yeni mühüm töhfələr bəxş edəcəyindən xəbər verir. Bu günə qədər isə ölkələrimizin birgə həyata keçirdiyi, o cümlədən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin istifadəyə verilməsi hazırda Azərbaycanın, Türkiyənin və digər ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində müstəsna rol oynayır.

Perspektivdə isə Azərbaycan və Türkiyənin iqtisadi sahədə münasibətlərini daha da möhkəmləndirəcək əsas məqamlardan biri Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə düşməsi olacaq. Hazırda tikintisi davam edən bu dəmir yolunun həm də Naxçıvana kimi uzadılması nəzərdə tutulur. Bu isə Naxçıvanın mərkəzlə kommunikasiya əlaqələrində yeni mərhələnin başlanması, muxtar respublikanın iqtisadi cəhətdən daha da güclənəcəyi deməkdir. Hazırada Naxçıvanın həm iqtisadi sferada sürətlə inkişaf etməsində, həm də təhlükəsizliyinin təmin olunmasında qardaş Türkiyə böyük rol oynayır.

## Türkiyə Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində ölkəmizin ədalətli mövqeyinə tam dəstək verir

Azərbaycan ərazilərinin artıq 20 ilə yaxın müddətdir ki, Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanmasına etiraz əlaməti olaraq bu ölkə ilə sərhədlərini bağlamış Türkiyə hazırda Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində də xüsusi fəallıq göstərir, bu məsələdə ölkəmizin ədalətli mövqeyinə tam dəstək verir. Ölkəmizdə rəsmi səfərdə olarkən Türkiyənin Baş naziri bir daha təsdiq etdi ki, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmadan İsveçrədə imzalanan, Ermənistanla münasibətlərin normallaşmasını, sərhədlərin açılmasını nəzərdə tutan Sürix protokollarının parlamentdə ratifikasiyası mümkün deyil: “İsveçrədə Türkiyə ilə Ermənistan arasındakı normallaşma prosesi adlandırdığımız anlaşmaların imzalanması hazırda məhz Ermənistan tərəfindən dondurulmuş vəziyyətdədir. Bizdə isə bu iş bildiyiniz kimi, parlamentə həvalə edilmişdir. Ancaq bizim parlamentə həvalə edilmiş bu normallaşma prosesi istiqamətindəki protokolla əlaqədar çox açıq və dəqiq bir ifadəmiz vardır. O da nədir?! Dedik ki, bu Dağlıq Qarabağ mövzusu, rayonlar məsələsi Ermənistan-Azərbaycan arasındakı problem öz həllini tapmadan Türkiyə Böyük Millət Məclisindən müsbət bir qərarın çıxması mümkün deyildir. Bu, çox açıq və dəqiq surətdə göz qabağındadır. Bunu Minsk qrupu həmsədrlərinin üçünə də söylədik, izah etdik”.

Hazırda isə Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli istiqamətində konstruktiv mövqe nümayiş etdirməyən və beləliklə, həm də Türkiyə ilə münasibətlərin normallaşmasında maraqlı olmadığını göstərən Ermənistan yenə də region dövlətləri ilə mehriban qonşuluq prinsipləri ilə yaşamaq niyyətindən uzaq olduğunu nümayiş etdirir. Bununla işğalçı dövlət Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçilik edən ATƏT-in Minsk qrupuna da etinasız yanaşdığını göstərir. Çünki ATƏT-in Minsk qrupunun münaqişə tərəflərinə təqdim etdiyi yenilənmiş Madrid prinsiplərinə indiyə qədər məhz Ermənistan münasibət bildirmir. Halbuki Azərbaycan prinsip etibarilə, çox kiçik istisnalarla bu təklifi qəbul etdiyini bildirib. Lakin yenilənmiş Madrid prinsiplərinin tərəflərə təqdim olunmasına baxmayaraq, Ermənistan buna hələ də heç bir cavab vermir. Prezident İlham Əliyev isə belə vəziyyətdə Azərbaycanın konkret, qətiyyətli mövqeyini ortaya qoyur: “Ermənistan tərəfi öz mövqeyini bildirməlidir. Ya Rusiya, Fransa, Amerika tərəfindən verilmiş təklifə müsbət cavab verəcək və o təqdirdə biz məsələnin həllinə yaxınlaşacağıq. Ya da ki, mənfi cavab veriləcək və beləliklə, danışıqlar prosesi pozulacaq və Ermənistan ilə Azərbaycan arasında yeni dövr başlaya bilər. Əgər Ermənistan tərəfi verilən təklifə müsbət cavab verərsə və bunun əsasında Azərbaycan torpaqlarından Ermənistanın işğalçı qüvvələrinin çıxması prosesi başlanarsa, Azərbaycan, təbii ki, Ermənistanla bütün sərhədləri açacaqdır. Bütün kommunikasiyalar açılacaqdır və beləliklə, bölgədə tammiqyaslı sülh və təhlükəsizlik tədbirləri təmin oluna bilər”.

## “Güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır”

Bu fikirləri Türkiyə Prezidenti Azərbaycanda səfərdə olarkən qeyd edərək bildirib ki, Türkiyə-Azərbaycan əlaqələrinin bənzərsiz mahiyyəti var: “Hər ötən gün siyasi, hərbi, iqtisadi, mədəni, ticari - bütün sahələrdə bu əlaqə artaraq davam etməkdədir. Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır. Dünya birliyində də, şübhəsiz ki, bu iki ölkənin yeri çox önəmli olmaqdadır və olacaqdır”.

Bütün bunlar, ölkələrimiz arasında əldə olunan yeni razılışmalar, imzalanan müqavilələr bir daha xalqlarımız arasındakı dostluq, qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsindən, onun sarsılmazlığından xəbər verir.

**RƏFİQƏ HÜSEYNOVA**

### *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar əlavə tədbirlər barədə” 2002-ci il 24 avqust tarixli 776 nömrəli və “Dövlət qulluqçularının pensiya təminatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” 2005-ci il 3 iyun tarixli 244 nömrəli fərmanlarının ləğv edilməsi barədə Fərman imzalayıb.

Prezident İlham Əliyev “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 105-VIQD nömrəli Qanununun tətbiqi və “Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 9 fevral tarixli 530 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

## YAP tərəfindən "Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz" kitabı nəşr olunub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tarixi faktlara, sənədlərə istinadən beynəlxalq tribunalardan səsləndirdiyi Azərbaycan həqiqətləri ermənilərin əsrlər boyu dünyaya yaydıqları tarixi yalanları hər gün bir az daha artıq ifşa etməkdədir. SİA-nın verdiyi məlumata görə, bu həqiqətlər sırasında son iki əsrdə Cənubi Qafqazda yeridilən erməniləşdirmə siyasəti nəticəsində bölgəyə və bölgə xalqlarına gətirilən çoxlu bəlalar, münaqişə, müharibə, deportasiya və soyqırımları xüsusi yer tutur.

1918-ci ildə Azərbaycan torpaqları hesabına "Ararat Respublikası" adı ilə tarixdə ilk dövlətlərini yaratmaq fürsəti əldə edən ermənilər dərhal öz əsl simalarını ortaya qoydular və onlara bu fürsəti verən region xalqlarına, ilk növbədə ərazinin yerli sakinləri olan azərbaycanlılara qarşı kütləvi soyqırımı həyata keçirməyə, dinc əhalini qəddarlıqla və kütləvi şəkildə məhv etməyə başladılar. Sonra tarixi mənbə-lər saxtalaşdırıldı, bu ərazilərdə nə varsa, hamısı mənimsənildi, abidələrimiz, toponimlərimiz erməniləşdirildi.

3 iyun 2020-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tərtər rayon Olimpiya İdman Kompleksinin açılışındakı çıxışında alimlərimizin diqqətini bir daha bu məsələyə cəlb etdi, "İndiki Ermənistan Respublikasının ərazisi qədim Azərbaycan torpağıdır. Bu, tarixi faktdır. Heç uzağa getmək lazım deyil. XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir. Hər kəs görər ki, indiki Ermənistanın bütün ərazisindəki toponimlərin, demək olar ki, mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Mən xahiş edirəm, bizim alimlərimiz bunu dərc etsinlər ki, hər kəs görsün", - deyərək alimlərimizə çağırış etdi.

Bu çağırışa cavab olaraq Yeni Azərbaycan Partiyasının layihəsi kimi bugünlərdə "Elm və təhsil" nəşriyyatında tədqiqatçı alim, Milli Məclisin deputatı Əziz Ələkbərlinin "Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz" kitabı nəşr olunmuşdur. Kitabda Azərbaycanın tarixi torpaqları olan Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində ermənilər tərəfindən adı dəyişdirilmiş 953 toponimin - oykonim, oronim və hidronimin siyahısı verilmişdir. Bu toponimlər Ermənistan SSR-in soydaşlarımızın sonuncu (1988-ci il) deportasiyasına qədərki ərazi inzibati bölgüsü - rayonları üzrə qruplaşdırılmış, Qafqaz Hərbi Dairəsinin 1903-cü il hərbi-topoqrafik xəritəsindən hər rayona uyğun görüntülər verilmişdir.

Kitaba daxil edilmiş toponimlər hər bir toponimin "köhnə adı", "yeni adı" və "dəyişdirilmə tarixi" (bu dəyişdirilmə ilə bağlı Erm?nistan SSR Ali Soveti f?rmanının tarixi) xanaları üzrə qruplaşdırılmışdır. Bu özü də toponimlərimizin soyqırımının Ermənistanda dövlət səviyyəsində həyata keçirilməsinin əyani sübutudur. Kitabda Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində Azərbaycan toponimlərinin ermənilər tərəfindən dəyişdirilmə prinsiplərinə də xüsusi diqqət yetirilmişdir. Müəllif belə prinsiplərdən 11-i müəyyən etmiş və konkret nümunələrlə fikrini əsaslandırmışdır. Kitab geniş oxucu kütləsi və mütəxəssislər üçün nəzərdə tutulmuşdur.

## Aydın Mirzəzadə: "Koronavirusla mübarizədə tempi azaltmaq olmaz"

"Koronavirusla mübarizə məsələsində kifayət qədər böyük dairədə işlər görülür. Bunu qiymətləndirməmək ədalətsizlik olar. Həm dövlət, həm müvafiq strukturlar, həm də bu işə məsuliyyətli olan insanlar tərəfindən görülən işlər öz bəhrəsini verir. Artıq yoluxma gündəlik müəyyən sayda dayanıb, artım yoxdur. Digər tərəfdən də insanlar daha çox koronavirusun təhlükəsini hiss edirlər. Mən bunu ərzaq almaq üçün gedərkən şəhərdə müşahidə edirəm. İnsanların mütləq əksəriyyəti tibbi maskadan istifadə edir və sosial məsafəni qorumağa çalışırlar". Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü Aydın Mirzəzadə deyib.



Onun sözlərinə görə, lakin hesab edirəm ki, mübarizə məsələsində tempi azaltmaq olmaz və təbliğat işinə güclü şəkildə fikir vermək lazımdır: "Televiziya kanallarında, internet saytlarımızda bunu nla bağlı çox sayda materiallar, faktlar səsləndirilməlidir. Sadəcə olaraq bunun təhlükə yox, xəstəxanalarda, ailələrlə bu xəstəliyə yoluxmuş ailələrdə və ya hansısa bir yas məclisinə getməklə məclisin hamısının koronavirusa yoluxma faktları bizim informasiya məkanımızda çoxluq təşkil etməlidir. Eyni zamanda ara-sıra qaldırılan suallara operativ reaksiya vermək lazımdır. Məsələn mən Daxili İşlər Nazirliyini bu sahədə fəaliyyətini yüksək qiymətləndirirəm. Kimsə sosial şəbəkədə qanunazidd videogörüntü yerləşdirəndə və ya karantin əleyhinə çağırış səsləndirəndə dərhal həmin şəxslər məsuliyyətə cəlb edilirlər. Onların etiraflarını da cəmiyyətlə bölüşürlər".

A.Mirzəzadə vurğulayıb ki, eyni zamanda mən çox istərdim ki, TƏBİB tək koronavirusla deyil, cari dövrdə digər xəstəliklərlə mübarizəni necə apardıqlarını da göstərsin: "Çünki belə təsəvvür yaranır ki, TƏBİB ancaq koronavirusla məşğuldur. Axı insanlar başqa xəstəliklərlə də mübarizə aparırlar. Onların müalicəsi necə gedir. İnsanların sağlamlığı ilə əlaqədar əsas vəzifə necə yerinə yetirilir? Bunların da cəmiyyətlə paylaşılması çox vacib məsələdir. İstərdim ki, tanınmış insanların çağırışları tez-tez telekanallarda, saytlarda verilsin. Bu təkliflər aparılan əsas işə əlavələrdir. Əsas iş aparılır və bu işi qiymətləndirmək lazımdır".

## Nazirlik: Bir sıra icazələr yenidən aktivləşdirildi

Bir sıra hüquqi və fiziki şəxslərin işçilərinin sayına uyğun olaraq yol verilən limitlər çərçivəsində icazələrin aktivləşdirilməsi həyata keçirilib. İqtisadiyyat Nazirliyindən SİA-ya verilən məlumata görə, Nazirlər Kabinetinin 2020-ci il 19 iyun tarixli 208 nömrəli Qərarı ilə fəaliyyətinə icazə verilən sahələr üzrə hüquqi və fiziki şəxslərin müraciətləri əsasında icazələrin aktivləşdirilməsi davam edir. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə daxil olan müraciətlər təxirə salınmadan araşdırılır və əsaslı müraciətlər üzrə vergi ödəyicilərinin "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməsinin mümkünlüyü barədə məlumat dərhal Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ("ASAN xidmət"ə) göndərilir.



Aparılmış araşdırmalar nəticəsində əvvəllər icazəsi olmuş, sonradan isə icazələrin verilməsi məhdudlaşdırılmış bir sıra hüquqi və fiziki şəxslərin müraciətləri əsasında onların vergi orqanlarının məlumat bazasında olan fəaliyyət istiqamətləri və təsnifat kodları ilə bağlı məlumatları yenidən dəqiqləşdirilib, uçot baza məlumatları yenidən işlənib, belə işəgötürənlərin və əlavə fəaliyyət istiqamətləri icazə verilən sahələrə daxil olan bir sıra hüquqi və fiziki şəxslərin işçilərinin sayına uyğun olaraq yol verilən limitlər çərçivəsində icazələrin aktivləşdirilməsi həyata keçirilib. Bununla əlaqədar, hüquqi və fiziki şəxslərdən "icaze.e-gov.az" portalında icazələrinin aktivləşdirilməsini yenidən yoxlaması tövsiyə olunur. Xüsusi karantin rejimi tətbiq edilən dövrdə fəaliyyətinə icazə verilən, lakin "icaze.e-gov.az" portalında qeydiyyatdan keçə bilməyən sahibkarlıq subyektləri onlayn kargüzarlıq vasitəsilə Dövlət Vergi Xidmətinə müraciət edə bilərlər. İqtisadiyyat Nazirliyi bir daha bildirir ki, hüquqi və fiziki şəxslərə icazələr Nazirlər Kabinetinin qəbul etdiyi müvafiq qərara əsasən fəaliyyətinə icazə verilən sahələr üzrə aktivləşdirilir, yeni icazələrin alınması ilə bağlı yaranan məsələlərin həlli real vaxt rejimində aparılır və hazırda sistemin aktiv fəaliyyətinin təmin edilməsi üçün Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə iş aparılır.

## "Azərbaycan dövləti həyata keçirdiyi tədbirlərlə bir nümunə ortaya qoydu"



"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ötən gün yerli televiziya kanallarına müsahibəsində ölkədəki hazırkı vəziyyəti, koronavirusla mübarizə sahəsində görülən işləri, Azərbaycanın daxili və xarici siyasət məsələləri ilə bağlı geniş danışmış, bir çox prinsipial məsələlərə dair qəti mövqeyini ifadə etmişdir. Bütün görülən işlər, verilən qərarlar onu göstərir ki, Azərbaycan dövləti koronavirus təhlükəsi ilə mübarizədə aktivdir". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Olaylar.az-a SƏS Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib.

Ölkəmizdə koronavirus təhlükəsi ilə bağlı məsələnin tam nəzarətdə olduğunu deyən Baş redaktorun sözlərinə görə, Azərbaycandan fərqli olaraq, digər dövlətlərdə koronavirus problemi daha həyəcanla qarşılandı və ajiotaj səviyyəsinə qaldırıldı: "Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə koronavirus pandemiyasına qarşı görülən genişmiqyaslı tədbirlərin əsas məğzini əhalinin sağlamlığının qayğısına qalmaq, qlobal pandemiyadan az itki ilə çıxmaq təşkil edir. Dövlətimiz vətəndaşların rifah halının yaxşılaşdırılması, eləcə də ölkə iqtisadiyyatının sabitliyini təmin etmək üçün bütün imkanlardan istifadə edir. Hazırda koronavirusun ikinci dalğasını yaşamaqdayıq. İkinci dalğanın irəlidə necə davam edəcəyi sosial məsuliyyətdən asılıdır. Koronavirusa yoluxma ilə bağlı son statistikalar ürəkaçan deyil və bu vəziyyət bizi narahat olmağa vadar edir. Nəzarət də, virusa qarşı narahatlıq da davamlı olmalıdır. Pandemiya elan edildikdən sonra qısa müddətdə ölkə rəhbərliyi tərəfindən atılan addımlar bu gün olan müsbət nəticələrin təməli oldu. Sözsüz ki, dövlətin təhlükəsizlik tədbirlərinə daxil olan xüsusi karantin rejimi bir çox sahədə bizim gündəlik həyat vərdişlərimizi və fəaliyyətlərimizi məhdudlaşdırdı. Amma nəticədə biz bu gün böyük faciələrdən ilkin mərhələdə qoruna bildik".

Ölkəmizdə formalaşan müasir səhiyyə sisteminin koronavirusla mübarizə sahəsində bütün lazımi tədbirləri görməyə imkan verdiyini deyən B. Quliyev qeyd edib ki, yeni xəstəxanaların tikintisi, maska zavodunun fəaliyyətə başlaması, modul tipli xəstəxana komplekslərinin açılışı bunun bariz göstəricisidir: "Azərbaycanda formalaşdırılmış müasir səhiyyə sistemi koronavirusla mübarizə sahəsində bütün lazımi tədbirləri görməyə imkan verir. Ötən gün Bakının Xətai rayonunda Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan daha bir modul tipli hospitalının açılışı oldu. Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da iştirak etdilər. Hospital 10 korpusdan ibarətdir və burada 800 xəstəni qəbul etmək üçün hər cür imkan var. Modul tipli hospitalda yaradılan şərait müalicə işi ilə yanaşı, laborator müayinələri də qısa müddətə və keyfiyyətlə aparmağa imkan verir. Belə modul tipli xəstəxanaların istifadəyə verilməsi koronavirusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetmə və tibbi əlaqələndirmənin təmin edilməsində böyük rol oynayır. Çevik, vaxtında verilmiş qərarlar, yeni növ koronavirus (COVID - 19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, xəstəxanaların ən müasir tibbi avadanlıqlarla təchiz olunması ölkəmiz üçün çox böyük təhlükə olan bu infeksiyanın geniş yayılmasının qarşısını almağa xidmət edir. Lakin görülən bütün təxirəsalınmaz tədbirlərlə yanaşı, hər bir vətəndaşımız daha məsuliyyətli olmalıdır. Unutmamalıdır ki, COVID-19 sərhəd tanımır. Əgər vətəndaşlarımız təlimatlara tam əməl edərlərsə, həyata keçirilən tədbirlərə dəstək olarlarsa, təkcə özlərinin deyil, ailəsinin, doğmalarının səhhətini qorumuş olar, ən başlıcası, dünyada böyük problemə çevrilən qlobal pandemiyanın ölkəmizdə yayılmasının qarşısı alınar. COVID-19 pandemiyası zamanı hər bir dövlətin öz strategiyası, koronavirus qarşı mübarizədə fərqli yanaşma tərzi və öz metodları mövcud oldu. Şübhəsiz ki, indi hər bir ölkə öz vətəndaşlarını böhrandan az itki ilə çıxartmağa çalışır. Azərbaycanda da koronavirus pandemiyasından bir qədər əvvəl həyatın bütün sahələrinə təsir göstərən böyük islahatlar elan edildi və qısa müddətdə həyata keçirildi. Bu baxımdan, Azərbaycan dövlət başçısının uğurlarını Ümumdünya Səhiyyə Təşkilatı da yüksək qiymətləndirir".

Qurum rəhbəri bildirib ki, cənab İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində həmçinin iqtisadi göstəricilərə toxunaraq vurğulayıb ki, iqtisadiyyatın tənəzzülə uğramasına baxmayaraq, bəzi sahələrdə inkişaf müşahidə olunur: "Həqiqətən də koronovirus pandemiyasının yaratdığı bütün çətinliklərə baxmayaraq Azərbaycanda nəzərdə tutulan sosial layihələr uğurla həyata keçirilir. Azərbaycanda sosial-iqtisadi inkişafın dinamikası kifayət qədər münbit əsaslara söykənib və bu dinamika hətta koronavirus pandemiyası dövründə özünü qoruyub-saxlamaqdadır. Azərbaycanda həyata keçirilən sosial izolyasiya tədbirlərinin yaratdığı zərurət əsasında insanların evdə qalması nəticəsində müəyyən sosial problemlərin yaranması təbii hal idi. Dövlət hər zaman olduğu kimi, bu dəfə də ən çətin məqamda vətəndaşını darda qoymaraq müxtəlif birdəfəlik yardımlar, eləcə də sahibkarlıq subyektlərinin dəstək proqramları ilə pandemiya ilə mübarizədə ən operativ və adekvat qərar qəbul edən ölkələrdən biri olduğunu sübut etdi. Bir sözlə, dünya üçün böyük təhlükəyə çevrilən və qarşısının alınması üçün milyardlarla vəsait xərclənən koronavirusla mübarizədə Azərbaycan dövləti həyata keçirdiyi tədbirlərlə bir nümunə ortaya qoydu".

**Ceyhun Rasimoğlu**



***“COVID-19-un insan sağlamlığına, ölkələrin iqtisadiyyatına vurduğu zərbə göz önündədir. Hər bir ölkə bu çətinliklərdən az itki ilə çıxmaq istəsə də reallıq tamamilə onun əksini göstərir. Əlbəttə, hər bir məsələ müqayisə tələb edir. Statistikaya müraciət etdikdə görürük ki, Azərbaycanla əhalisi eyni olan bəzi inkişaf etmiş ölkələrdə yoluxanların sayı 60-70 min, ölənlərin sayı 10 mindir. Hansı ki, o ölkələrin səhiyyə sistemi bir çox hallarda nümunə kimi göstərilirdi. Bu kimi faktlar onu deməyə əsas verir ki, heç bir ölkə tam şəkildə özünü sığortalanmış hesab edə bilməz, ən əsası xəstəlik sərhəd tanımır. Azərbaycan ilk gündən həyata keçirdiyi məhdudlaşdırıcı tədbirlərlə bugünkü reallıqlara yol açdı. Koronavirusla mübarizənin birinci mərhələsini az itki ilə sona çatdıran ölkəmiz bu tədbirləri daha da sərtləşdirməklə insanların sağlamlığının prioritetliyini ön plana çəkərək, eyni zamanda, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində zəruri addımların atılmasının zəruriliyini açıqlayır.***

# “Karantin rejimi ilə bağlı tətbiq edilən qaydalar hər kəs üçün əsas olmalıdır”

Məhz Azərbaycanın COVID-19-dan qorunmaq strategiyasının beynəlxalq səviyyədə yüksək dəyərləndirilməsinin, həmçinin bu xəstəliklə mübarizədə təkmil təcrübəyə malik olmasının nəticəsidir ki, əksər dövlətlər bizim təcrübəmizdən yararlanır, eyni zamanda, Azərbaycanın birliyə, həmrəyliyə çağırışlarını, irəli sürdüyü təşəbbüsləri dəstəkləyir.” Bu fikirləri SİA Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

V.Rəhimzadə vurğulayıb ki, dövlətimizin başçısı İlham Əliyev koronaviruslu xəstələrin müalicəsi üçün Bakının Xətai rayonunda modul tipli hospitalın açılışı çərçivəsində Azərbaycan Televiziyası, İctimai Televiziyaya və “Xəzər” Televiziyasına müsahibəsində ölkəmizdə koronavirus pandemiyasına qarşı mübarizə tədbirlərinin uğurlu nəticələrindən bəhs edib. Cənab İlham Əliyev bu fkri xüsusi önə çəkib ki, bu xəstəlik belə bir reallığı da göstərib: - adətən hesab olunurdu ki, belə dəhşətli pandemiyalar, epidemiyalar, insanların yoluxucu xəstəliklərdən kütləvi şəkildə həlak olması ancaq geridə qalmış ölkələrdə mümkündür: “Amma həyat onu göstərdi ki, bu, belə deyil. Həyat onu göstərdi ki, bu gün pandemiyadan ən çox əziyyət çəkən ölkələr inkişaf etmiş ölkələrdir. Əgər onlar bu məsələyə tam çarə tapa bilmirlərsə, əlbəttə ki, o qədər də inkişaf etməmiş, yaxud da geridə qalmış ölkələrdə vəziyyəti təsəvvür etmək çətin deyil.”

“Ölkəmiz ilk gündən atdığı bütün addımlarını dərindən təhlil etdi, həmçinin Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrini əsas götürdü. Atılan addımlarda məqsəd təbii ki, insanların sağlamlığını, həyatını qorumaqdır. Dövlətimizin başçısı İlham Əliyev bu çağırışı edir ki, pandemiya dövründə bütün imkanlarımız səfərbər olunmalıdır ki, biz bu vəziyyətdən az itkilərlə çıxa bilək” söyləyən baş redaktor bildirib ki, bu problem xəstəliklə əlaqədar olduğu üçün ilk növbədə səhiyyə sistemində mövcud imkanlar diqqət çəkir. Hazırda Azərbaycan səhiyyəsi inkişaf dövrünü yaşayır: “Pandemiyaya qarşı mübarizə tədbirlərinə başlanan andan səhiyyə infrastrukturu bu mübarizəyə istiqamətləndirilərək, aidiyyəti qurumların fəaliyyəti əlaqələndirildi. Dövlətimizin başçısı İlham Əliyevin insan amilinə verilən dəyərdən qaynaqlanan addımları yeni tibb müəssisələrinin tikilib istifadəyə verilməsində, onların maddi-texniki bazasının möhkəmləndirilməsində, yüksək ixtisaslı, fədakar həkim heyətinin insanların sağlamlığının keşiyində dayanmalarının dövlətimiz tərəfindən yüksək dəyərləndirilməsində aydın görünür. Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə açılışı olan Bakının Xətai rayonunda modul tipli hospital bu diqqət və qayğının tərkib hissəsidir. Belə ki, dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı əsasında 10 modul tipli xəstəxana kompleksinin istifadəyə verilməsi nəzərdə tutulur ki, bunlardan 5-i artıq istifadəyə verilib. Bu komplekslərin müəyyən edilən şəhər və rayonlardakı mövcud xəstəxanaların yaxınlığında quraşdırılması və onlara təhkim edilməsi koronavirus xəstələrinin lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetməyə və tibbi koordinasiyanın təmin edilməsinə xidmət edir. Ümumilikdə, inşa ediləcək 10 modul tipli xəstəxana kompleksi ölkənin səhiyyə sisteminə əlavə 2000 çarpayılıq ehtiyat yaradır. Cənab İlham Əliyevin qeyd etdiyi kimi, xəstəxanaların tez bir zamanda inşa edilməsi hətta seytnot vəziyyətdə lazımi addımların atıldığını təsdiq edir.”

Dövlətimizin başçısı İlham Əliyevin “Heç bir ölkə bu pandemiyaya hazır deyildi. Bizim mövcud çarpayıların sayı adi rejimə hesablanmışdı. Ona görə, modul tipli xəstəxanaların tikintisi zəruri idi və biz bunu etdik” fikirlərini önə çəkən baş redaktor onu da əlavə edib ki, diqqət yetirsək görərik ki, ölkə Prezidentinin modul tipli on xəstəxananın tikintisi ilə bağlı qərarı xəstəliyin yayılması o qədər də geniş vüsət almadığı dövrə təsadüf edir: “Amma bu gün etiraf etmək lazımdır ki, əksər vətəndaşların məsuliyyətsizliyi üzündən yoluxanların sayı artmaqdadır. Dövlətimizin başçısı İlham Əliyevin növbəti modul tipli əlavə on xəstəxananın tikilməsi barədə qərarı məhz gələcəyə hesablanıb. Ölkəmizin səhiyyə sistemi koronavirus xəstələrinin müalicəsinə tam imkan yaradır. 45 xəstəxanada koronavirus xəstələri müalicə alırlar. Bu kimi addımlar bir daha dövlətimizin kompleks tədbirlərinin nə dərəcədə böyük əhəmiyyət daşıdığını, bugünümüzlə yanaşı, gələcəyimizə də hesablandığını bir daha ortaya qoyur. Hər bir sahə üzrə konkret Dövlət proqramlarının mövcudluğu və uğurlu icrası qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olmağı şərtləndirir. Cənab Prezident İlham Əliyevin “İqtisadi artım qeyri-neft sektorunun hesabına olmalıdır” çağırışına uyğun olaraq regionların malik olduğu potensial imkanlardan səmərəli istifadə etmək məqsədilə dövlətimizin başçısının təsdiqlədiyi regional inkişaf proqramlarının uğurlu icrası nəticəsində bölgələrdə tibb müəssisələrinin, Müalicə Diaqnostika mərkəzlərinin tikilib istifadəyə verilməsi diqqətdən kənarda qalmadı. Bu gün koronavirus xəstələrinin ixtiyarında olan 45 xəstəxandan 36-sı məhz möhtərəm Prezidentimizin Sərəncamı əsasında son illərdə inşa edilib. Cənab Prezident İlham Əliyevin vurğuladığı kimi, təsəvvür etmək çətin deyil ki, əgər bu xəstəxanalar tikilməsəydi, indi biz hansı problemlərlə üzləşə bilərdik. “

V.Rəhimzadə bildirib ki, insanların sağlamlığının qorunması üçün bütün xəstəxanalarda lazımi şərait yaradılıb. Mübarizə tədbirlərinə başlananda Azərbaycanda cəmi altı laboratoriya var idisə, hazırda bu laboratoriyaların sayı 29-a çatıb. Möhtərəm Prezidentimiz İlham Əliyev müsahibəsində bu rəqəmləri də açıqlayıb ki, 15 yeni laboratoriya sifariş edilib, laboratoriyaların sayı ümumilikdə 44-ə çatacaq. Bu isə öz növbəsində daha çox test aparmağa imkan yaradacaq. Bu günə qədər 500 mindən çox test aparılıb. Azərbaycan adambaşına düşən testlərin sayına görə dünyada təqribən 40-cı yerdədir.

Dövlətimizin insanların sağlamlığının təmin olunması istiqamətində atdığı addımlara diqqət çəkən V.Rəhimzadə bildirib ki, bu gün hər bir vətəndaşın üzərinə düşən vəzifə məsuliyyət hissini artırmaqdır. Mövcud qanunlar və karantin rejimi ilə bağlı tətbiq edilən qaydalar hər kəs üçün əsas olmalıdır. Çünki bütün qaydalar insanların, o cümlədən karantin rejimini pozanların sağlamlığının qorunmasına hesablanıb. Əgər dövlət lazım olan bütün tədbirləri həyata keçirirsə, həkimlərimiz sağlamlığımızın keşiyində dayanırlarsa, polis orqanları karantin qaydalarına riayət olunması üçün bütün qüvvə və bacarıqlarını səfərbər edirlərsə, təbii ki, hər bir vətəndaş bu diqqət və qayğıdan özünün sağlamlığı üçün nəticə çıxarmalı, özünün və ətrafının sağlamlığına çalışmalıdır. Qaydaları pozan insanlar daha məsuliyyətli olarlarsa və nizam-intizama riayət edərlərsə, pandemiyanı nəzarətdə saxlamaq mümkün olacaq.

Baş redaktor Azərbaycanın məhdudlaşdırıcı tədbirlərinin ilk gündən Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək dəyərləndirildiyini bildirib: “Dövlətimizin başçısı İlham Əliyevin qeyd olunan müsahibəsində də bu məqamlara xüsusi diqqət çəkilib. Azərbaycan da öz növbəsində Ümumdünya Səhiyyə Təşkilatını beynəlxalq arenada dəstəkləyir, ona maliyyə yardımı göstərir. Azərbaycan pandemiyadan sonra da Ümumdünya Səhiyyə Təşkilatı ilə əməkdaşlığını davam etdirəcək. İstər Ümumdünya Səhiyyə Təşkilatının baş direktorunun dövlətimizin başçısına ünvanladığı məktublarında, istərsə də cənab İlham Əliyevin təşəbbüsü ilə keçirilən Zirvə görüşlərinə videomüraciətində səsləndirdiyi fikirlər Azərbaycanın ilk gündən seçdiyi yolun düzgünlüyünü bir daha təsdiqləyir.”

V.Rəhimzadə onu da qeyd edib ki, insanların sağlamlığı ilə yanaşı, sosial müdafiələrinin gücləndirilməsi də dövlətimiz üçün prioritetdir. Heç bir sosial layihə təxirə salınmadı. 2020-ci ilin əvvəlindən indiyədək reallaşan sosial layihələr davamlılığı ilə diqqət çəkir: “Cənab İlham Əliyev müsahibəsində cari ildə ən həssas təbəqəyə aid olan layihələrin icra edildiyini diqqətə çatdırıb. Vurğulayıb ki, cari ildə məcburi köçkünlər üçün rekord sayda binalar tikiləcək, 7 mindən çox köçkün ailəsi yeni mənzillərlə təmin ediləcək. Şəhid ailələri üçün bu il 1500 mənzil istifadəyə veriləcək. İyirmi il orduda qüsursuz xidmət etmiş hərbçilərə cari ildə 400-dən çox mənzilin verilməsi nəzərdə tutulur. Ünvanlı sosial yardım alanların sayı artırıldı və 85 min ailəni, yaxud da 300 mindən çox insanı əhatə etdi. İşsizləri, o cümlədən qeyri-formal sahədə işləyənləri dəstəkləmək, pandemiyadan zərər çəkmiş sahələrdə çalışan insanlara maddi yardım göstərmək və digər məqsədlər üçün təqribən 3 milyard manat vəsait nəzərdə tutulur. Bu mühüm məqam da diqqətə çatdırılır ki, iqtisadiyyatın tənəzzülə uğramasına baxmayaraq, bəzi sahələrdə inkişaf müşahidə olunur. Azərbaycan dünya iqtisadiyyatının bir parçasıdır. Pandemiya ölkəmizdə də iqtisadi vəziyyətə mənfi təsir göstərmişdir. Azərbaycan iqtisadiyyatı beş ayın yekunlarına görə 1,7 faiz tənəzzülə uğradı. İqtisadiyyatın tənəzzülə uğramasına baxmayaraq bəzi sahələrdə, o cümlədən kənd təsərrüfatında 3 faizdən çox artım vardır. Qeyri-neft sənayesi sahəsində artım beş ay ərzində 16 faiz olub.”

Baş redaktor bildirib ki, bütün uğurlu nəticələr ona əsaslanır ki, dövlətimizin başçısı İlham Əliyev iqtisadiyyatın inkişafında neft-qaz sektorunun rolunu önə çəkməklə yanaşı, ilk gündən bu tələbi qarşıya qoymuşdur ki, iqtisadi artım qeyri-neft sektorunun hesabına olmalıdır. Nettin qiymətinin aşağı düşməsinə, həmçinin pandemiyanın ölkə iqtisadiyyatında böyük çətinliklər yaratmasına baxmayaraq, Azərbaycan bu çətinlikləri aradan qaldırmaq imkanında olduğunu bir daha dünyaya nümayiş etdirir.

V.Rəhimzadə dövlətimizin başçısı İlham Əliyevin müsahibəsində diqqət yönəltdiyi məsələlərdən biri kimi daxili bədxahlarımızın, düşmən dəyirmanına su tökənlərin neftin qiymətinin aşağı düşməsini sevinclə qeyd etmələrinə də münasmbətini açıqlayıb: “Möhtərəm Prezidentimiz İlham Əliyevin vurğuladığı kimi, neftin qiymətinin düşməsinə sevinən bir Ermənistandır, bir də özünü müxalifət adlandıran antimilli şura. Azərbaycan xalqı bu iyrənc mənzərəni görərkən bir daha əmin olur ki, kim kimdir. Nəzərə alsaq ki, neftin qiymətinin düşməsi, ilk növbədə, insanların sosial məsələlərinin həllində özünü göstərə bilər, bu halda özlərini xalqa yaxın göstərib, istər pandemiyadan əvvəl, istər hazırda görülən işlərin, istərsə də postpandemiya dövrü üçün nəzərdə tutulan addımların əhəmiyyətini azaltmağa çalışan bu ünsürlər bir daha xarici dairələrin göstərişləri əsasında hərəkət etdiklərini, dövlətin, xalqın maraqlarını arxa plana keçirdiklərini nümayiş etdirirlər. Ermənistana dəstək olan, ölkədə əhalinin sosial vəziyyətinə təsir etmək imkanında olan hansısa hadisəni sevinclə qeyd edən bələlərinin xalqın adından danışmağa haqqı yoxdur. Onların yeri hər zaman qeyd edilidyi kimi, tarixin zibilliyidir. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, neftin qiymətinin aşağı düşməsini sevinclə qeyd edənlər Azərbaycan dövlətçiliyinə düşmənçilik hissləri ilə yaşayırlar. Vurğulandığı kimi, neftin qiyməti hətta 14 dollar da olsa, Azərbaycan ayaqda duracaq. Ölkə iqtisadiyyatının elmi əsaslara söykənməsi, şaxələndirmə siyasətinin uğurlu nəticələri, bir sözlə, son illərdə yaradılmış böyük iqtisadi-maliyyə potensialı istənilən böhranla bacarmağa imkan verir. 2008-ci ildə dünyanı bürüyən iqtisadi və maliyyə böhranı bu kimi məqamlara işıq salmışdır. Həmin dövrdə Azərbaycan öz iqtisadi artımı ilə dünyanın diqqətində oldu. Azərbaycanın davamlı inkişafı üçün möhkəm baza mövcuddur.”

# 145 illik yol: Dünənimizə baxış, perspektivlərin müəyyənləşdirilməsində zəngin mənbə

***Azərbaycan milli mətbuatının 145 yaşı tamam olur. 1875-ci il iyulun 22-də görkəmli ziyalı və maarifçi-publisist Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi və həmin dövr Azərbaycanın ictimai-siyasi həyatının mühüm hadisəsi kimi tarixə yazılıb. Milli mətbuatın bu illər ərzindəki tarixi inkişafını əsasən 4 mərhələyə bölmək olar: "Əkinçi" qəzetindən Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına qədər olan dövr, Cümhuriyyət dövrü, sovet dövrü və müstəqillik dövrü.***

Mətbuatımız bütün dövrlərdə həqiqətin carçısı kimi çıxış etmiş, milli-mənəvi dəyərlərimizin, Azərbaycan ədəbi dilinin, azərbaycançılıq ideologiyasının təbliğinə, maarifçilik hərəkatının inkişafına davamlı töhfələr vermişdir. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, ötən dövrlərdə zəngin və şərəfli yol keçən Azərbaycan mətbuatı hazırda özünün yeni inkişaf mərhələsini yaşayır.

Yeni dövrün təməlini müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev qoyub. Mətbuatı cəmiyyətin güzgüsü kimi dəyərləndirən Ümummilli Lider söz, fikir azadlığının prioritetliyini önə çəkərək KİV-lərin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirib. Onun 6 avqust 1998-ci il tarixli Sərəncamı ilə ölkəmizdə senzura ləğv olunub. Bununla da azad mətbuatın inkişafında yeni mərhələnin əsası qoyulub. Ulu Öndərin mütəmadi olaraq KİV və jurnalist təşkilatlarının rəhbərləri ilə görüşü, onların problemləri ilə yaxından tanış olaraq həlli istiqamətində addımlar atması media ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanırdı. Ümummilli lider Heydər Əliyevin mətbuata belə dost, səmimi münasibəti jurnalistlər tərəfindən də yüksək dəyərləndirildi və Ulu Öndər 2002-ci ildə "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi tərəfindən "Jurnalistlərin dostu" mükafatına layiq görüldü.

Son 16 ildən artıq dövrdə ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyev "Hüquqi dövləti azad mətbuatsız təsəvvür etmək olmaz" tezisini irəli sürərək bu istiqamətdə davamlı addımları ilə diqqət çəkir. Ölkəmizin artan iqtisadi qüdrəti azad mətbuatın inkişafına xidmət edən tədbirlərin həyata keçirilməsinə, Dövlət proqramlarının icrasına, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsinə geniş imkanlar yaradır. Belə ki, cənab İlham Əliyevin 31 iyul 2008-ci ildə imzaladığı Sərəncamla "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" təsdiq edildi, 3 aprel 2009-cu il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında KİV-lərə Dövlət Dəstəyi Fondu yaradıldı. Hər iki sənəd azad mətbuatın inkişafına geniş imkanlar yaratmaqla jurnalist peşəkarlığını artırmaq, mətbuatın maddi-texniki bazasını möhkəmləndirmək və sair kimi məqrsədlərə xidmət edir. 2005-ci ildən jurnalistlərə fəxri adların verilməsi ənənəsinin qoyulması, milli mətbuatımızın yubileylərinin dövlət səviyyəsində keçirilməsi, jurnalistlərin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması ilə bağlı sərəncamların imzalanması azad mətbuatın inkişafının prioritetliyini təsdiqləyən addımlardandır.

Bu məqamı da xüsusi qeyd etməliyik ki, 2003-cü ilin mayında mətbuata nəzarət funksiyasını tənzimləyən Mətbuat Şurasının yaradılması da azad sözün, fikrin qorunmasına və imkişafına xidmət edir. Atılan bu kimi addımlar ümumilikdə jurnalistlərin peşəkarlığını şərtləndirir. Dövlətimizin başçısı İlham Əliyev 22 iyul 2010-cu ildə Mətbuat Şurasının yeni binasının açılışında bildirmişdir ki, jurnalistlər çox məsuliyyətli olmalıdırlar. Burada qərəzsiz mövqe çox vacibdir: "Mən media sahəsində gələcək inkişafı müstəqil, sözün əsl mənasında, müstəqil



*Xatirə Əliyeva*
*YAP Mətbuat Xidmətinin əməkdaşı,*
*Siyasi elmlər üzrə fəlsəfə doktoru*

medianın gücləndirilməsində görürəm."

Cənab İlham Əliyev hər addımında mətbuatın hamisi olduğunu nümayiş etdirir. Dövlətimizin başçısının 2010-cu ildə "Mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Sərəncamı dünyada analoqu olmayan addım kimi dəyərləndirildi. Bu yeni addım jurnalistlərin sevincini artırdı, onlara xoş ovqat bəxş etdi. Bu məqsədlə ilk Sərəncam 2010-cu ildə imzalanaraq birinci bina 2013-cü ildə Milli Mətbuat Günündə jurnalistlərin istifadəsinə verildi. Növbəti sərəncamlar 2013 və 2017-ci illərdə imzalandı. 2017-ci ildə ikinci bina istifadəyə verildi, üçüncü binanın istifadəsi isə cari il üçün nəzərdə tutulub. Dövlətimizin başçısı İlham Əliyev jurnalistlər üçün tikilmiş ikinci binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində bildirmişdir: "Prezident kimi mən azad medianın inkişafı üçün bundan sonra da səylərimi əsirgəməyəcəyəm. Jurnalistlərin məişət problemlərinin həlli üçün də bundan sonra da biz öz addımlarımızı atacağıq. Çünki mən yaxşı başa düşürəm ki, jurnalist biznesmen, iş adamı deyil. Jurnalistika ilə məşğul olan insan üçün mənzil almaq o qədər də asan məsələ deyil və dövlət burada həmişə sizin yanınızdadır. Azərbaycan dövləti güclü dövlətdir, sosial dövlətdir."

Ölkəmizin iqtisadi qüdrəti artdıqca, maliyyə imkanları genişləndikcə, bu, özünü digər sahələr kimi, mətbuatın da inkişafına yönələn addımlarda göstərir. Media ictimaiyyəti dövlətimizin bu diqqət və qayğısını yüksək dəyərləndirir. Belə ki, cənab İlham Əliyev son 16 ildən artıq dövrdə 3 dəfə "Jurnalistlərin dostu" mükafatına layiq görülüb. Cənab İlham Əliyev ilk "Jurnalistlərin dostu" mükafatının təqdimatında "Bu gün mənim həyatımda çox əlamətdar bir gündür. Mən bu yüksək mükafata layiq görülmüşəm. İstəyirəm ki, bu kürsüdən bu mükafatı mənə verən, məni bu mükafata layiq görən bütün insanları salamlayım, onlara dərin minnətdarlığımı bildirim və sizi əmin edim ki, bundan sonra da mən öz fəaliyyətimdə çalışacağam ki, Azərbaycanda azad mətbuatın, müstəqil mətbuatın inkişafı üçün səylərimi davam etdirəm, Azərbaycanda bütün demokratik islahatların aparılmasında daha da fəal olam və beləliklə, biz ölkəmizin hərtərəfli inkişafını təmin edə bilək" söyləyərək dövlət başçısının bu vədi növbəti illərdə atdığı davamlı addımlarda öz aydın ifadəsini tapdı.

Bu gün dünyanı cənginə alan COVID-19-a qarşı mübarizə tədbirlərinin ölkəmizdə daha da gücləndirildiyi, sərt karantin rejiminin tətbiq edildiyi bir zamanda dövlətimizin başçısı İlham Əliyevin 30 iyun 2020-ci il tarixli "Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı bir daha azad mətbuatın inkişafına verilən önəmi açıqladı. Sərəncamda Prezident Administrasiyasına COVID-19 pandemiyası ilə əlaqədar Azərbaycan Respublikasının ərazisində tətbiq edilən xüsusi karantin rejiminin tələbləri və Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələri nəzərə alınmaqla yubiley tədbirlərinin keçirilməsini təmin etmək tapşırılıb. Həmçinin Prezident Administrasiyası jurnalist təşkilatlarının və redaksiyaların təklifləri əsasında Azərbaycan milli mətbuatının inkişafında xüsusi xidmətləri olan jurnalistlərin mükafatlandırılması haqqında təklifləri Azərbaycan Prezidentinə təqdim etməlidir.

Dövlətimizin başçısısının bu mühüm addımı jurnalist əməyinə verilən yüksək dəyərə bir daha işıq salır. Cənab İlham Əliyevin pandemiyaya qarşı mübarizənin ilk günlərindən "Biz birlikdə güclüyük!" çağırışı bütün ölkə vətəndaşlarını səfərbər etdi, insanların sağlamlıqlarının, Azərbaycanın davamlı inkişafının təmin edilməsi istiqamətində ciddi səylər göstərməyi bir tələbə çevirdi. Hər zaman olduğu kimi, bu gün də Azərbaycan mətbuatı öz vəzifə borcunu, missiyasını layiqincə yerinə yetirməyə çalışır. Dövlətimizin başçısı İlham Əliyevin, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın xalqımıza müraciətlərində əksini tapan fikirlər mətbuatın maarifləndirmə işinin gücləndirilməsi istiqamətində göstərdiyi səylərdə öz ifadəsini tapır. Mehriban xanım Əliyevanın xalqımıza müraciətində vurğulandığı kimi, bu gün koronavirus epidemiyası ilə mübarizədə ön cəbhədə olanlara ən gözəl minnətdarlıq özünütəcrid rejiminə riayət etməkdir. Cənab İlham Əliyevin ilk gündən özünütəcridi mübarizədə qələbənin əsası kimi önə çəkməsi beynəlxalq səviyyədə də təqdir olundu və əksər dövlətlər ölkəmizin təcrübəsindən istifadə etdilər.

Hər bir məsələnin həllində maarifləndirmə işinin lazımi səviyyədə qurulmasının əhəmiyyətini nəzərə alsaq, yazılı və elektron KİV-in üzərinə düşən məsuliyyətin nə dərəcədə böyük olduğunu görərik. Pandemiyaya qarşı mübarizə tədbirləri ilə bağlı maarifləndirici yazılar, verilişlər son dövrün əsas mövzularıdır. Çağırışımız belədir: Evdə qalaq, doğmalarımızı qoruyaq, həkimlərə dəstək olaq, dövlətimizin davamlı inkişafını düşünək!

Bu kimi məqamlar bir daha belə bir reallığı ortaya qoyur ki, mətbuat hər bir dövrün çağırışlarını lazımi səviyyədə cavablandırmalı, cəmiyyətin informasiya tələbatını heç bir qərəzə, təhrifə yol vermədən ödəməli, ən əsası qarşısında dayanan obyektivlik, milli şüur və vətənpərvərlik kimi prinsiplərə dönmədən əməl etməlidir. Dövlətimizin başçısı İlham Əliyevin mətbuatın 145 illiyi ilə bağlı Sərəncamında da bu vacib məqamlara xüsusi diqqət yönəldilib: Ökəmizdə müstəqil, güclü, fəaliyyətini günümüzün tələbləri səviyyəsində qurmağı bacaran, dövlətçilik ənənələrinə bağlı və xalqımızın milli maaqlarını rəhbər tutan medianın inkişafı prioritet vəzifələrdən biri kimi daim diqqət mərkəzində saxlanılır. Bununla yanaşı, KİV də ölkəmizdə həyata keçirilən köklü islahatlardan kənarda qalmamalı, kommunikasiya texnologiyalarının inkişaf etdiyi hazırkı dövrdə qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğunlaşmalı, cəmiyyətimizin obyektiv və peşəkar şəkildə məlumatlandırılması sahəsində öz səylərini daha da artırmalıdır. Modernləşmə, obyektivlik, kreativlik, qabaqcıl texnologiyaların geniş şəkildə tətbiqi, aparıcı trendlərin izlənilməsi medianın inkişafını şərtləndirən başlıca amillər olmalıdır.

Təbii ki, bu tələblər mətbuatın inkişafına diqqət və qayğıdan irəli gəlir. Məhz atılan addımların nəticəsidir ki, Azərbaycan mətbu orqanların sayına görə MDB məkanında liderliyini qoruyur. Ölkə əhalisinin 85 faizi internet istifadəçisidir. İnternetin azad olduğu, heç bir məhdudiyyətin olmadığı ölkədə azad mətbuatın inkişafı qaçılmazdır. Demokratik, hüquqi və sivil dövlət quruculuğu yolunu tutan Azərbaycan bu yönümdə atdığı davamlı addımları ilə hər zaman demokratik ölkə imicinə yeni-yeni əlavələr edir. Mətbuatımız müasir dövrün yaratdığı imkanlardan istifadə edərək yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması işinə töhfələrini daha da artıraraq, dövlətimizin qətiyyətli mövqeyi, xalqımızın iradəsi, beynəlxalq dəstəyin fonunda qələbə sevincimizin müjdəçisi olacağına əmindir. O gün uzaqda deyil.

## "Prezidentin təşəbbüsü beynəlxalq ictimaiyyəti



*İlqar İlyasov*
*YAP Laçın rayon təşkilatının sədri*

## səfərbər edəcək"

Dünyada koronovirus pandemiyasının tüğyan etdiyi ilk gündən Prezident Ilham Əliyevin rəhbərliyi ilə ölkəmiz koronovirusla regional və qlobal səviyyədə mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədi ilə bir sıra zəruri təşəbbüslər irəli sürdü, məqsədyönlü addımlar atdı. Qoşulmama Hərəkatının sədri kimi möhtərəm prezidentimizin təşəbbüsü ilə COVID-19-a qarşı mübarizədə biz birlikdəyik mövzusunda keçirilən zirvə görüşündə Azərbaycan öz səmimi mövqeyini ortaya qoydu və bütün ölkələri bu bəlaya qarşı birgə mübarizəyə səslədi. Dövlət başçımız elə həmin konfransda qlobal həmrəyliyin nümunəsi kimi, pandemiya ilə mübarizə məqsədi ilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sesiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etdi. Hərəkat üzvləri təşəbbüsə yekdilliklə səs verdilər. BMT-nin xüsusi sesiyalarının keçirilməsi üçün 97 ölkənin bu təşəbbüsü qiymətləndirməsi lazım olduğu halda Möhtərəm Prezidentimizin təşəbbüsü təşkilata üzv olan 130-dan artıq ölkə tərəfındə dəyərləndirildi. Yalnız Ermənistan yenə öz ampluasında çıxış edərək, bu humanist təşəbbüsü dəyərləndirmədi. Ermənistan qlobal xarakter daşıyan bu humanist təşəbbüsə qarşı çıxış etməklə öz irticası simasını dünya birliyinə nümayiş etdirdi. Təşəbbüsü dəstəkləyən ölkələr arasında BMT-nin təhlükəsizlik şurasının daimi üzvləri ilə yanaşı kiçik ada dövlətlərinə qədər var. BMT baş katibinə ünvanlanan məktublarda Prezident Ilham Əliyevin Baş Assambleyanın Xüsusi sesiyasının keçirilməsi ilə bağlı təşəbbüsünün vaxtında verilmiş və çox ehtiyac duyulan bir təşəbbüs olduğu vurğulanır. Hər bir Azərbaycanlı ölkə Prezidentinin bu humanist təşəbbüsünü dəstəkləyir və ümüd edir ki,xüdusi sesiya pandemiya ilə mübarizədə beynəlxalq ictimaiyyətin tam olaraq səfərbər olmasına şərait yaradacaqdır. Ölkəmizdə COVİD-19 -a qarşı mübarizə tədbirləri beynəlxalq təcürbəyə söykənir, Ümumdünya Səhiyyə Təşkilatının tövsüyyələrinə uygun aparılır. Azərbaycanın birinci vitse- prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın pandemiya ilə mübarizədə göstərdiyi dəstəyi xüsusi qeyd etmək lazımdır. Dövlətimizin pandemiya dövründə göstərdiyi bütün qabaqlayıcı tədbirlər xalqımız tərəfindən yüksək qiymətləndirilir və hər bir vətəndaş Dövlətlə öz həmrəyliyini nümayiş etdirir.

# Prezidentə yazırlar: “Sizin rəhbərliyinizlə dövlətimizin həyata keçirdiyi tədbirlər xalqımızda böyük qürur hissi yaradıb”

***Azərbaycan vətəndaşları Prezident İlham Əliyevə minnətdarlıq məktubları ünvanlamaqda davam edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.***



Laçın rayonundan məcburi köçkün Ramil Xudayarov yazır: “Hörmətli cənab Prezident, mənim ailəm 1992-ci ildə doğma yurd-yuvamız olan Laçın rayonundan məcburi köçkün düşdükdən sonra 28 il Ağcabədi rayonunun “Taxta körpü” adlanan ərazisində şəraiti ağır olan qamış evlərdə yaşamışdır. Mən doğma yurd-yuvamı canlı olaraq görməsəm də, valideynlərimin mənə danışdığı təəssüratlar beynimdə dərin iz salmışdır. Məcburi köçkün olaraq həmişə Sizin diqqət və qayğınızın şahidi olmuşam. Bu məktubu ünvanlamaqda məqsədim ailəmizə göstərdiyiniz diqqət və qayğıya görə Sizə təşəkkür etməkdir. Cənab Prezident, 2019-cu ilin sonunda Ağcabədi rayonunun “Taxta körpü” ərazisində Laçın rayonunun Şeylanlı kəndinin əhalisi üçün salınmış 144 saylı qəsəbədə ailəmiz evlə təmin olunmuşdur. Ailəmizə edilən bu yaxşılığı heç vaxt unutmayacağıq. Göstərdiyiniz diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımı bildirirəm. Mən bir Azərbaycan gənci olaraq daim Sizin siyasətinizi dəstəkləyir, Vətənim, dövlətim üçün layiqli gənc olmağa çalışıram. Sizə uzun ömür və cansağlığı arzu edirəm”.

İsmayıllı rayonunun Talıstan kəndinin sakinləri adından Sihət Şirəliyev: “Möhtərəm cənab Prezident, Sizin bu günlərdə rayonumuzun su təchizatının yaxşılaşdırılması məqsədilə 10 subartezian quyusunun qazılması ilə bağlı verdiyiniz Sərəncam rayonumuzun bütün sakinləri kimi, bizi də ürəkdən sevindirir. Belə quyuların kəndimizdə də qazılacağına hədsiz dərəcədə sevinir və Sizə bütün kənd sakinlərinin minnətdarlığını, dərin hörmət və ehtiramını yetiririk. Ölkəmizin rifahı naminə Sizə möhkəm cansağlığı və fəaliyyətinizdə yeni-yeni uğurlar arzu edirik”.

Bakı şəhərinin Yasamal rayonundan Əməkdar jurnalist Mahir Məmmədlinin məktubunda deyilir: “Möhtərəm cənab Prezident, bütün dünya, o cümlədən Azərbaycan üçün koronavirus pandemiyasının yaratdığı problemlər fonunda “Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamınız Sizin kütləvi informasiya vasitələrinə və jurnalistlərə nə qədər böyük önəm verdiyinizin sübutu oldu. Dünyada pandemiya başlayandan hər bir Azərbaycan vətəndaşı - sahibkarlar, muzdlu işçilər, işsizlər, aztəminatlı ailələr Sizin vətəndaşlara diqqətinizi hiss etdi, insanlarımızın sağlamlığı naminə dövlətin böyük vəsait ayırdığını gördü. Biz jurnalistlər xüsusi karantin rejimində də Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinə əməl etməklə fəaliyyətimizi davam etdiririk, ölkə əhalisini dolğun və ən əsası, doğru xəbərlərlə təmin etməyə çalışırıq. Bilirik ki, dövlətimizə, onun rəhbərliyinə qarşı məkrini həyata keçirmək üçün pusquda dayanan, bizi sevməyən xarici dairələrdən maliyyələşən qüvvələr var və əsl jurnalistlər meydanı onlara buraxmamalıdırlar. Cənab Prezident, koronavirusla mübarizə apardığımız bir vaxtda milli mətbuatımızın 145 illik yubileyinin qeyd olunması ilə bağlı Sərəncam imzalamağınız jurnalistləri heç vaxt unutmadığınızın, “mənim köməkçilərim” adlandırdığınız bizə daim diqqət göstərdiyinizin isbatıdır. Mən bu diqqətin sevincini həm də xüsusi olaraq yaşamış biriyəm və Sizin Sərəncamınızla “Əməkdar jurnalist” fəxri adı almağımla fəxr edirəm”.

Ağcabədi rayonu Salmanbəyli kənd tam orta məktəbinin müəllimi Gülbikə Məmmədova: “Hörmətli cənab Prezident, Qarabağ məsələsi bizim ən ağrılı yerimizdir. Beynəlxalq təşkilatlar bu məsələyə qarşı biganəlik nümayiş etdirirlər. Bəzən bizi həmin tribunalardan pisləyib gözdən salmaq istəyirlər. Lakin Siz bu məsələdə Azərbaycanın mövqeyini layiqincə təmsil edirsiniz. İyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən sammitindəki çıxışınız bizi sabaha daha da ümidləndirdi. Siz Ermənistanın hökumət başçısını susdurdunuz. O, deməyə söz tapmadı. Bu düşmən tərəfin haqsız olduğunu bir daha təsdiqlədi. Ulu Tanrının köməyi və Sizin düşünülmüş siyasətinizlə Qarabağ məsələsinin ədalətli həllini tapacağına inanırıq. Biz daim Sizin siyasətinizi dəstəkləyirik. Əgər müharibə olarsa, qadın olmağıma baxmayaraq, Sizin əmrinizlə torpaqlarımızın düşmən tapdağından azad olunmasında iştirak etməyə daim hazıram”.

İsmayıllı rayonunun Hacıhətəmli kəndinin sakinləri Maqsud Hüseynov, Nazim Ağakişiyev, Əvəz Kərimov, Əlişir Babliyev və Ramil Salmanov yazırlar: “Hörmətli cənab Prezident, İsmayıllı rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında Sərəncamınız bütün İsmayıllı sakinləri kimi, Hacıhətəmli kənd sakinlərinin də sevincinə səbəb olmuşdur. Uzun illər susuzluqdan əziyyət çəkən Hacıhətəmli kənd sakinləri Sərəncamınızla içməli su ilə təmin olunacaq və kəndin əsas problemlərindən biri həllini tapacaqdır. Bu böyük diqqət və qayğınıza görə Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Müstəqil Azərbaycanımızın tərəqqisi və inkişafı yolunda Sizə yeni uğurlar diləyirik”.

Salyan rayonunun Şorsulu kəndinin sakinləri adından Akif İbrahimov, Rəis Abdullayev, Nizami Şükürov, Şahmar Cavadov, Emin Hüseynzadə və Yusif Sadıqzadə yazırlar: “Möhtərəm cənab Prezident, Salyan rayonunun Şorsulu kəndinin sakinləri Sizin göstərişlərinizlə rayonumuzda görülən böyük quruculuq işlərini, iqtisadi həyatımızın yaxşılaşması üçün həyata keçirilən tədbirləri, mədəni həyatımızın yüksəlməsi üçün verdiyiniz sərəncam və fərmanları böyük ruh yüksəkliyi ilə qarşılayırlar. Koronavirusla əlaqədar gördüyünüz qabaqlayıcı tədbirlər böyük alqışa layiqdir. Pandemiya dövründə təqaüdlərimizi, sosial yardımları, 190 manat məbləğində birdəfəlik ödəməni vaxtında ala bildik. Pandemiya dövründə xalqımızın indiyədək az itki verməsi, həmçinin əvvəlki illərdə təbii fəlakətlər zamanı çətinə düşmüş insanlara böyük kömək göstərilməsi onu deməyə əsas verir ki, Siz Azərbaycan xalqının xilaskarısınız. Taleyimizin etibarlı əllərdə olmasından mənəvi rahatlıq tapırıq. Allah Sizə və ailənizə hər zaman firavan həyat qismət eləsin”.

Gəncə şəhərindən Mehman Rzayev: “Çox hörmətli cənab Prezident, Sizin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Gəncəyə hər səfəriniz şəhərimizin gündən-günə inkişaf etməsinə, çiçəklənməsinə, gözəlləşməsinə xidmət edir. Sizin diqqət və qayğınız sayəsində Gəncə bu gün sənaye mərkəzinə çevrilir, yeni layihələr həyata keçirilir. Vətəndaşların maddi rifahının yaxşılaşdırılması, onların sağlamlığının qorunması istiqamətində atılan addımların bariz nümunəsi kimi yeni tikilən müəssisələri, açılan iş yerlərini, inşa edilən müasir tipli xəstəxanaları, universitet binalarını, tələbə yataqxanalarını, məktəb və bağçaları xüsusi qeyd etmək lazımdır. Sizin hər səfərinizdə verdiyiniz tapşırıqlar, rəhbərliyinizlə həyata keçirilən böyük layihələr qədim Gəncənin daha da yaraşıqlı və müasir bir şəhər olması üçün vacibdir. Sizin Gəncənin inkişafı üçün ayırdığınız böyük maliyyə vəsaitləri şəhərimiz üçün tarixi qərardır. Bu gün bütün dünyada COVID-19 pandemiyasının tüğyan etdiyi bir vaxtda qəbul etdiyiniz məqsədyönlü qərarlar sayəsində Azərbaycan bu ağır xəstəlik qarşısında aciz qalmır. Yeni xəstəxanalar, tibb ocaqları tikilir, bir sözlə, vətəndaşların sağlamlığının qorunması istiqamətində əməli işlər görülür. Cənab Prezident, Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Allahdan möhkəm cansağlığı arzu edirəm. Ümid edirəm ki, Sizin uzaqgörənliyiniz və böyük təcrübəniz sayəsində xalqımız bütün çətinlikləri arxada qoyacaq. Bir ziyalı kimi Sizə dərin minnətdarlığımı bildirirəm”.

Zaqatala şəhərindən Turan Əsədov dövlətimizin başçısına minnətdarlıq edərək yazır: “Möhtərəm cənab Prezident, bütün dünya koronavirusla üz-üzə qaldığı vaxtda Sizin rəhbərliyinizlə dövlətimizin həyata keçirdiyi tədbirlər Azərbaycan xalqında böyük qürur hissi yaradıb. Bəşəriyyəti bürüyən bu bəladan qorunmaq üçün xalqa etdiyiniz müraciətlər, qısa müddətdə çoxlu sayda laboratoriyanın, modul tipli xəstəxanaların istifadəyə verilməsi, tibbi maska istehsal edən müəssisənin açılışı, sosial paketlərin həyata

# Prezidentə yazırlar: “Sizin rəhbərliyinizlə dövlətimizin həyata keçirdiyi tədbirlər xalqımızda böyük qürur hissi yaradıb”

keçirilməsi sübut etdi ki, ölkəmizdə bütün lazımi addımlar yüksək səviyyədə atılır. Koronavirus pandemiyası ilə əlaqədar həyata keçirdiyiniz bütün bu qabaqlayıcı tədbirlər xalqımıza olan məhəbbət və sevginizin təzahürüdür. İndiki ağır günlərdə daim xalqımızı düşündüyünüz, ona dəstək olduğunuz və qayğısına qaldığınız üçün Sizə dərin minnətdarlığımı bildirirəm. İnanırıq ki, bu çətin günlər tezliklə arxada qalacaq, xalqımız bu bəladan xilas olacaq və ölkəmizdə həyat yenidən əvvəlki axarına düşəcək”.

Biləsuvar rayonunun Günəşli kəndindən Bəhruz Nəbili: “Hörmətli cənab Prezident, Sizin kənd təsərrüfatına göstərdiyiniz diqqət və qayğı, xüsusilə də pandemiya dövründə verdiyiniz sərəncamlar əhalinin məşğulluğunun daha da artması üçün böyük perspektiv vəd edir. Biləsuvar aqrar rayon olduğu üçün buranın əkin sahələrinin su təminatının yaxşılaşdırılması ilə bağlı verdiyiniz sərəncamlar rayon sakinlərinin əməyə və zəhmətə həvəsini daha da artırır. Uzun illərdir ki, rayonumuzda su çatışmazlığı ucbatından yaranan bir çox çətinliklər əlimizi işdən soyutmuşdu. Bir müddət bundan əvvəl rayonumuzun bir neçə kəndinin, son Sərəncamınızla isə Çinarlı kəndinin əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədilə vəsaitin ayrılması biz biləsuvarlıları çox sevindirdi. Göstərilən qayğıya görə bütün biləsuvarlılar adından Sizə dərin minnətdarlığımı bildirirəm”.

Şirvan şəhərindən Rafiq Səfərov: “Hörmətli cənab Prezident, Siz Azərbaycanda COVID-19 infeksiyasının qarşısının alınması istiqamətində böyük işlər görürsünüz. Bu ağır şəraitdə pandemiyaya qarşı mübarizə ilə əlaqədar gördüyünüz tədbirlər, səhiyyə sistemimizin günün tələblərinə uyğunlaşdırılması, əhalinin sosial rifah halının qorunması istiqamətində atdığınız addımlar, insanlarımıza verdiyiniz dəyər xalq tərəfindən alqışlanır. Cənab Prezident, bizə verdiyiniz dəyərin ölçüsü yoxdur. Mən ailə üzvlərimizlə birlikdə vətəndaşlarımıza göstərdiyiniz bu diqqət və qayğıya görə Sizə dərin təşəkkürümü bildirirəm. İnanırıq ki, yaşadığımız bu mürəkkəb dövr tez bir zamanda sona çatacaq, Sizin rəhbərliyinizlə Azərbaycan daha da inkişaf edəcək. Azərbaycanın işıqlı gələcəyi ulu öndər Heydər Əliyevin layiqli davamçısı kimi Sizin həyata keçirdiyiniz uzaqgörən siyasətlə bağlıdır. Sizə bu çətin və şərəfli yolda daim uğurlar arzu edirik. Biz şirvanlıların xeyir-duası həmişə Sizinlədir. Allah Sizi qorusun!”.

Bakının Binəqədi rayonundan Orxan Bəylərov: “Möhtərəm cənab Prezident, Siz cəmiyyətimizi və dövlətimizi vəzifə səlahiyyətlərindən sui-istifadə edən məmurlardan qorumaq, qeyri-qanuni hərəkətlərə yol vermiş şəxsləri ifşa etmək və onları cəzalandırmaq üçün əlinizdən gələni edir, bununla bağlı göstərişlər verirsiniz. Sizin bu cür obyektiv, ədalətli olmağınız biz sadə vətəndaşların Sizə olan məhəbbətini, inam və etibarını daha da artırır. Buna görə Sizə təşəkkür edir, “Çox sağ olun” deyirik. Xalqımızın xoşbəxtliyi, Vətənimizin bütövlüyü və inkişafı naminə böyük Yaradan Sizə hər zaman yar olsun!”.

Saatlı rayonunun Əliabad kəndinin sakinləri İsmayıl Əliyev, Bahadur Mirzəyev, Əliabbas Namazov, N.Əliyev və X.Niyazov yazırlar: “Möhtərəm cənab Prezident, Siz çıxışlarınızda bildirirsiniz ki, məmurlar xalqın xidmətçisidir və xalqa xidmət etməlidirlər. Biz bu gün bu sözlərin, məmurlar qarşısında qoyduğunuz tapşırıqların real nəticələrini görürük. Saatlı rayonunda da Sizin dəyərli sözlərinizin təsiri hiss olunmaqdadır. Belə ki, rayonumuzda su qıtlığının aradan qaldırılması, təsərrüfatların suvarma suyu ilə təminatı üçün lazımi işlər görülür. Bunun üçün böyük işçi qüvvəsi, texnika cəlb edilmişdir. Cənab Prezident, kənd təsərrüfatının inkişafına, fermerləri narahat edən məsələlərin həllinə bu cür səy göstərdiyinizə görə Sizə minnətdarıq. Əhaliyə olan xoş münasibət Sizin çıxışlarınızdan, tapşırıqlarınızdan qaynaqlanır. Allah işlərinizi avand eləsin!”.

Bakı şəhərindən Kamal Mənsimov: “Möhtərəm cənab Prezident, insanların bu öldürücü virusla üz-üzə qaldığı bir vaxtda Siz öz vətəndaşlarınızın yanında olduğunuzu bir daha göstərdiniz. Sizin təşəbbüsünüzlə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı və Siz birillik əməkhaqqınızı həmin fonda köçürdünüz. Həmçinin Siz xəstəliyin geniş yayılmaması üçün xalqa müraciət edərək bu çətin günlərdə hamını bir olmağa, karantin qaydalarına əməl etməyə çağırdınız. Sizin hər kəsə göstərdiyiniz diqqət və qayğı biz vətəndaşları ürəkləndirir və Sizin hər bir vətəndaşın Prezidenti olduğunuzu bir daha sübut edir. Sizin bu cür obyektiv, ədalətli olmağınız biz sadə vətəndaşların Sizə olan məhəbbətini, inam və etibarını daha da artırır. Buna görə Sizə təşəkkür edir, “Çox sağ olun” deyirik. Xalqımızın xoşbəxtliyi, Vətənimizin bütövlüyü və inkişafı naminə böyük Yaradan Sizə hər zaman yar olsun!”.

Salyan rayonunun Ərəbqardaşbəyli kəndinin sakinləri Samit Quliyev, Həbib Seyidov, Yusif Əliyev, Məryəm Abdullayev və Alim Cəfərov: “Möhtərəm cənab Prezident, koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin tətbiq edilməsi, “Biz birlikdə güclüyük!” çağırışınız, aztəminatlı ailələrə və şəhid ailələrinə göstərdiyiniz maddi və mənəvi yardımlar, sosial yardıma ehtiyacı olan insanlara verilən birdəfəlik ödənişin 600 min nəfərə şamil edilməsi, ən nəhayət, insan amilinə verdiyiniz yüksək dəyər Azərbaycan xalqını bir daha əmin etdi ki, onun Sizin kimi müdrik Prezidenti və qətiyyətli Ali Baş Komandanı var. Pandemiya ilə mübarizə sahəsində həkimlərimizin də rolunu qeyd etmək istəyirəm. Akademik Zərifə xanım Əliyeva vaxtilə demişdir: “Həkim insanlara Günəş qədər lazımdır”. Biz bu gün bu sözlərin nə qədər dəyərli olduğunun bir daha şahidiyik. Həkimlərimiz də çox sağ olsunlar ki, böyük ruh yüksəkliyi ilə çalışırlar. Əziz Prezidentimiz, bu çətin vaxtda sosial layihələrin icrasının dayandırılmaması biz vətəndaşları sevindirir. Kəndimizdə 180 yerlik ən müasir tələblərə cavab verən məktəb tikilmişdir. Bu da Sizin Azərbaycan təhsilinə verdiyiniz qiymətin təzahürüdür. Bundan əlavə, kəndimizdə yeni internet və telekommunikasiya xətləri çəkilmiş və əhalinin istifadəsinə verilmişdir. İnternetlə dünyaya çıxış gənc nəslin elminin və dünyagörüşünün inkişafında mühüm rol oynayır. Göstərdiyiniz bütün bu diqqət və qayğıya görə kəndimizin sakinləri adından Sizə təşəkkür edir və siyasətinizi daim dəstəklədiyimizi bildiririk”.

Bakının Suraxanı rayonunun Hövsan qəsəbəsindən Mehriban Əsgərova: “Çox dəyərli və hörmətli Prezidentim, dönüb keçmişə nəzər salanda, Azərbaycanımızın nə qədər inkişaf etdiyini, necə gözəlləşdiyini görəndə insanın ürəyi fəxr hissi ilə dolur. Bu inkişafın xüsusilə Sizin prezidentlik dövrünüzdə baş verməsi danılmaz faktdır. Ölkəmizə rəhbərlik etdiyiniz dövrdən bu günə qədər bütün çətinliklərin öhdəsindən əzmlə gələrək uğurlar əldə etmiş, Vətənimizin dünyanın inkişaf etmiş ölkələri arasında layiqli yer tutmasına nail olmusunuz. COVID-19 pandemiyasının bütün dünyada kütləvi insan tələfatına səbəb olduğu hazırkı zamanda, Sizin tərəfinizdən və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən Azərbaycanın bu bəladan qorunması üçün zamanında və operativ tədbirlər görməyiniz, aztəminatlı ailələrə humanitar, maddi yardımlar ayırmağınız, sahibkarlara dəstəyiniz göz önündədir. Təbii ki, mən də bir vətəndaş olaraq bunları görürəm və qiymətləndirməyə bilmərəm. Sizə və Mehriban xanıma dərin təşəkkürümü bildirirəm. Sağ olun, cənab Prezident”.

Şəki rayonunun Kiçik Dəhnə kəndindən Nüsrət Haqverdiyev yazır: “Hörmətli cənab Prezident, Sizin aqrar sahəyə ayırdığınız diqqət, göstərdiyiniz qayğı kəndlilərin torpağa, əkin-biçinə marağını daha da artırmışdır. Məlum olduğu kimi, hazırda ölkəmizdə suvarma suyu ilə bağlı çətinliklər vardır. Bu çətinliklərin aradan qaldırılması üçün Sizin mütəmadi olaraq sərəncamlar imzalamağınız, lazımi göstərişlər verməyiniz məsələnin həllində əvəzsiz rol oynayır. Həm yeni suvarma kanalları çəkilir, həm də respublikamızın müxtəlif bölgələrində subartezian quyuları qazılaraq istifadəyə verilir. Bizim Kiçik Dəhnə kəndində son bir ayda 2 yeni subartezian quyusu yerli sakinlərin sərəncamına verilmişdir. Həmçinin bir subartezian quyusu təmir olunmuş və yararlı vəziyyətə gətirilmişdir. Əziz Prezidentimiz, kəndlilərin Sizə minnətdarlığı və alqışı sonsuzdur. İndi növbəti əkin işlərinə həvəsimiz daha da çoxalıb. Çalışacağıq ki, tarlalardan bol məhsul götürək, öz işimizlə göstərilən diqqətin qarşılığını verək. Allah işlərinizi avand eləsin!”.

Ağcabədi rayonunun Yeni Qaradolaq kəndindən Cavid İsmayılov: “Çox hörmətli cənab Prezident, bütün dünyanın COVID-19 pandemiyası ilə mübarizə apardığı bu çətin dövrdə verdiyiniz doğru qərarlar və apardığınız uzaqgörən siyasət bizi bu gözəgörünməz düşmənin daha böyük təsirlərindən qorumaqdadır. Bu gün dünya dəhşətli pandemiya ilə mübarizə aparır. Dünyada hər gün minlərlə insan həlak olur. Lakin biz Sizin uzaqgörən siyasətiniz nəticəsində ölkəmizin pandemiya ilə mübarizədən alnıaçıq çıxacağına ümidliyik. Yüksək təhlükəsizlik tədbirləri, xüsusi karantin rejiminin tətbiqi və vaxtında verdiyiniz digər bu kimi qərarlar təqdirəlayiqdir. Hörmətli cənab Prezident, xalqımızın sağlamlığı və xoşbəxtliyi üçün göstərdiyiniz xidmətlərə görə Sizə dərin təşəkkürümü bildirir, Sizə və ailənizə, əzizlərinizə xoşbəxtlik, cansağlığı, yeni-yeni uğurlar arzulayıram”.

İsmayıllı şəhərindən Vüqar Muradəliyev: “Möhtərəm cənab Prezident, İsmayıllı rayonunun 7 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 10 subartezian quyusunun qazılması məqsədilə imzaladığınız 2020-ci il 1 iyul tarixli Sərəncam İsmayıllı sakinlərini ürəkdən sevindirir. Qazılması nəzərdə tutulan subartezian quyularından 2-si İsmayıllı şəhərinin payına düşür. Bu subartezian quyuları söz yox ki, şəhər əhalisinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasında və içməli suya olan tələbatın ödənilməsində böyük rol oynayacaqdır. Cənab Prezident, İsmayıllıya və onun sakinlərinə göstərdiyiniz diqqət və qayğıya görə şəhər ziyalıları, ağsaqqalları və bütün sakinlərimiz adından Sizə dərin təşəkkürümüzü bildirir, gələcək fəaliyyətinizdə yeni uğurlar arzulayıram. Heç şübhəsiz ki, Sizin rəhbərliyinizlə ölkəmiz inkişafın ən yüksək mərhələsinə çatacaq və Azərbaycan xalqı daha xoşbəxt gələcəyə qovuşacaqdır”.

Zaqatala rayonunun Əliabad qəsəbəsindən Kamran Məmmədov və Səməd Vahabov yazırlar: “Hörmətli cənab Prezident, əvvəla Sizi səmimi-qəlbdən salamlayıram. Hazırda koronavirus pandemiyası dünya ölkələrini təşvişə salaraq, iqtisadi böhran yaratmaqdadır. Təəssüflər olsun ki, bu virus ölkəmizdən də yan keçmədi. Bu gün ölkəmizdə də bir çox insan bu virusun təsirindən əziyyət çəkməkdədir. Lakin danılmaz faktdır ki, məhz Sizin uzaqgörən, qabaqlayıcı tədbirləriniz və səyləriniz sayəsində Azərbaycanda digər ölkələrlə müqayisədə bu virusa yoluxanların sayı azlıq təşkil etməkdədir. Pandemiya ölkəmizdə yayılmağa başlayandan virusa yoluxan xəstələr üçün müasir standartlara cavab verən xüsusi xəstəxanaların istifadəyə verilməsi, xalqımızın maddi rifahı üçün sosial tədbirlərin həyata keçirilməsi Sizin uzaqgörən siyasətinizin nəticəsidir. Cənab Prezident, bütün bu işlərinizlə xalqımızın yanında olduğunuzu bir daha göstərdiniz. Buna görə Sizə dərin təşəkkürümüzü bildirir və Allahdan Sizə cansağlığı arzulayırıq”.

# Dövlət vətəndaşının sağlamlığını hər şeydən üstün tutur

***Bu aksiomadır. Bunu dəfələrlə qeyd etmişik və dövlət başçısı da çıxışlarında dəfələrlə vurğulayıb ki, dünyada öz vətəndaşına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur. Ölkə başçısının bu sözləri Azərbaycan dövlətinin sosial siyasətinin fəlsəfəsi, iqtisadi inkişafın nəticələrinin əhalinin rifah halının yüksəldilməsinə yönəldilən real sübutudur, bu prinsip hər gün daha geniş şəkildə davam etdirilir. Xüsusən, son aylar Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə koronavirus (COVID-19) pandemiyasına qarşı genişmiqyaslı tədbirlər görülür, məşğulluğa və sosial rifaha dəstək məqsədilə fəal siyasət aparılır.***



Bütün dünya, həmçinin xalqımız görür ki, pandemiya başlayandan indiyə qədər məhz ölkə Prezidenti cənab İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində Azərbaycanda vəziyyəti nəzarət altında saxlamaq mümkün olub. Elə karantin müddətinin uzadılması da dövlətin öz vətəndaşlarına daha diqqətli olmasının realllığıdır.

### Azərbaycan "Biz birlikdə güclüyük" şüarı ilə görünməmiş nümunə ortaya qoyur

Bəli, dövlət başçısı hər an öz xalqının yanında olduğunu sübuta yetirməkdədir. Dövlətin siyasəti onu göstərir ki, insanların sağlamlığı, həyatı hər şeydən üstündür. Təbii ki, cəmiyyət Prezidentin bu qayğısını görür, anlayır və başa düşür. Dünya ölkələrinin koronavirus pandemiyasının yaratdığı böyük çətinliklərdən əziyyət çəkdikləri bir vaxtda Azərbaycan xalqının sağlamlığının qorunması, insanların rifahının yaxşılaşdırılması istiqamətində görülən işlər, xüsusilə də genişmiqyaslı sosial dəstək tədbirləri nümunəvi xarakter daşıyır. Dövlət başçımızın tapşırıqları ilə həyata keçirilən bu tədbirlər ölkə vətəndaşları tərəfindən böyük razılıqla qarşılanılır. "Azərbaycan dövləti hər zaman vətəndaşının yanındadır", "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" fikirlərinin təsdiqi və bütün bunların əməli işlərlə tamamlandığının sübutudur.

Cənab İlham Əliyev güc mənbəyi olan öz xalqının hər bir nümayəndəsinin prezidenti olduğunu 17 ildir ki, hər gün, hər saat öz əməli fəaliyyəti, düşünülmüş daxili və xarici siyasəti, konkret əməli addımları ilə sübut edir. Dövlət başçımıza ünvanlanan çoxsaylı təşəkkür məktublarında pandemiyadan ziyan çəkən sahibkarlıq subyektlərinə, mikro sahibkarlara, təxminən 600 min nəfərə dövlət tərəfindən ciddi maliyyə dəstəyinin göstərilməsi, dövlət sektorunda çalışan bir milyona yaxın işçinin mütləq əksəriyyətinin işləmədikləri halda, əmək haqqının ödənilməsi, ilkin olaraq 200 min nəfərin hər birinə aprel və may ayları müddətində 190 manat ödənişin verilməsi, ünvanlı sosial yardımların verilməsi, kommunal və kredit güzəştlərinin həyata keçirilməsi və digər məsələrin həlli insanlarda yüksək razılıq hissi yaratdı.

Dövlət başçısı bütün görüşlərdə də aparılan siyasətin mərkəzində vətəndaş amilinin dayandığını bildirir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iyunun 24-də 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun açılşında çıxışı zamanı dövlət başçısı bildirib: "Hər kəs yaxşı başa düşür ki, koronavirus yoxa çıxmayıb və yoxa çıxmayacaq. Biz bu xəstəliklə yaşamağa məcburuq və artıq kütləvi surətdə yeni davranış qaydaları tətbiq edilməlidir. Ona görə bütün ölkələrin əsas səyləri odur ki, yoluxmanın sürəti azalsın, az insan xəstələnsin və ölkələrin səhiyyə sistemi imkan versin ki, bütün xəstələr lazımi müalicə alsınlar. Odur ki, biz bu addımı atdıq və hesab edirəm ki, düz etmişik, baxmayaraq ki, indi bəzi ölkələr daha da irəliyə gedərək, daha çox yumşaldıcı addımlar atır. Təbii ki, bunun əsas səbəbi iqtisadi sahədə olan problemlərdir. Bizdə də bu problemlər var, beş ayın nəticələri onu göstərir ki, bizim iqtisadiyyatımız da tənəzzülə uğrayıb. O qədər də böyük tənəzzül deyil - cəmi 1,7 faiz. Ancaq biz ilin əvvəlində çox yaxşı iqtisadi göstəricilər nümayiş etdirmişdik".

Onu da vurğulayaq ki, COVID-19 pandemiyası zamanı hər bir dövlətin öz strategiyası, koronavirusa qarşı mübarizədə fərqli yanaşma tərzi və öz metodları mövcud oldu. Şübhəsiz ki, indi hər bir ölkə öz vətəndaşlarını böhrandan az itki ilə çıxartmağa çalışır. Azərbaycanda da koronavirus pandemiyasından bir qədər əvvəl həyatın bütün sahələrinə təsir göstərən böyük islahatlar elan edildi və qısa müddətdə həyata keçirildi. Bu baxımdan, Azərbaycan dövləti başçısının uğurlarını Ümumdünya Səhiyyə Təşkilatı da yüksək qiymətləndirir. ÜST baş direktoru Tedros Adhan Gebreyesus da Prezident Əliyevin rəhbərliyi ilə görülən işləri yüksək qiymətləndirdiyini bəyan edib və pandemiyaya qarşı görülən tədbirlərlə əlaqədar Azərbaycanın nümunəvi ölkə kimi qəbul edildiyini vurğulayıb.

### Azərbaycanın unikal təcrübəsi dünya tərəfindən qəbul edilir, bəyənilir

Bu faktın təsdiqi 130 ölkədən çox dövlətlərin Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsünü dəstəkləməsidir. Çünki Azərbaycan artıq beynəlxalq aləmdə inkişaf, tərəqqi, yüksəliş simvoluna çevrilir. Və bütün dünyanın etiraf etdiyi bu reallıq Prezident İlham Əliyevin fəaliyyətinə verilən haqlı və real qiymətdir. Belə ki, Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi təşəbbüsü ilə 2020-ci il mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupunun COVID-19 pandemiyasına həsr edilmiş onlayn Zirvə Görüşü zamanın həmrəylik çağırışı olmaqla yanaşı, həm də ilk növbədə dövlət başçısının dünyada böyük nüfuza malik lider olmasının göstəricisidir. Və Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşündə təşkilata sədrliyi öz üzərinə götürən zaman Prezident İlham Əliyev bəyan etdi ki, Azərbaycan beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacaq, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacaq. Bu gün qrurverici haldır ki, dövlətimizin başçısının bu təklifi yekdilliklə qəbul edildi və artıq 130-a qədər ölkə təşəbbüsə dəstək verdiyi barədə Baş katibin ofisini məlumatlandırıb. Bu ölkəmizin dünya birliyində artan nüfuzunun göstəricisi olmaqla yanaşı, həmçinin çox mühüm hadisədir. Bu fakt bir daha təsdiqləyir ki, artıq dünyanın inkişaf etmiş dövlətlərinin Azərbaycana inam və etimadı artmaqdadır. Bu, həmçinin dövlətləri və millətləri birləşdirən siyasət oldu. Bu siyasət Azərbaycan tərəfindən təqdim olundu. Azərbaycanın gördüyü işlər təkcə bu gün yox, gələcəkdə də öyrəniləcək.

Çünki Azərbaycan hər zaman qlobal problemlərin həllində körpü rolunu oyanyıb. Azərbaycan Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın məqsədyönlü fəaliyyətinin nəticəsi olaraq Bakı beynəlxalq humanitar və digər qlobal problemlərin həlli məsələsində bir dialoq mərkəzinə çevrilib. O baxımdan Azərbaycan qlobal pandemiya şəraitində dövlətlər və xalqlar arasında əlaqələr qurub, körpü yaratması indiyədək yürüdülən siyasətin məntiqi nəticəsi kimi dəyərləndirmək lazımdır. Prezident İlham Əliyev bir daha beynəlxalq aləmə sübut etdi ki, Azərbaycan dövləti ərazicə kiçik, əhalisinin sayına görə az olsa da, sözün əsl mənasında güclü dövlət və böyük xalqdır.

Bir sözlə, hamılıqla həmrəylik nümayiş etdirərək, dövlət başçımız İlham Əliyevin yürütdüyü siyasətə dəstək olmaqla bir daha "Biz birlikdə güclüyük!" şüarının sadəcə sözdə deyil əməlimizlə bu virusa qarşı irəli sürülən qaydalara məsuliyyətlə əməl edək!

***İSA HƏBİBBƏYLİ,***
***AMEA-nın vitse-prezidenti,***
***millət vəkili***

## Habil Qurbanov: "Dövlət başcısı beynəlxalq səviyyədə qətiyyətli təşəbbüslər irəli sürür"



"Bütün dünyada tüğyan edən koronavirus pandemiyasının ölkəmizdə yayılmağa başladığı ilk günlərdən Azərbaycan dövləti bu təhlükənin qarşısını almaq üçün təxirəsalınmaz tədbirlər həyata keçirib. Prezident İlham Əliyevin göstərişi ilə həyata kecirilən tədbirlərin nəticəsi olaraq dünyanın əksər ölkələri ilə müqayisədə pandemiyaya qarşı mübarizədə Azərbaycanda daha ciddi uğurlar əldə olunub. Dövlət başcisinin düşünülmüş siyasəti, peşəkar və çevik göstərişlərinin məntiqi olaraq ölkəmiz virusla bağlı statistikasını ən son yerlərdə qərarlaşdırmışdır". Bunu "Səs" qəzetinə aciqlamasında Yeni Azərbaycan Partiyasının Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov bildirib.

Onun sözlərinə görə, dünyanı cənginə alan COVID-19 pandemiyası Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə görülən ardıcıl və səmərəli tədbirlər nəticəsində ölkə vətəndaşlarının bu təhlükəli virusa yoluxma riskini minimuma endirmək mümkün oldu: "Dövlət başcisinin "Biz birlikdə güclüyük!" çağırışı xalqımızın həmrəylik şüarına çevrildi. Cənab Prezident çixişlarinin birində vurgulayib ki, bizim tədbirlərimiz məqsədyönlüdür, səmərəlidir, vaxtında atılmış cəsarətli addımlardır. "Biz insanların həyatını qorumaq üçün şüurlu şəkildə iqtisadi tənəzzülə və iqtisadi itkilərə getdik" deyə dövlət başcisi cıxışlarının birində bildirmişdi. Ölkəmizdə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı, oraya ilkin olaraq, büdcədən 20 milyon manat vəsait ayrıldı. "Yeni Klinika" istifadəyə verildi, modul tipli xəstəxanıaların tikilməsi ilə bağlı vəsait ayrıldı və Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, ölkə ərazisində ümumilikdə 10 modul tipli xəstəxana kompleksinin quraşdırılmasına başlanıldı ki, onlardan da bir neçəsinin artıq açılışı olub. Əlbəttə ki, insanlarin həyat səviyyəsinin yüksəldilməsi və maddi rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirdiy işlər, verdiyi qərarlar, pandemiya dövründə işsiz şəxslərə ayırdığı 190 manat birdəfəlik müavinət, maddi yardımlar, sosial sahədə dövlət tərəfindən göstərilən dəstək dövlət başcisinin hər bir vətəndaşin prezidenti oldugunu bir daha göstərdi. Bütün dünyanı böhran bürüdüyü bir vaxtda Azərbaycanın demək olar ki, hər bölgəsində quruculuq-abadlıq işləri aparılir".

Rayon təşkilat sədri onu da bildirdi ki, ölkə rəhbərliyi dünyanı əhatə edən koronavirusla mübarizədə həm yerli, həm də beynəlxalq səviyyədə qətiyyətli təşəbbüslər irəli sürərək gerçəkləşdirir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının tarixdə ilk dəfə onlayn formada Zirvə görüşünün keçirilməsi, Qoşulmama Hərəkatının Zirvə görüşündə Prezident İlham Əliyev tərəfindən BMT-nin Baş Assambleyasının xüsusi sessiyasının təşkil edilməsi təşəbbüsünün irəli sürülməsi və bu təşəbbüsün 130 ölkə tərəfindən dəstəklənməsi birmənalı olaraq Azərbaycanın və dövlətimizin başçısının beynəlxalq miqyasda nüfuzunu göstərir. BMT-nin üzvü olan dövlətlərin Qoşulmama Hərəkatının sədri statusunda Prezident İlham Əliyevin Baş Assambleyanın xüsusi sessiyasının keçirilməsi təşəbbüsünü dəstəkləməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan inamin daha bir ifadəsidir. Bu təşəbbüsün dəstəklənməsi dünya miqyaslı hadisə kimi qiymətləndirilməlidir.

## Təmraz Tağıyev: "BMT-nin xüsusi sessiyası ən səmərəli yolun tapılmasına xidmət edəcək"



"Azərbaycan Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının koronavirus pandemiyasına qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyasının keçirilməsi təşəbbüsünün təşkilatın üzvü olan 130 ölkənin dəstəklənməsi mühüm hadisədir. Bu təşəbbüs çox böyük əhəmiyyətə malikdir". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev deyib.

T.Tağıyev bildirib ki, hazırda bütün dünyanın COVİD-19 pandemiyası ilə, sözün əsl mənasında, vuruşduğu bir zamanda bu qlobal təhlükə ilə mübarizədə dünya dövlətlərinin həmrəyliyinin möhkəmlənməsi məqsəd kimi ön plana çıxır. Bu məqsədə nail olunmasında ölkəmiz xüsusi fəallıq göstərir, cənab Prezidentin təşəbbüsü ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və Qoşulmama Hərəkatı çərçivəsində koronovirus pandemiyası ilə mübarizə mövzusunda yüksək səviyyəli onlayn Zirvə görüşləri keçirilib və bu qlobal bəla ilə mübarizədə, həm də onun təsirlərinin azaldılmasında dövlətlərarası əməkdaşlığın, koordonasiyanın və həmrəyliyin rolu və əhəmiyyəti müzakirə olunub. Təşkilat sədrinin fikrincə, bu mövzunun BMT-nin Baş Assambleyasının xüsusi sessiyasında müzakirəyə çıxarılması isə dünyada cərəyan edən bu böhranın nəticələrinin aradan qaldırılmasına, beynəlxalq əməkdaşlığın gücləndirilməsinə, dövlətlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsinə, dünya əhalisinin sağlamlığının qorunmasına xidmət edəcək.

"Cənab Prezident İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması təşəbbüsü zərurətdən irəli gəlir. Etiraf etmək lazımdır ki, hazırda dünyada koronavirus pandemiyası ilə mübarizə sahəsində müşahidə etdiyimiz vəziyyət o qədər də ürəkaçan deyil. Bəzən pandemiya ilə mübarizə prosesində çaşqınlıq, gərginlik müşahidə edilir, bəzi dövlətlər yalnız öz təcrübəsinə və resurslarına söykənərək bu qlobal bəlaya qalib gəlməyə çalışırlar. Lakin pandemiya qlobal xaraker daşıdığından, təbii ki, dünya dövlətlərindən həmrəyliyin nümayiş etdirilməsi və birgə səylərin göstərilməsi tələb olunur. Eyni zamanda, pandemiyaya qarşı mübarizə prosesində səhiyyə sistemlərində olan boşluqların, dövlətlərin cəmiyyətlərinə sosial və iqtisadi təsirlərin aradan qaldırılması üçün onların genişmiqyaslı dəstəyə ehtiyacı var. Və bu dəstəyə məhz çoxtərəfli əməkdaşlıq və həmrəylik sayəsində nail olmaq mümkündür. Bu baxımdan, böyük ümidlər və əminlik var ki, BMT Baş Assambleyasının xüsusi sessiyası pandemiya ilə mübarizədə dünya birliyində həmrəyliyin tam bərqərar olunmasına, beynəlxalq çoxtərəfli əməkdaşlığın gücləndirilməsinə və bu qlobal təhlükənin aradan qalxması üçün ən səmərəli və düzgün yolun tapılmasına xidmət edəcək"-deyə, T.Tağıyev vurğulayıb.

# Azərbaycana olan böyük etimadın göstəricisi

*Dünyanın 130-dan çox dövləti Prezident İlham Əliyevin təşəbbüsünü dəstəklədi*



Bu gün bütün sahələrdə olduğu kimi, koronavirusla mübarizə tədbirlərində də ölkəmiz dünyada özünəməxsus imic formalaşdırıb - Azərbaycan modeli. Bu reallıqdır. Çünki Azərbaycanın unikal təcrübəsi dünya tərəfindən qəbul edilir, bəyənilir. Həmçinin, reallaşdırılan sosial-iqtisadi dəstək proqramları, genişmiqyaslı antiböhran tədbirlər də beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir. Çünki Azərbaycan artıq beynəlxalq aləmdə inkişaf, tərəqqi, yüksəliş simvoluna çevrilir. Və bütün dünyanın etiraf etdiyi bu reallıq Prezident İlham Əliyevin fəaliyyətinə verilən haqlı və real qiymətdir. Belə ki, Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi təşəbbüsü ilə 2020-ci il mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupunun COVID-19 pandemiyasına həsr edilmiş onlayn Zirvə Görüşü zamanın həmrəylik çağırışı olmaqla yanaşı, həm də ilk növbədə dövlət başçısının dünyada böyük nüfuza malik lider olmasının göstəricisidir.

Bir məqamı da vurğulamaq istərdim ki, Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşündə təşkilata sədrliyi öz üzərinə götürən zaman Prezident İlham Əliyev bəyan etdi ki, Azərbaycan beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacaq, həmrəyliyin gücləndirilməsi və qarşılıqlı dəstəyi rəhbər tutacaq. Göründüyü kimi, COVID-19 pandemiyasına həsr edilmiş onlayn Zirvə görüşü də bir daha göstərdi ki, Azərbaycan Prezidentinin sözü ilə əməli birdir. Zirvə görüşündə ölkə başçısı Azərbaycanın koronavirusla mübarizə modelini dünyaya təqdim edərkən faciənin qarşısının alınması üçün həmçinin, dünyaya yol göstərdi. Və konfransda ölkə başçısı bəyan etdi ki, dövlətlər bir-birindən təcrid olunmalı deyillər. Və Azərbaycan dünya üçün qlobal düşüncəni təqdim etdi. Bu, həmçinin dövlətləri və millətləri birləşdirən siyasət oldu. Bu gün 130 dünya ölkələrinin Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyasının keçirilməsinin 130-dək dövlət tərəfindən dəstəklənməsi deyilənlərin reallığıdır.

Azərbaycan və Onun liderinə dünyada olan inam, etibar və etimad yüksəkdir

Bu aksiomadır. Çünki hələ Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə görüşündə təşkilata sədrliyi öz üzərinə götürən zaman Prezident İlham Əliyev bəyan etdi ki, Azərbaycan beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacaq, həmrəyliyin gücləndirilməsi və qarşılıqlı dəstəyi rəhbər tutacaq. Bəli, keçirilən Zirvə görüşü də bir daha göstərdi ki, Azərbaycan Prezidentinin sözü ilə əməli birdir, Azərbaycan və Onun liderinə dünyada olan inam, etibar və etimad yüksəkdir.

Çünki dünyada COVID-19 pandemiyasının başlanmasından etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası tərəfindən regional və qlobal səviyyədə koronavirusa qarşı mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə zəruri təşəbbüslər irəli sürülür və əməli addımlar atılır. Dövlət başçısının qlobal həmrəyliyin nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə çıxışı da bundan xəbər verir. Bu da diplomatiyamızın növbəti uğuru idi. Bu təşəbbüsü dəstəkləyən ölkələr dünyanın bütün regionlarını əhatə edir. BMT-nin 130-a qədər üzv dövləti tərəfindən Qoşulmama Hərəkatının sədri statusunda Prezident İlham Əliyevin Baş Assambleyanın xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünün dəstəklənməsi ölkəmizin dünya birliyində artan nüfuzunun real təsdiqidir. Bu, həm də beynəlxalq ictimaiyyətin ölkəmizə böyük etimadının reallığıdır.

Ümumiyyətlə, bütün yuxarıda göstərilənlər onu deməyə əsas verir ki, artıq ölkəmiz, xüsusilə Azərbaycan Prezidenti İlham Əliyev təkcə bütün regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Məhz bunun nəticəsidir ki, Qoşulmama Hərəkatının sədri statusunda Prezident İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünün BMT-nin üzvü olan 130-a qədər dövlət tərəfindən dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə, eləcə də dövlətimizin başçısına olan böyük etimadın və hörmətin növbəti göstəricisidir.

Bu təşəbbüsə qarşı çıxış edən yeganə dövlət Ermənistan olub. Bütün dünya COVID-19-a qarşı mübarizədə qlobal həmrəyliyin vacibliyini vurğuladığı halda, Ermənistan qlobal xarakter daşıyan bu təşəbbüsə qarşı çıxış etməklə BMT sistemində və dünya dövlətləri arasında özünün bir daha təcavüzkar mahiyyətini göstərdi. Bir mənamı da vurğulamaq istərdim ki, Azərbaycan Prezidenti Şərq Tərəfdaşlığı ölkələrinin iyunun 18-də videokonfrans formatında keçirilən sammitində Ermənistanın baş nazirini terroru dəstəkləyən dövlət kimi növbəti dəfə faktlarla ifşa etmişdi. Ermənistanın baş naziri çıxışında koronavirusla mübarizə üçün ehtiyacların ödənilməsi məqsədilə Avropa İttifaqından 92 milyon avro həcmində yardım aldıqlarını qeyd edib.

Azərbaycan Prezidenti isə çıxışında vurğulayıb ki, ölkəmiz pandemiya ilə mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar könüllü maliyyə yardımı ayırmaqla, eyni zamanda, 29 dövlətə humanitar yardım göstərib və bu işi davam etdirir. Bu, Azərbaycanla Ermənistan arasında bütün sahələrdə olduğu kimi, iqtisadi sahədə də müqayisə edilməyən nisbətin mövcudluğunu nümayiş etdirən əsaslı faktdır. Həmçinin onu da vurğulamaq lazımdır ki, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı koronavirusla mübarizədə nümunə ölkə adlandırır, Azərbaycanın digər ölkələrə yardımını təqdir edir, Ermənistan isə virusla mübarizə üçün, sadəcə, məqsədli şəkildə pul dilənir. Və ən əsas fakt isə, Qoşulmama Hərəkatının Zirvə görüşündə Ermənistanın işğalçı dövlət kimi ifşa edilməsinə nail olundu. BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatının XVIII Zirvə görüşünün Prezident İlham Əliyevin sədrliyi ilə Bakıda keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi isə Azərbaycanın böyük diplomatik uğurudur.

Qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin irəli sürdüyü və Qoşulmama Hərəkatına üzv ölkələrin müdafiə etdiyi vacib və gözləmə vaxtı mümkünsüz olan koronavirus epidemiyası ilə bağlı təşəbbüs əksər dünya dövlətləri tərəfindən qəbul edildiyi üçün Baş Assambleyanın xüsusi sessiyasının keçirilməsi və dövlət başçımızın təşəbbüsünün dəstəklənməsi beynəlxalq birliyin Azərbaycana inamının, etimadının təzahürü, ölkəmizin və dövlətimizin başçısının qlobal miqyasda nüfuzunun göstəricisidir.

Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi sessiyanın keçirilməsi beynəlxalq səviyyədə ictimai birliyin formalaşmasına, bütün üzv ölkələrin problemin həlli istiqamətlərində səyləri birləşdirməklə, COVID-19-a qarşı mübarizədə birlik, həmrəylik nümayiş etdirməsinə mühüm töhfə olacaq.

***MEHDİ BALABƏYOV,***
***YAP Şabran rayon təşkilatının sədri***

## "Cəmiyyət olaraq sosial məsuliyyətimizi artırmalıyıq"

"İyulun 6-da Azərbaycan Prezidenti cənab İlham Əliyev və Birinci vitse-Prezident Mehriban xanım Əliyeva, Fövqəladə hallar nazirliyinin Tibb mərkəzinin modul tipli xəstəxanasının açılışını etdilər. Son zamanlar dünyada, o cümlədən ölkəmizdə koronovirusa yoluxanların sayında ciddi artımların olduğunu və dövlət xəstəxanalarında yüklənməni nəzərə alsaq, 800 yerlik yeni xəstəxananın əhəmiyyəti böyükdür". Bunu SİA-ya millət vəkili Nəsib Məhəməliyev deyib.



Deputatın sözlərinə görə, Bakı şəhərində və regionlarda müəyyənləşdirdiyi pandemiya xəstəxanaları ilə yanaşı, yeni tikilən modul tipli hospitallar, ölkə başçısının uzaqgörənliklə apardığı siyasətin nəticəsidir: "Çünki, pandemiyanın nə vaxta qədər uzanacağı, Covid-19-a qarşı vaksinin nə vaxt tapılacağı və yaxud insanlığın daha hansı sürprizlərlə qarşılaşacağı barədə heç kim dəqiq məlumatlara malik deyil. Buna görə də, artıq dünya ictimaiyyəti tərəfindən müharibə kimi qəbul olunan Covid-19 pandemiyası ilə mübarizədə ilk növbədə müvafiq infrastrukturun yaradılması vacibdir. Eyni zamanda lazımi tibb avadanlıqlarının, kombinezonların, süni nəfəs aparatlarının, qoruyucu maskaların, dizenfeksiyaedici məhsulların, dərman ləvazimatlarının təchizatı olduqca zəruri işlərdir.

Sadaladığım vacib şərtlərin və digər məhdudlaşdırıcı tədbirlərin, cənab Prezident tərəfindən zamanında həyata keçirilməsi pandemiyanı nəzarətdə saxlanmasını təmin etdi. Son günlərdə yoluxanların sayının azalmaya doğru yönəlməsi isə, bunun təsdiqidir. Ancaq arxayınlaşmaq üçün əsas yoxdur. Cəmiyyət olaraq daha da sosial məsuliyyətimizi artırmalıyıq. Təhlükə hələ də sovuşmayıb. Tam qələbə o halda mümkündür ki, dövlətlə cəmiyyət birgə mübarizə aparsın".

## Polis neft mədəninin ərazisinin zəbt olunması məsələsini nəzarətə götürdü



Paytaxtın Səbail rayonu, Bibiheybət qəsəbəsində neft mədəninin ərazisinin zəbt olunması ilə bağlı mətbuatda yayılan iddialar nəzarətə götürülüb. Bakı şəhər Baş Polis İdarəsinin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, həmin ünvanda ərazinin zəbt olunması ilə bağlı iddiallar əsassızdır, təsdiqini tapmayıb. Bildirilib ki, həmin ünvanda ərazinin zəbt olunması ilə bağlı iddiallar əsassızdır, təsdiqini tapmayıb, buna baxmayaraq, fakt üzrə Səbail Rayon Polis İdarəsinin İstintaq şöbəsində araşdırmalar aparılır. Araşdırmanın nəticəsindən asılı olaraq, fakta hüquqi qiymət veriləcəkdir. Qeyd edək ki, Bibiheybət qəsəbəsində neft mədəninin ərazisinin zəbt olunması ilə bağlı mətbuatda məlumatlar yayılıb.

## Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Gürcüstandan keçən hissəsində qoruyucu konstruksiya tikiləcək

Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin Gürcüstandan keçən Tsalka-Axalkalaki hissəsində qardan mühafizə üçün qoruyucu konstruksiya inşa olunacaq. AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstanın Nəqliyyat Dəhlizi Araşdırma Mərkəzi məlumat yayıb.



Bildirilir ki, qoruyucu konstruksiyanın tikintisi həmin zonadakı mürəkkəb iqlim şəraiti ilə əlaqədardır. Ümumi uzunluğu 2433 metr olacaq 4 qurğunun quraşdırılmasında əsas məqsəd qatarların fasiləsiz hərəkətinin təmin etməkdir. Müasir metal qurğular Gürcüstanda ilk dəfə tikiləcək. Konstruksiya Polşada istehsal olunur və istismar müddəti 100 ildir.

# Anti-milli ünsürlərlə haqq-hesab çox ağır olacaq

***Bu günlərdə Baş Nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədovun “Milli Şura” ilə bağlı dediyi fikirlər məni yaman tutdu. Çünki bu mənəviyyatsızların toplaşbığı bu ölü qurum Ə.Əhmədovun dediyi kimi, bu adı qoymaqla əzər salmaq kifayətdir ki, onun sözün əsl mənasında antimilli şura olduğuna əminlik yaransın: “Özünə şərəfli bir ifadədən istifadə edərək ad qoymuş “Milli Şura”nın nə millət, nə də xalq anlayışları ilə hər hansı əlaqəsinin olmadığını Azərbaycanda uşaq da bilir.***

Şübhəli və qaranlıq niyyətlərini gizlətmək üçün “xalq”, “millət” anlayışlarının bəzi partiyalar və hərəkatlar tərəfindən konspirativ element kimi istifadə edilməsi tarixdən yaxşı məlumdur. 2013-cü il prezident seçkiləri ərəfəsində müxtəlif adlarla meydana gələn və nəhayət, “milli şura” adını qəbul edən qruplaşmanın Azərbaycanın milli maraqlarından qaynaqlandığını düşünmək siyasi sadəlövhlükdən başqa bir şey deyil. Sadəcə olaraq, həmin qruplaşmanın Azərbaycanın siyasi sisteminə uyğunlaşdırılması məqsədilə onun xalqda rəğbət yarada biləcək ad altında təqdimatı kimi konspirativ metoddan istifadə edildi. Nəticə etibarilə “milli şura” adlanan, əslində millət və xalq anlayışları heç bir əlaqəsi olmayan pozucu, mahiyyətcə isə antimilli qruplaşma yaranmış oldu. Buna görə də onun “milli şura” deyil, “antimilli şura” adlandırılması daha doğru və ədalətli olar”.

Bu reallığı anlaya bilsəydilər. Çünki onların mayası Azərbaycanın reallıqlarını təhrif etmək, onun imicinə ləkə yaxmaq, anti-Azərbaycan təbliğatı aparmaq olub: “Antimilli şurada toplananlar həmin bədniyyət və bəduğurların qalıqlarıdır. Nə yaxşı ki, tariximiz yalnız onlardan ibarət deyil. Müasir tariximiz əsasən və daha çox gəlişi ilə ölkəyə sabitlik, əmin-amanlıq, ruzi-bərəkət gətirənlərin tarixidir. Bir daha onun şahidi olduq ki, heç bir xalq onun tarixini anti-milli ruhlu adamların yazmasına nə razı olar, nə də imkan verər”. Bəli, nə yaxşı ki, heç bir xalq onun tarixini anti-milli ruhlu adamların yazmasına nə razı olar, nə də imkan verər.

## Cəmil Həsənli kimilər “insan” ola bilməz

Bəli, 27 ildir ki, “müxalifət” adı ilə yol gedənlər bu gün sosial söyüş müxalifəti olmaqları ilə dövlətə, xalqa, Azərbaycanın uğurlu inkişafına qara yaxanlar elə zənn edirlər ki, bu əxlaqsızlıqları ilə xalqın dəstəyini bəlkə “qazandılar”. Ancaq onların bu “arzusu” “qaşınmayan yerdən qan çıxarmağa” bənzəyir. Necə deyərlər, “qaş düzəltdikləri yerdə vurub göz...” kimi. Ay bədbəxt məxluq, məgər bilmirsiniz ki, 2003-cü ildən zibilliklərin “arxivə” atılmsınız. Və hər şeyin bir-birinə qarışdırılması, bütün müsbət məqamların “hakimiyyətin məğlubiyyəti” kimi qələmə verilməsi dacıdıcı müxalifətin köhnə xəstəliyidir, amma bu dəfə lap ağ oldu. Fakta əsaslanaq. Belə ki, bu günlərdə dövlət başçısının istər AXCP-Müsavat-la, istərsə “Milli Şura” ilə, istərsə də Ermənistanla bağlı dediyi faktlardan qaşınmaya düşən satqınlar yuvasının - “Milli Şura”nın sədri Cəmil Həsənli sosial şəbəkələrdə ardıcıl olaraq çıxışlar edərək böhtanlar deməkdən usanmır. Və xalqı “Zamandır, “xalqım”, evdə oturmaq uçuruma getməkdir. Ayağa qalxın, mitinqə çıxın, çıxış yolu mi-




tinqlərdir”, deməsi, həqtqətən də, özünün dediyi kimi, tryapka olduqlarını sübut edir. Bu sözlərdən sonra bir daha əmin oldum ki, C.Həsənli kimilər “insan” ola bilməz. Çünki insanda abır-həya yaxşı şeydir. İnsan özünün ləyaqətinə hörmət etməlidir. Ancaq C.Həsənli satqın, xəyanətkardır.

Fransız psixoloq Julyer iddia edir ki, insanlarda satqınçılıq və xəyanət simptomları bir dəfə formalaşırsa, bu sistemli şəkildə davamlı olur və ətraf mühitə ikrah yaranır. Bu məntiqlə yanaşsaq aydın olur ki, bu gün müxalifət, o cümlədən C.Həsənli kimilə illərdi ki, eyni mühitdə qalıb, zaman-zaman bir-birilərinə xəyanət ediblər və demək olar ki, artıq bir periodiklik yaranıb və bu koronavirusdan da güclü virusa çevriliblər. Nəticədə ayaqqabıları belə silməyə lazım olmayan tryapka. Bax, budur həqiqət.

Dövlətin, millətin maraqlarını heçə sayan Ə.Kərimli-C.Həsənli kimi anti-milli ünsürlər çıxışları zamanı bildirir ki, “Azərbaycanda demokratiya, söz, mətbuat azadlığı yoxdur, ölkədə infrastruktur bərbad vəziyyətdədir. Neftin qiyməi ahağı düşüb, pis günlər bundan sonra olacaq” və sonra da işğalçı Ermənistanı müjdafiə etmək, bu artıq Azərbaycan xalqına qarşı bir başa düşmənçilik, xəyanətkarlıq etmək deməkdir.

Və ən önəmlisi isə, dövlət başçımızın koronavirusla bağlı ardıcıl, önəmli addımlar atması və nəticədə xalqımızın öz dövlət başçısı ətrafında həmrəylik göstərməsinə qısqanclıqla yanaşaraq sadəcə erməni dəyirmanına su tökməklə məşğul olmaqdır.

Doğurdan da, insanda abır-həya yaxşı şeydir. İnsan özünün ləyaqətinə hörmət etməlidir. Ancaq C.Həsənli kimilər “insan” ola bilməz. Fransız psixoloq Julyer iddia edir ki, insanlarda satqınçılıq və xəyanət simptomları bir dəfə formalaşırsa, bu sistemli şəkildə davamlı olur və ətraf mühitə ikrah yaranır. Bu məntiqlə yanaşsaq aydın olur ki, bu gün müxalifət, o cümlədən C.Həsənli kimilə illərdi ki, eyni mühitdə qalıb, zaman-zaman bir-birilərinə xəyanət ediblər və demək olar ki, artıq bir periodiklik yaranıb və bu koronavirusdan da güclü virusa çevriliblər. Nəticə nə oldu?. Sonda ayaqqabıları belə silməyə lazım olmayan tryapka. Bax, budur həqiqət.

## Dublyor aktyor seçilən Cəmil Həsənli bu rola alışdığından, özünü az qala “siyasi xadim” hesab edir

Cəmil Həsənli heç vaxt siyasətçi kimi qəbul edilməyib. Yalnız 2005-ci ildə partiyanın qərarına tabe olmayıb, parlamentdə oturduğuna görə, partiyadan qovulan orta statistik tarixçi-alim kimi yadda qalıb. 2013-cü ildə “Milli Şura”nın sədrliyinə onun namizədliyi verilərkən, Azərbaycanın siyasi arenasında Cəmil Həsənlinin adını tanıyan yox idi. Müsavat, AXCP və “Milli Şura” onu siyasətə gətirdiyi zaman bu ad ortaya çıxdı və C.Həsənli də öz üzərinə öhdəlik götürdü ki, seçiləcəyi təqdirdə, 2 il müddətinə parlament seçkiləri keçirəcək və daha sonra prezidentlikdən istefa verəcək. Hətta siyasətdən birdəfəlik gedəcəyinə də söz verən Həsənlinin bu sözünü də öhdəlik hesab etmək olar. “Milli Şura”nın sədri postuna siyasətçi kimi deyil, Rüstəm İbrahimbəyovun dublyor aktyoru kimi seçilən C.Həsənli bu rola elə alışdı ki, artıq özünü az qala böyük siyasi xadim hesab etməyə başladı. “Şura” sədrinin eyforiyasını hardasa başa düşmək olar və Əli Kərimlinin atmosferinə, tabeçiliyinə düşdüyü üçün, hərdən elə bilir ki, kiməsə müxalifət lisenziyası belə verə bilər, yaxud kimi gəldi xəyanətkarlıqda ittiham edə bilər. Amma reallıq bundan ibarətdir ki, onun fikri, hətta müxalifətdə təmsil olunanlar arasında belə heç kim üçün önəmli deyil və nə düşündüyünə, hadisələri necə qiymətləndirdiyinə məhəl qoyan yoxdur.

C.Həsənli əgər nə vaxtsa iki ingilis və bir amerikalı ilə görüşübsə, bu, o demək deyil ki, bütün dünyanın nəzəri onun üzərindədir. Kimlərinsə, yəni əcnəbilərin buyruq qulu ola bilər, tapşırıqlarını mütiliklə yerinə yetirə bilər, amma bu, onun nüfuzuna, söz sahibi və siyasətçi olmasına qəti dəlalət etmir. Bəzən vasitəçi, bəzən isə Kərimlinin poçtalyonu rolunda səfərə yollanan “şura” sədri kiminsə maraqlarına xidmət edərkən, özünü siyasi xadim və diplomat hesab edirsə, bərk yanılır. Uzaqbaşı buyruq qulu, marionet təsiri bağışlayan bu adamın siyasi kimliyi elə bu əl buyruqçuluğu çərçivəsindən kənara çıxası deyil.

Görünən kəndə bələdçi lazım deyil və istər Cəmil Həsənlinin, istər Əli Kərimlinin kimliyini tanımayan, istərsə də “Milli Şura”nın nə olduğunu bilməyən yoxdur. Ancaq bir məsləhətimiz olar ki, “Şura” sədri, əslində, “tarixçi”dirsə, onda yaxşı olar ki, elə atıldığı o zibil arxivində eşələnsin. Etməsə, bədəli böyük olacaq. O zaman atdığı bu böhtalara, satqınçılığa görə xalqın cəzası böyük olacaq və dövlətin, millətin maraqlarını heçə sayan Ə.Kərimli-C.Həsənli kimi antimilli ünsürlərin şər və böhtanlarını bağışlamayacaq və sərt ölçü götürmələrini, cəmiyyətdən təcrid olunmalarını tələb edəcək. Və bu haqq-hesab isə çox ağır olacaq.

***RƏFİQƏ KAMALQIZI***

## “Ermənistanın bütün dünyaya baxışı Azərbaycanafobiyadan keçir”

Əslində Ermənistanın daxili və xarici siyasətində Azərbaycanafobiyanın təsirli rol oynadığını bütün azərbaycanlılar da, Dağlıq Qarabağ münaqişəsinə bələd olan beynəlxalq ekspertlər də bilirlər. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib.



Mərkəzin direktorunun sözlərinə görə, indi yeni bir keyfiyyət mərhələsi yaranıb və o da ondan ibarətdir ki, artıq bəlli oldu ki, Ermənistanın öz daxilinə və bütün dünyaya baxışı Azərbaycanafobiyadan, ksenofobiyadan keçir.

“Təki Azərbaycana pis olsun, təki Azərbaycanla münasibətlər qurulmasın deyə Ermənistan bütün dünyadakı işini belə qurur. Bu çox vacib sübutdur, çünki Ermənistan Azərbaycan Prezidentinin təşəbbüsünə qoşuldu-qoşulmadı fərqi yoxdur, artıq o təşəbbüs baş tutacaq. Hazırda 130 dövlət dəstəkləyir və bundan sonra da dəstəkləyənlərin sayı artacaq. BMT-də 200-ə yaxın dövlət var. Hətta BMT Baş Assambleyasının iclasında iştirak edən dövlət 50+1 faizi səs verirsə artıq bu qərar qəbul edilmiş hesab olunur. Yəni, deməkdə məqsədim odur ki, 130 ölkənin səsi bizə kifayət qədər yetərlidir, bəsdir ki, biz öz istədiyimizi keçirək.

Eyni zamanda burada bəlli olub ki, yeni yaranmış vəziyyətə də ən çox uyğunlaşan lider Azərbaycan Prezidentidir. Mən Amerika, ABŞ prezidentini görmüşəm ki, 4-5 sayda beynəlxalq müşavirə keçirib. Söhbət videokonfrans formatından gedir. Həmçinin Rusiya prezidentini görmüşəm ki, o da təxminən 2-3 videokonfrans keçirib. Üst-üstə götürəndə Cənab İlham Əliyev beşə yaxın beynəlxalq miqyaslı videokonfrans keçirib. Bu həm qoşulmama hərəkatına aiddir, həm Türkdilli Şuraya aiddir, həm ayrı-ayrı tanınmış İnformasiya Texnologiyaları şirkətləri ilə keçirilən konfranslara aiddir, bir də ölkə başçısı dünya miqyasında pandemiyaya qarşı videokonfransın, videosammitin tərəfdarıdır və bu da qəbul olunub. Yəni, bəlli olacaq ki, Azərbaycan və Ermənistan tamam fərqli bir dünyada, fərqli aləmdə yaşayır. Ermənistan bir tərəfdən yalvarır ki, 3 dövlət, 5 dövlət 5-10 dənə həkim göndərsin. Bir milyon dollardan ötrü hətta Ermənistan yalvarır ki, koronavirusa yardım etsinlər. Amma Cənab İlham Əliyev bütün dünya üçün nəinki koronavirusdan qurtulmaq, hətta koronavirusdan sonrakı bərpa ilə bağlı proseslərin yol göstərəni rolundadır. Yəni, ATƏT-in Minsk Qrupu həmsədrlərinə pay düşür ki, daha cidanı çuvalda gizlətmək mümkün deyil. Ay, dəvəquşu siyasəti aparan ATƏT-in Minsk Qrupu həmsədrləri daha bundan artıq Ermənistan nə etməlidir ki, siz Ermənistana aşkar şəkildə deməlisiz? Azərbaycanla Ermənistan arasında balans yaratmaqdan əl çəkin. İşğalçı ilə işğala məruz qalanı bərabər tutmaqdan əl çəkin. Adını deyin ki, Ermənistan normal dövlət deyil, normal idarəçilik sisteminə malik deyil”, deyə Mübariz Əhmədoğlu bildirib.

***İnam Hacıyev***

## Milli ruhlu ziyalı Mübariz İsmayılov qəlblərdə hər zaman yaşayacaq

Hər bir cəmiyyətin inkişafında yaradıcı ziyalıların fəaliyyətləri, onların ömür yolları mühüm rol oynayır. Belə söz, sənət adamları xalqın sevgisini qazanır və həyatlarını dəyişib, fani dünya hesab edilən bu dünyadan haqq dünyasına köç etdikləri zamanda unudulmur və qəlblərdə yaşayırlar. Azərbaycanda kifayət qədər tanınan, pedaqoq, jurnalist və ictimai xadim Mübariz Vəli oğlu İsmayılov ömrünün sonuna qədər xalqa və dövlətə xidmət etdi. Bu səbəbdən də dünyasını dəyişdikdən sonra insanların qəlbində özünə silinməz iz qoyub. Öz bədii yaradıcılığı ilə Azərbaycan jurnalistikasında tanınmış sima olan Mübariz İsmayılov 25.07.1953 Naxçıvan şəhərində doğulub. Naxçıvan şəhər 2 saylı məktəbi bitirdikdən sonra, ali təhsil almaq üçün sənədlərini Naxçıvan Dövlət Pedoqoji İnstitunu verib. İnstitu bitirdikdən sonra uzun illər “Şərq qapısı” qəzetində çalışıb. 1995 ildə Bakı şəhərinə köçdükdən sonra “Səs” qəzetində (1995-1997) işləyib və peşəkarlığı, kollektivlə səmimi, mehriban münasibəti səbəbindən müxbir vəzifəsindən baş redaktorun müavini vəzifəsinə qədər yüksəlib.



Daha sonra fəaliyyətini “Xəzər TV”nin Xəbərlər redaksiyasında redaktor kimi davam etdirib. Bir oğlu var. Həyat yoldaşı iki il əvvəl dünyasını dəyişib.

Mübariz İsmayılov 03.07.2020 tarixdə xərçəng xəstəliyindən vəfat edib. Badamdar qəbirstanlığında torpağa tapşırılıb. Milli ruhlu ziyalı Mübariz İsmayılov onu tanıyanların qəlbində hər zaman yaşayacaq. Mübariz İsmayılovun təcrübəsindən, istedadından bəhrələnmiş gənc jurnalistlər onun dəst-xəttini davam etdirəcək və Azərbaycan jurnalistikasının daha da inkişaf etməsinə töhvələr verəcəklər. Allah Mübariz İsmayılova rəhmət eləsin, ruhu şad yeri cənətlik olsun.

***İlham***

# Azərbaycan Liderinin növbəti uğuru

## 130-dan çox ölkənin Prezident İlham Əliyevin təşəbbüsünü dəstəkləməsi ölkəmizə olan etimadın göstəricisidir

***Bu son 4-5 ay ərzində gözlənilmədən bəşəriyyətin üzərinə yeriyən koronavirus adlı kabusun qarşısında dünyanın bir çox böyük dövlətlərinin pandemiyasının ağır fəsadları qarşısında zəif, naəlac qaldığı bir məqamda, Azərbaycanda Prezident İlham Əliyevin müdrik liderliyi ilə bu təhlükənin önlənməsi, əhalinin sağlamlığının qorunması üçün ardıcıl, düşünülmüş addımlar atılıb. Nəticə göz qabağındadır.***



Bu gün Azərbaycan xalqı və dövləti, bəlkə də, son yüzilin ən ağır sınağından uğurla, zəfərlə çıxmaq üzrədir. Təhlükənin ilk anından "Biz birlikdə güclüyük" deyə bəyan edən və dövlətin bütün resurslarını səfərbər etməyi bacaran cənab Prezidentin tarixi xidmətlərini xalqımız görür və öz rəhbərinə inanır. Belə ki, Azərbaycan Prezident İlham Əliyevin qətiyyətli və operativ olması, kreativ lider kimi ən mürəkkəb hadisələri yüksək peşəkarlıqla idarə etməsi, qarşısına çıxan maneələri sürətlə keçməsi, düzgün qərarlar verməsi və bütün ölkənin aqibəti ilə yanaşı, hər bir vətəndaşın da qayğılarını eyni həssaslıqla düşünməsi Onun nüfuzunu dünya miqyasında artırır. Dövlət başçısının mübarizliyi və müdrik lider keyfiyyətləri yüz minlərlə insanın rəğbətinə səbəb olur.

Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə görülən işlər, xüsusən genişmiqyaslı sosial dəstək tədbirləri bir çox ölkələr üçün nümunə ola bilər. Məhz düşünülmüş uğurlu siyasət aparan Azərbaycan Prezidenti İlham Əliyev ilk növbədə, yaranmış vəziyyətdən əziyyət çəkən vətəndaşların problemlərinin həll edilməsinə diqqət yetirdi. Bu məqsədlə böyük məbləğdə vəsait ayrılıb, pandemiyaya görə öz işini müvəqqəti olaraq itirən 600 mindən çox insan dövlət tərəfindən dəstəklə təmin edilir. Buna hansı yolla nail olunur? Əlbəttə ki, dövlət başçımızın düşünülmüş uğurlu siyasəti nəticəsində. Güclü iqtisadiyyata malik olan dövlət hər şeyə qadirdir. Bəli, həqiqətən də bu danılmaz aksiomadır. Məhz ölkəmizin iqtisadiyyatın inkişaf tempinə görə regionda lider dövlətə çevrilməsi də təsadüfi deyil.

Azərbaycan hökumətinin yürütdüyü müstəqil siyasət həmişə birmənalı olub: "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da altıncı çağırış - Milli Məclisin ilk iclasındakı çıxışında demiş və son 16 il ərzində iqtisadi sahədə əldə edilmiş uğurların dünyada bərabəri olmadığını vurğulamışdır.

Dünya birliyinin mütləq əksəriyyətinin yardıma ehtiyac duyduğu bir vaxtda əlimizdə olan resurslar bu çətin vəziyyəti idarə etməyə imkan verir.Bu gün dünyanı ağuşuna alan koronavirus epidemiyanın dünya iqtisadiyyatının iflic vəziyyətinə salmasına baxmayaraq, xəstəliyin ölkəmizdə yarada biləcəyi fəsadlar cənab Prezidentin mütərəqqi göstərişləri nəticəsində minimuma endirilmişdir. Bu, məhz ölkə Prezidentinin düşünülmüş siyasəti nəticəsində həyata keçirilir. Təqdirəlayiq məsələlərdən biri də budur ki, Azərbaycan Prezidenti yaranmış vəziyyətlə əlaqədar büdcədə zəruri olmayan layihələrin dayandırılması və ixtisara salınması barədə göstəriş versə də, sosial sahədə heç bir proqramın ixtisar edilməyəcəyini bildirmişdir. Bu bir daha onu deməyə əsas verir ki, ölkəmizdə aparılan siyasətin ana xəttini Azərbaycan Respublikasının vətəndaşı tutur, vətəndaşa yüksək qiymət verilir, görülən hər bir iş vətəndaşın sosial rifahının yaxşılaşdırılmasına yönəlib. Məhz bu gün bütün dünyanın gözəgörünməz düşmənə qarşı (COVID-19) mübarizə apardığı bir şəraitdə cənab Prezident minimum 7 min köçkün ailəsinin və minimum 1500 şəhid ailəsinin yeni mənzillərlə təmin ediləcəyini bildirməsi Azərbaycan dövlətinin vətəndaşına olan qayğısının reallığıdır. Eyni zamanda, dövlət başçımızın bu uğurlu siyasəti Azərbaycan xalqı ilə yanaşı, eyni zamanda dünya dövlətləri tərəfindən dəstəklənir və Ona böyük etimad göstərirlər. Elə bu günlərdə Azərbaycan Prezidentinin 130-a qədər dövlət tərəfindən irəlmi sürdüyü təşəbbüsün dəstəklənməsi deyilənlərin reallığıdır.

### Azərbaycan Prezidentinin 130-a qədər dövlət tərəfindən dəstəklənməsi etimadın və hörmətin növbəti göstəricisi, tarixi çağırışıdır

Məhz Azərbaycan Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilməsi, onun davamı olaraq mayın 4-də videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda keçirilmiş Zirvə görüşləri bir daha sübut edir ki, bu tədbirlər ölkəmizin qlobal səviyyədə beynəlxalq həmrəyliyin möhkəmləndirilməsinin real nəticəsidir. Ən uğurlu nailiyyət isə Qoşulmama Hərəkatının sədri statusunda Prezident İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünün BMT-nin üzvü olan 130-a qədər dövlət tərəfindən dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə, eləcə də dövlətimizin başçısına olan böyük etimadın və hörmətin növbəti göstəricisi olmaqla yanaşı, bu tarixi çağırış idi. Çünki belə bir çağırışı ancaq tarixi liderlik missiyasını Prezident İlham Əliyev üzərinə götürə bilərdi və bunu da Azərbaycan Prezidenti etdi. Bu Azərbaycan Prezidentinə beynəlxalq birliyin inamının, etimadının təzahürü, ölkəmizin və dövlətimizin başçısının qlobal miqyasda nüfuzunun göstəricisi olmaqla yanaşı, həm də bütün üzv ölkələrin problemin həlli istiqamətlərində səyləri birləşdirməklə COVID-19-a qarşı mübarizədə birlik, həmrəylik nümayiş etdirməsinə mühüm töhfə olacaq.

### 130 ölkələr Azərbaycan dövlətinin qlobal həmrəyliyini dəstəklədi

Bu gün BMT-nin 130-dək üzv dövləti tərəfindən Baş Assambleyanın xüsusi sessiyasının keçirilməsi barədə Prezident İlham Əliyevin irəli sürdüyü təşəbbüsün dəstəklənməsi tarixi hadisə olmaqla yanaşı, həm də dünya dövlətlərin həmrəylik çağırışlarına dəstəyi idi. Bütün dünyanı bürüyən bu koronavirus bir tək yoluxucu, ölümcül xəstəlik deyil, eyni zamanda son dərəcə sarsıdıcı, ağır, humanitar təhlükələr yaradan, dövlətlərin məcburi özünütəcridinə yol açan pandemiyadır. Belə bir məqamda isə bütün dünyanın qəbul etdiyi liderlərin təşəbbüslərinə, həmyərlik çağırışlarına böyük ehtiyac duyulur və Prezident İlham Əliyev məhz belə liderlərdəndir ki, çətin məqamlarda onun söylədiyi hər söz, hər kəlmə, irəli sürdüyü hər ideya bəşəriyyət tərəfindən qəbul olunur, sayğı ilə qarşılanır, dəstək qazanır. Bax, budur LİDERLİK, budur çətin anların Prezidenti olmaq, budur xalqın, bütünlüklə dünya dövlətlərin belə bir zamanda etimadını, inamını qazanmaq.

Məhz dövlətimizin başçısına böyük etimad və inamın nəticəsidir ki, koronavirusla mübarizə istiqamətində ilk qlobal və beynəlxalq tədbir də Onun təşəbbüsü və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının vəsiləsi ilə keçirilib. Özü də dövlət və hökumət başçıları səviyyəsində. Sevindiroici və qürurverici haldır ki, bu tədbir həm də ilk beynəlxalq tədbir kimi tarixə düşüb. Daha sonra eyni adlı mövzuda Qoşulmama Hərəkatının fövqəladə Zirvə konfransı düzənlənib. Ardınca isə, BMT-nin 130-dək üzv dövləti tərəfindən Prezident İlham Əliyevin təşəbbüsünə dəstəklənməsi beynəlxalq ictimaiyyətin ölkəmizə, dövlətimizin LİDERİNƏ olan böyük etimadın əyani və növbəti göstəricisidir. Lakin bu böyük diplomatik uğura yenə işğalçı ölkə - Ermənistan bir daha əsl irticaçı siyasətini göstərdi.

### Ermənistan bir daha dünya dövlətləri arasında özünü rüsvay etdi

Bu gözlənilən idi. Çünki Azərbaycanın artan nüfuzu, sözünün eşidilməsi işğalçı ölkə olan Ermənistanı həmişə rahatsız edib, bu gün də edir. Çünki bütün dünya COVID-19-a qarşı mübarizədə həmrəyliyin vacibliyini vurğuladığı halda, Ermənistan qlobal xarakter daşıyan bu təşəbbüsə qarşı çıxış etməklə, BMT sistemində və dünya dövlətləri arasında özünü rüsvay etdi.

İnanırıq ki, Azərbaycan Prezidenti İlham Əldiyevin təşəbbüsü ilə keçiriləcək BMT-nin xüsusi sessiyası pandemiya qarşısında beynəlxalq ictimaiyyətin tam olaraq səfərbər olunmasına münbit mühit yaradacaq və bu qlobal təhdidə qarşı eləmə qlobal səviyyədə də cavabın tapılmasına öz müsbət töhfəsini verəcək. Hazırda koronavirus pandemiyasının davam etməsi BMT Baş Assambleyasının xüsusi sessiyası çərçivəsində dövlət və hökumət başçılarının təxirə salınmadan bir araya gəlməsinə, planetimizi bürüyən bu bəladan çıxış yollarını birgə müzakirə edilməsinə və həll yollarının tapılmasına həqiqətən də böyük tələbat var. Və ümid edirik ki, xüsusi sessiya pandemiya ilə mübarizədə beynəlxalq ictimaiyyətin tam səfərbər edilməsinə şərait yaradacaq, dünya ölkələrinin ümumi təhdidlər qarşısında birləşməsinə və qlobal həmrəyliyin gücləndirilməsinə müsbət töhfə verəcək.

***MEHRİBAN ABASQULİYEVA,***
***YAP Sabunçu rayon təşkilatının sədri***

## Hatəm Qocayev: "Bəşəriyyətin bu vəziyyətdən çıxmasının ən əsas şərtlərindən biri həmrəylikdir"

"Bu gün dünya ölkələri COVID-19 pandemiyası ilə mübarizə aparır və bu pandemiyadan xilas olmağın yollarını axtarır". Bu fikirləri "Səs" qəzetinə açıqlamasında YAP Naftalan şəhər təşkilatının sədri Hatəm Qocayev bildirib.



O qeyd edib ki, pandemiyanın ilk günlərindən dünyada cərəyan edən proseslər, ölkələrin və ÜST-ün müəyyən etdiyi qaydalara və mübarizə metodlarına nə dərəcədə riayət edilməsi göstərdi ki, yoluxma riski və ölüm faktları müxtəlif ölkələrdə eyni deyil: "Bəşəriyyətin bu vəziyyətdən çıxmasının ən əsas şərtlərindən biri isə birlik və həmrəylikdir. Dünyanı cənginə alan pandemiya insanların həyatını təhlükə altına qoyan ciddi sağlamlıq problemləri yaratmaqla bərabər, mənfi fəsadları hələ uzun müddət hiss olunacaq sarsıdıcı qlobal sosial-iqtisadi və humanitar təhlükələr yaradıb. Dünya müharibəsi ilə müqayisə olunan COVID-19 pandemiyası şəraitində özünütəcrid və franqmentar xarakterli tədbirlər əvəzinə qlobal həmrəyliyə və qlobal baxışa böyük ehtiyac var. Bu məqsədlə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri statusunda Prezident İlham Əliyevin təşəbbüsü ilə bu təşkilatın dövlət və hökumət başçıları səviyyəsində aprel ayında fövqəladə Zirvə görüşü keçirildi. Türk Şurası ilk beynəlxalq təşkilat idi ki, COVID-19-a qarşı mübarizə mövzusunda Zirvə görüşü keçirdi. Qoşulmama Hərəkatının sədri olan Cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupunun COVID-19 pandemiyasına həsr edilmiş onlayn Zirvə görüşü təşkil edildi. Bu tədbirdə Qoşulmama Hərəkatına üzv dövlətlərlə yanaşı, BMT-nin Baş katibi, BMT Baş Assambleyasının prezidenti, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, Afrika İttifaqı və Avropa İttifaqı kimi beynəlxalq təşkilatların yüksək çinli nümayəndələri də iştirak etdilər. Tərkibində 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatı BMT-dən sonra dünya dövlətlərinin təmsil olunduğu ikinci ən böyük siyasi təsisatdır".

H.Qocayev bildirib ki, Prezident İlham Əliyev Qoşulmama Hərəkatının onlayn Zirvə görüşündə çıxışı zamanı qlobal həmrəyliyin nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifini irəli sürdü: "Təklif Nyu-Yorkda Qoşulmama Hərəkatına 120 üzv ölkə arasında yekdilliklə razılaşdırılıb. Bundan sonra Qoşulmama Hərəkatının sədri Prezident İlham Əliyev Qoşulmama Hərəkatı ölkələri adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə Baş katib Antonio Quterreşə müraciət ünvanlayıb. BMT Baş katibi mayın 28-də Baş Assambleyanın "Prosedur Qaydaları" adlı sənədinin 9 (a) bəndinə uyğun olaraq bütün üzv ölkələrə müraciət edərək 30 gün müddətində, yəni iyunun 27-nə qədər təşəbbüsə dair münasibət bildirilməsini xahiş edib. BMT-nin 130-dək üzv dövləti tərəfindən Qoşulmama Hərəkatının sədri statusunda Prezident İlham Əliyevin Baş Assambleyanın xüsusi sessiyasının keçirilməsi barədə təşəbbüsünün dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük etimadın növbəti göstəricisidir".

***Zümrüd Bayramova***

# Əli Kərimli bizim suallarımıza cavab verdimi..?

*Yaxud, adamlıqla onun arasındakı böyük fərq*

***Daha çox siyasi cameədə AXCP sədri kimi deyil, məhz klaviatura qəhrəmanı, yaxud bloger kimi tanıdığımız Əli Kərimlinin facebook səhifəsində yenidən sözün həqiqi mənasında ət tökən və pafoslu bir paylaşım nəzərimi cəlb etdi.***



Sən demə, AXCP rəyasət heyətinin üzvü Vahid Məhərrəmli dövlətin apardığı siyasətə kölgə salmağa hesablanmış üçün "füsunkar" bir status yazıb və Ə.Kərimli dərhal həmin statusdan sonsuz feyzə mübtəla olub, həmin statusu oxumağı yanyörəsindəkilərinə tövsiyə edib. Özləri bilər nə yazıb, nə pozduqlarını amma...

## Bəs indi ayıb deyilmi, utanmırlarmı ki, durub öz çörəkverənlərinin ağır vəziyyətlərinə belə bir etinasızlıq nümayiş etdirirlər...?

Amma məsələ bundadır ki, həmin o V.Məhərrəmlidir-nədirsə, bizə düşmən, onların özlərinə isə rəfiq olan Ermənistanda mövcud olan çıxılmaz və böhranlı vəziyyətin, xalqın ağır durumdan çıxa bilməməsinin ona və ümumilikdə cəbhəçilərə dəxli olmadığını yazıb. Yəni deyib ki, "mənə nə" (?!-R.N.) Həmin anda məni çox dərin bir sual ilgiləndirdi - əcəba nə oldu bu cəbhəçilərə ki, uzun illərdir erməni aşnalarının onlara atdıqları sür-sümük qazanlarına lomba-lomba tüpürməyə başladılar? Məgər hazırkı dövrə qədər siyasi səhnədə qalıb-sürünməklərinin əsas dəstəkçiləri - məhz həmin ermənilərin lobbiləri, ya da lobbilərinə mənəvi, maddi və s. dəstəklər göstərən bəlli və qeyri-bəlli Qərb təşkilatları olmayıblarmı? Bəs indi ayıb deyilmi, utanmırlarmı ki, durub öz çörəkverənlərinin ağır vəziyyətlərinə belə bir etinasızlıq nümayiş etdirirlər...? Əslində burada təəccüblü nə isə axtarmağa da dəyməz. Əli Kərimliyə nə var ki... O, bu gün ona çörək verən "dostu" ola bilər, amma ondan daha çox çörək verənin isə hər şeyi olmağa razılıq verə biləcəyini də unutmaq olmaz!

## Qorxur ki, ağırlıqdan və günahdan boynu qırılar?

Bu ünsürün və ətrafının işi-gücü ancaq sual verməkdən ibarətdir, amma di gəl ki, bizim illərdir ünvanladığımız suallarımızı hələ də doğru-dürüst cavablandırmayıb. Məsələn, AXCP-nin baş blogeri nəyə görə torpaqlarımızın işğalının əsas və bir nömrəli baiskarları olan AXC-Müsavat iqtidarının görünməyən tərəfləri barədə danışmır, niyə Elçibəyin məşhur müşavirəsində düşmənə benzin, dizel yanacağı satıldığını etiraf etməsini xatırlamır, utanc hissi keçirdiyni demir, ön cəbhə mövqelərinin satılması barədə faktları danır, şəhid düşmüş hərbçilərimizin ailələrinə pul qarşılığında verildiyini etiraf etmir və - hakimiyyətə gəlməkdən ötrü ön cəbhədəki AXC-yə məxsus batalyonlarının mövqelərini qoyub, paytaxta axışdığını, bunun nəticəsində düşmənin torpaqlarımızı işğala məruz qoyduğunu, mülki əhalinin əsir və girov götürüldüklərini, öldürüldüklərini ağır da olsa, boynuna almır..?! Qorxur ki, ağırlıqdan və günahdan boynu qırılar?

## Yoxsa ki, AXCP elə-belə, "dostların yardımları hesabına" fəaliyyət göstərir?!

Əli Kərimli hansı səbəbdən oğul-noğul balasının şübhəli London gecələri barədə, özünün bank maxinasiyaları, qrant mənbələri haqqında hələ də susur? Niyə demir ki, şəhərin müxtəlif bölgələrində tikdirdiyi villalarını hansı pullar hesabına ərsəyə gətirib? Nəyə görə arvadının və özünün Bakıdakı və Londondakı gizli biznesi ətrafında açıqlamalar vermir? Yoxsa ki, AXCP elə-belə, "dostların yardımları hesabına" fəaliyyət göstərir?! Yaxşı, bu da belədirsə, həmin dostları kimlərdir, niyə adlarını açıqlamır ki, biz də pul-filan lazım olanda "borcdan-zaddan" istəyək?

## Əli Kərimli niyə etiraf etmir ki, bu gün sədri olduğu AXCP-nin baş kreslosunu o əxlaqsızlıq, xəyanət, liderinə nifrət yaratmaq vasitəsi ilə işğal edib?

AXCP sədri hələ də mühacir biznesində partiyasının dəlilli-sübutlu arayışlarının ortaya çıxması barədə bir kəlmə də olsun danışmayıb. Həmin sənədlərdə imzasının olması faktını açıqlamayıb. Bu sənədləri bir neçə yüzdən tutmuş, bir neçə min dollara, avroya satıldığını da bilə-bilə dilini qatlayıb qarına və həmin ətrafda verilən sualları cavablandırmayıb.

Nəhayət, Əli Kərimli niyə etiraf etmir ki, bu gün sədri olduğu AXCP-nin baş kreslosunu o əxlaqsızlıq, xəyanət, liderinə nifrət yaratmaq vasitəsi ilə işğal edib? İndi ətrafındakı bəlli adamcığazlar vasitəsi ilə guya ki, suallar ünvanlatdırır. Adama deyərlər ki, ay filankəs, sən 27 ildir ki, bu suallara cavab vermirsənsə, indi harana nə deyib ki, belə atlanıb-düşməyə başlamısan? Amma bunu da adama deyərlər, daha Əli Kərimliyə yox..!

*Rövşən NURƏDDİNOĞLU*

# "Radikallar Azərbaycan daxilində "kiçik Ermənistan" rolunu oynamamalıdırlar"



"Milli Şura" sanki "hakimiyyət və vəzifə" yönündə proqramlaşdırılmış robotlardan ibarətdir". Bu sözləri SİA-ya verdiyi açıqlamasında Azərbaycan Sosial Rifah Partiyası sədrinin birinci müavini Əsli Kazımova deyib. Partiya sədrinin birinci müavininin sözlərinə görə, bu gün "Milli Şura"nı nə Dağlıq Qarabağ məsələsi maraqlandırır, nə də ölkədəki pandemiya ilə mübarizə.

"Milli Şura"nı sağlam siyasi düşüncə, milli ideyalogiya və dövlətin mövqeyi kimi mühüm amillər yox, hakimiyyət və vəzifə üçün robotlaşmış beyinlər təşkil edir. Əfsuslar olsun ki, belə beyinlər də, özünü müxalif qüvvə hesab edir. Bu gün xalqın sağlığını, təhlükəsizliyini və rifahını düşünməyən müxalif qüvvə üçün sizcə "Xalq", "Vətən", "Dövlət" anlayışı ola bilərmi? Rus ədəbiyyatının tənqidçisi Belinski deyir ki, "İnkişaf özünü tənqiddən başlayır". Hesab edirəm, "Milli Şura" bir qədər də, özünü tənqid etməyi öyrənməlidir. Çünki hakimiyyəti yetəri qədər ədalətsiz və haqsız tənqid edirlər. Bir qədər də öz güclərini özfəaliyyətə sərf etsinlər. Anlamaq gərəkir ki, bu gün pandemiya ilə mübarizə zamanı hər bir müxalif partiyanın birinci dərəcəli məqsədi xalqın rifahı, sağlığı və təhlükəsizliyinin təminatı olunmalıdır. Müxalifət qüvvələri Azərbaycan daxilində kiçik "Ermənistan" rolunu oynamamalıdırlar! Bu milli və mənəvi dəyərlərə qarşı olmaqla yanaşı, birmənalı olaraq dövlətçiliyə qarşı olmaq deməkdir", deyə Azərbaycan Sosial Rifah Partiyası sədrinin birinci müavini öz iradlarını ifadə edib.

Əsli Kazımova eyni zamanda xəstəliyin yayılmasına bəzi insanların məsuliyyətsizliyinin səbəb olduğu xaotik vəziyyətlə əlaqədar ölkə başçısı Cənab İlham Əliyevin çıxışı ilə bağlı fikirlərini də açıqlayıb və xüsusilə vurğulayıb ki, Cənab Prezidentin nitqi, COVİD-19-la mübarizə tədbirlərinin onun xüsusi diqqət mərkəzində olduğunun baris nümunəsidir.

"Cənab Prezidentin pandemiya ilə mübarizə tədbirləri çərçivəsində ayırdığı bütün diqqət və qayğını danmaq ədalətsizlik olar. Belə bir əməyin və zəhmətin qarşısında ötən gün məşhur oteldə baş verənləri görəndə çox məyus oldum. Əfsuslar olsun ki, bir sıra insanlar üçün şəxsi maraqlar "xalqın təhlükəsizliyi" və ölkədəki əminamanlıqdan daha üstündür. Onlar elə hesab edirlər ki, xalq da, dövlət də, vətən də sadəcə hakimiyyətə məxsusdur. Ona görə də, "mənim deyilsə, ziyan vurum" təfəkkürü ilə hərəkət edirlər. Əzizlərim, xalq da, dövlət də, vətən də hər birimizindir! Ona görə də, xalqın təhlükəsizliyi də, rifahı da, ölkədəki əminamanlıq da, sabitlik də, vətənin bölünməzliyi də hamımızın problemidir. Bu problemi isə biz sadəcə həmrəylik və səbirlə dəf edə bilərik", deyə Əsli Kazımova bildirib.

*İnam Hacıyev*

# "Milli Şura" həyata keçirilən tədbirləri şouya çevirmək istəyir"

"Dünya ölkələri və xalqlarının koronavirus pandemiyası ilə mübarizə apardığı bir zamanda ermənipərəst qüvvələr tərəfindən maliyyələşən Milli Şura və onun ətrafında birləşən bir qrup şəxs ölkəmizin bu istiqamətdə gördüyü işlərə kölgə salmaq istəyir". Bunu SİA-ya millət vəkili Cavid Osmanov deyib.

Deputatın sözlərinə görə, bu ünsürlər ölkəmizdə həyata keçirilən tədbirləri özlərinin xeyrinə şouya çevirmək istəyirlər: "Hələ koronavirus pandemiyasının yeni yaranma vaxtlarında ölkəmizdə çox ciddi, davamlı və təsirli tədbirlər həyata keçirilib. Azərbaycan dövlətinin atdığı addımları dünyanın bir çox inkişaf etmiş ölkələri özlərində tətbiq edirlər. Təbii ki, həmin ölkələr bu tədbirlərin ölkəmizdə effektini görüb bunu edir. Azərbaycan Prezidenti İlham Əliyev koronavirus pandemiyasına qarşı effektli addımlar atıb, bu istiqamətə vəsait ayırıb, ölkəmizdə qısa müddət ərzində maska istehsal edən müəssisə yaradılıb, "Yeni klinika" istifadəyə verilib, ölkəmizin ən bahalı "5" ulduzlu otellərində insanlar karantinə yerləşdirilib, ən böyük xəstəxanalar bu virusa yoluxan insanların sağlamlığının qorunması istiqamətinə yönəldilib. Eyni zamanda Azərbaycan xalqı ölkə başçısı ilə həmrəylik nümayiş etdirərək, koronavirusa qarşı mübarizə fonduna ianələr köçürür. Belə bir məqamda bunlar bir daha öz çirkin siyasətlərini, niyyətlərini həyata keçirmək üçün bəziləri okeanın o tayında, bəziləri Avropanın ortasında, bəziləri isə daxildə oturaraq ermənipərəst qüvvələrin verdiyi vəsait hesabına dövlətin gördüyü bu işlərə ləkə gətirməyə, bununla xalq arasında təşviş yaratmağa çalışırlar".

Millət vəkili qeyd edib ki, onların yeganə arzusu bu virusun ölkəmizdə daha geniş yayılmasıdır: "Azərbaycan dövləti ilin əvvəlində atdığı addımlarla, karantin rejimi ərzində kütləvi tədbirlərin qarşısını almaq, insanlar arasında virusa yoluxmanı azalmaq məqsədilə karantin rejimini tətbiq edəndə radikal müxalifət, "Milli Şura" insanları kütləvi tədbirlərə dəvət edirdilər. Mən onları 5-ci "kolon"ovirus adlandırıram. Məqsəd məhz Azərbaycan xalqı arasında bu virusa yoluxanların sayının daha çox olmasıdır. Bunlar da öz məkrli niyyətlərini ortaya qoymaq üçün Azərbaycan dövlətinin bu virusun qarşısını ala bilmədiyi görüntüsünü yaratmaq istəyirlər".

*Ceyhun Rasimoğlu*

# "Bu şurada milliyə aid heç nə yoxdur"



***Onlar özlərinə "Milli Şura" adı qoyublar, amma bu əslində, anti-milli şuradır. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Azərbaycan Sosial Demokrat Partiyasının (ASDP) sədri Araz Əlizadə deyib. Partiya sədrinin sözlərinə görə, bu şurada milliyə aid heç nə yoxdur və anti-dövlətçilik, anti-Azərbaycan xalqı, anti-Azərbaycanın gələcəyi olmaqla, ancaq anti-milli var.***

"Bu qüvvələr hamızı vaxtilə dövlət çevrilişi yolu ilə hakimiyyətə gəlib, Azərbaycanı vətəndaş müharibəsi şəraitində qoyub qaçanlardır. Cəlil Məmmədquluzadənin qəhrəmanları kimi deyirlər ki, "bəlkə də qaytardılar". Anlamırlar ki, onlara heç nə qaytarmayacaqlar. Bunlar hakimiyyətdən gedəndə mən demişdim ki, kimin də pişiyi miyoldasa, bunların pişiyi daha miyoldamayacaq. Onlar özləri miyoldamaq istəyirlər, amma alınmayacaq. Azərbaycan xalqı müdrik xalqdır və bir daha bu cüvəllağıların ardınca getməyəcək", deyə Araz Əlizadə bildirib.

# Nehrəmdə avtobus aşıb, ölən var

Babək rayonunun Nehrəm qəsəbəsi ərazisində yol-nəqliyyat hadisəsi olub. Daxili İşlər Nazirliyindən Milli.Az-a verilən məlumata görə, iyulun 6-da saat 7 radələrində Babək rayonunun Nehrəm qəsəbəsi ərazisində qəsəbə sakini C.Vahabov idarə etdiyi "İsuzu" markalı avtobusu qaz borusuna və rabitə dirəyinə vurub aşırıb. Nəticədə C.Vahabovun sərnişini Yusif Zeynalov hadisə yerində ölüb. Babək RPŞ tərəfindən araşdırma aparılır.

# Gürcüstandakı erməni kilsəsinin yeni iddiası

***Qeyd etmək lazımdır ki Gürcüstandakı Erməni Apostol Kilsəsinin Tiflisdəki erməni millətçiləri, Korxi kəndindəki kilsəni rəsmi olaraq iddia etdikləri 442 Gürcüstan kilsəsinin siyahısına daxil etmiş və ermənilərə aid olduğunu iddia etmişlər.***

Bu kilsə Axalkələk bələdiyyəsinin kilsələri arasında sayca 33-cüdür. 1830-cu illərdəki Korxi və Surb Stepanos (Surb Qriqor Lusavoriç ) 1884-1890-cı illərdə bərpa olunmuşdur - bu məlumat rəsmi Ermənistanın iddiasına əsaslanır. Lakin bu məlumat tamamilə yalandır. Çünki Korxi kilsəsi orta əsrlərdə tikilmiş bir gürcü kilsəsidir ki o zamanda da Samtsxe-Cavaxetiyada heç bir erməni yox idi.

1830-cu ildə kilsə ermənilər tərəfindən tutulmuşdur. 1884-1890-cu illərdə ermənilər tərəfindən ələ keçirilən gürcü kilsələrində təmir işləri aparılmış, kilsələrin gürcülərə mənsub olduğunu isbat edən dəlillər məhv edilmiş, yerinə isə erməni yazısı olan saxta daşlar qoyulmuşdur.

Buna baxmayaraq, Gürcüstanın Mədəni İrsinin Qorunması üzrə Milli Agentliyinin mütəxəssisləri kilsəni araşdırmağa başladıqları zaman dərhal Korxi kəndindəki kilsənin gürcülərə aid olduğunu təsbit etmişlər. Ermənilər isə onu erməni adlandıraraq yerinə guya ermənilərə aid olduğunu sübut edən saxta daşlar qoymuşlar. Bu isə XIX əsrin sonunda, ermənilər tərəfindən Gürcüstan kilsələrinin kütləvi şəklidə mənimsənilməsi dövründə baş vermişdir. Kilsənin təməlinin və divarlarının gürcülərə mənsub olmasını istənilən mütəxəssis sübut edə bilər. Bundan əlavə, 1890-cı ildəki təmiri dövründə vəhşicəsinə dağıdılmış məbəd kompleksinin məzar daşlarını ermənilər mənimsəmişlər.

Kilsənin bu cür vəhşicəsinə məhv edilməsinin qarşısını almaq üçün Gürcüstanın Mədəni İrsinin Qorunması üzrə Milli Agentlik, Axalkələk bələdiyyəsinin Korxi kəndində yerləşən Müqəddəs Stefan kilsəsinin dağıdılmasının qarşısını almaq üçün kilsəni öz himayəsi altına aldı. Kilsənin himayə altına alınması 2017-ci il iyunun 30-da Mədəniyyət abidələrinin müdafiəsi üzrə Milli Agentliyin direktoru Nikoloz Antidzenin tapşırığı ilə yerinə yetirildi.

Müqəddəs Stefan kilsəsi kəndin şimal-şərq hissəsində yerləşir. XIX əsrin sonunda tikilmişdir. Daha əvvəllər kilsənin şərq tərəfində yerləşən zəng qülləsinin yeri dəyişdirilmişdir.

Şərqə tərəf olan divarların yaxınlığında orta əsrlərin təsvirləri olan qəbir daşları tikilmişdir. Kilsənin cənub-qərb küncündə guya kilsənin ermənilərə aid olmasına dair saxta yazı qeyd olunmuşdur. Kilsə haqqında olan bu məlumatlar Gürcüstanın Mədəni İrs Agentliyinin saytında qeyd olunmuşdur. Kilsədəki saxta erməni yazısı guya 1890-cı ilə əsaslanır və beləliklə də ermənilər kilsəni sıfırdan qurduqlarını iddia etməyə çalışaraq qədim gürcü kilsəsini tutmadıqlarını iddia edirlər. Lakin ermənilər, kilsəni mənimsəmə cəhdlərinə baxmayaraq Gürcüstanın Mədəni İrs Agentliyinin mütəxəssislərini aldatmağı bacarmadılar. Çünki mütəxəssislər dərhal kilsənin təməlinin orta əsrlərə aid olduğunu, əvvəllər bu yerdə yaşayan qədim gürcü kilsəsinin tikinti elementlərinin ermənilər tərəfindən qəsdən məhv edildiyini artıq qeyd etmişlər. Korxi kəndindəki gürcü kilsəsinin erməni mənşəli olmasını isbat etməyin mümkün olmadığını başa düşdükləri üçün erməni vandalları kilsənin fundamentinə qədər bərpa adı altında Gürcüstana aid olan bütün izləri məhv etmişlər.

Əslində Gürcüstan hakimiyyətinin Gürcüstan ərazisindəki erməni qəsəbələrində yerləşən bütün gürcü məbədlərini qoruması heç də gec deyil. Əgər bu istiqamətdə müvafiq tədbirlər görülməsə onda gürcü mədəniyyətinin qiymətli abidələri eləcə də gürcü xalqının məbədləri, Korxi kəndində olduğu kimi ermənilərin tərəfindən vəhşicəsinə məhv ediləcək. Ermənilərin isə iddia etdikləri gürcü kilsələri hər an dağılma təhlükəsi ilə qarşı-qarşıyadır. XIX-XX əsrlərdə Gürcüstanda Qriqorian kilsəsinin fəaliyyətinin əsas istiqamətlərindən biri gürcü kilsələrində və monastırlarında köhnə Lapid yazılarının və gürcü nişanlarının məhv edilməsi idi ki, bu da ermənilərə gürcü kilsələrini və digər mədəniyyət abidələrini mənimsəməyə imkan verirdi. Tbilisidə, Samtsxe-Cavaxetidə, Kvemo-Kartlidə, Samaçabloda və Gürcüstanın digər rayonlarında bir çox məbədlər olmuşdur. Hətta ərəblərin hakimiyyəti dövründə belə ermənilərin Gürcüstanı xilas etməsinə dair hər hansı bir hadisə baş verməmişdir. Onlar dəmir çubuqlarla məbədləri dağıdaraq simvolları məhv etmişlər.

Samtsxe-Cavaxetiyada səfərdə olan məşhur tarixçi Georgi Boçoridze Yakov Balaxaşvilidən öyrənmişdi ki, erməni məktəbinin divarlarında Skaltbila kəndinə Fetobendən gətirilmiş çarın və kraliçanın rəsmləri olmaqla yanaşı daş üstündə yazıları da yazılmışdır. Alim, məktəb rəhbərləri olan E. Simonyan və pedaqoq A. Abramyanla görüşərək onlara səfərlərinin səbəblərini izah etməsinə baxmayaraq soyuq bir şəkildə rədd cavabı almışdır. Samtsxe-Cavaxeti ermənilərinin gürcü tarixi abidələrinə olan mənfi münasibəti - bütün gürcü nişanlarını silmələri və məhv etmələri, sonra da bu abidələri mənimsəmələrinə dair məqamları Q. Boçoridzenin xatirələrindən aydın şəkildə görünür.

1990-cı ilin yayında Marneuli rayonunun Axkerpi kəndində Lançava şəhərinin rəhbərliyi altında gürcü polisinin batalyonu durmuşdu. Q. Lançava səhər bel çantası ilə hansısa kişinin kəndin yanında yerləşən köhnə gürcü bazilikasına getməsinə və axşama qədər orada qalmasına dair məlumat almışdı. Q. Lançava maraqlanaraq oraya getdi. Bu zaman orada qazılmış bazilikanın bünövrəsini gördü. Bir erməni isə xəndəkdə dayanaraq bu daşın üzərinə erməni yazısını həkk etdirirdi. Yaşlı bir gürcü qadını Lançavaya şikayətlənərək bunun birinci hal olmadığını qeyd etdi. Belə ki bura gələn ermənilər tez-tez qədim gürcü kilsələrinin daşlarında erməni yazılarını yazırlar.

1987-ci ildə ermənilər gürcü məbədinə - Xucabi monastırına iddia qaldırmışdılar. Guya bu ərazidə qədim zamanlardan bəri ermənilər yaşamışlar və bu kilsə ermənilərə məxsusdur.

Ayrılmış xüsusi komissiya, Gürcüstan və Ermənistanda aşkar edilmiş sənədlər əsasında təsdiq etdi ki, abidə Tamara dövründə tikilmişdir və Gürcüstan sərhədinin hüdudlarında yerləşir. 1918-ci ilin dekabrında ermənilər ingilislərlə Loru tərəfini tutduqdan sonra Ermənistanın sərhədləri Xucabet monastrına çox yaxın idi. 1935-ci ildə ermənilər Xucabini vəhşicəsinə talan edərək oradakı rahibləri monastrdan qovdular. Məşhur Xucabi monastırının, həqiqətən də, gürcülərə aid olmasına dair mətbuatda həqiqəti əks etdirən çoxlu sayda məqalələr dərc olunmuşdur, lakin ermənilər isə bunu da mənimsəmişlər. Bu faktı onlar 1986-1988-ci illərdə İrəvanda erməni dilində dərc edilmiş "Ermənistanın toponimlərinin və onun sərhədyanı ərazilərinin lüğəti"ndə qeydə almışlar.

***Vahid Ömərov,***
***Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***

Şərqə tərəf olan divarların yaxınlığında orta əsrlərin təsvirləri olan qəbir daşları tikilmişdir. Kilsənin cənub-qərb küncündə guya kilsənin ermənilərə aid olmasına dair saxta yazı qeyd olunmuşdur. Kilsə haqqında olan bu məlumatlar Gürcüstanın Mədəni İrs Agentliyinin saytında qeyd olunmuşdur. Kilsədəki saxta erməni yazısı guya 1890-cı ilə əsaslanır və beləliklə də ermənilər kilsəni sıfırdan qurduqlarını iddia etməyə çalışaraq qədim gürcü kilsəsini tutmadıqlarını iddia edirlər. Lakin ermənilər, kilsəni mənimsəmə cəhdlərinə baxmayaraq Gürcüstanın Mədəni İrs Agentliyinin mütəxəssislərini aldatmağı bacarmadılar. Çünki mütəxəssislər dərhal kilsənin təməlinin orta əsrlərə aid olduğunu, əvvəllər bu yerdə yaşayan qədim gürcü kilsəsinin tikinti elementlərinin ermənilər tərəfindən qəsdən məhv edildiyini artıq qeyd etmişlər. Korxi kəndindəki gürcü kilsəsinin erməni mənşəli olmasını isbat etməyin mümkün olmadığını başa düşdükləri üçün erməni vandalları kilsənin fundamentinə qədər bərpa adı altında Gürcüstana aid olan bütün izləri məhv etmişlər.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

8 iyul

Son səhifə

# Mağazadan pul oğurlayan yeniyetmə tutulub



Paytaxtda oğurluqla məşğul olan iki nəfər tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyulun 7-də Hövsan qəsəbəsi ərazisindəki mağazaların birindən 300 manat məbləğində pul və 1700 manat dəyərində ərzaq məhsullarını oğurlamaqda şübhəli bilinən qəsəbə sakinləri olan yeniyetmə və S.Nağıyev Suraxanı Rayon Polis İdarəsinin 30-cu polis şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində saxlanılıblar. Faktla bağlı təhqiqat aparılır.

# Messi "Barselona"da bir ayda 8,3 milyon avro qazanır!




***"Barselona" Lionel Messinin maaşını azaldır. Bu haqda "El Chiringuito TV" məlumat yayıb. Bildirilir ki, klub prezidenti Jozep Bartomeu yaxın günlərdə kapitanının maaşında ixtisar etməli olacaq. Belə bir qərar hazırkı müqavilədə yer alan bəndə görə veriləcək. Qeyd edək ki, Messinin "Barselona"da aylıq qazancı 8,3 milyon avro təşkil edir.***

Xatırladaq ki, 33 yaşlı argentinalı hücumşunun klubu ilə müqaviləsi 2021-ci ilin yayında başa çatır. İspaniya mətbuatında yer alan xəbərlərə görə, bundan sonra Messi komandanı tərk edəcək. Digər iddialara görə, kapitanla klubun hazırkı prezidenti Jozep Bartomeunun münasibətlərində möhkəm soyuqluq yaranıb.

# Kökəldikcə ağlını itirmək: Risk altında qadınlardır

London Universitet Kollecinin mütəxəssisləri piylənmə problemi yaşayan insanlarda demensiya riskinin 30 faiz daha yüksək olduğunu müəyyən edən araşdırma aparıblar.

"Sputnik Azərbaycan" xəbər verir ki, təcrübə zamanı alimlər yaşlanmanın könüllülərin orqanizminə təsirlərini müşahidə ediblər. Onlar müəyyən ediblər ki, müşahidə etdikləri şəxslərdə 10-15 il sonra bədən kütlə indeksi demensiyanın yaranmasına təsir edir. "Demensiya hazırda bütün bəşəriyyətin ən böyük problemi, sağlam qocalmanın ən böyük təhlükəsidir. Bizim müşahidələrimiz göstərir ki, piylənmə epidemiyası qocalıq ağılsızlığının yayılma vəziyyətini gərginləşdirə bilər", - deyə professor Endryu Steptoe bildirib.

Alimlər müəyyən ediblər ki, bədən kütlə indeksi 30-dan yuxarı olanlar normal kütləyə sahib olan yaşıdlarından 31 faiz daha çox demensiya riski yaşayırlar. Bu vəziyyət qadınlarda daha çox müşahidə edilib. "Hazırda bu əlaqə piylənmə ilə əlaqəli digər faktorlarla izah edilir. Ola bilər ki, bu əlaqə təzyiq və ya bədəndən xolesterolu çıxaran dərmanlar da daxil olmaqla, piylənmə ilə əlaqəli digər amillərə bağlıdır. Biz bunu gələcək işlərimizdə müəyyən edə biləcəyik", - deyə Steptonun həmkarı Ma Yuysyan bildirib.



# Həkimdən xəbərdarlıq: Yalnız avqust ayında yetişən qarpıza üstünlük verin

***İndi elə bir dövrdür ki, təbiətin bizə bəxş etdiyi nemətlərlə qidalanıb-qidalanmamaq barədə düşünməli oluruq. Son günlər bazar piştaxtalarına çıxarılan qarpız barədə də müxtəlif fikirlər var. Onun çox gübrə ilə yetişdirildiyi, geninin dəyişdirildiyi barədə fikirlər səslənir. Əlbəttə ki, bu gün yetişdirilən qarpızla əvvəlki qarpız arasında böyük fərq var, bunu danmaq olmaz.***



AZƏRTAC xəbər verir ki, bu sözləri həkim-fitoterapevt Füzuli Hüseynov deyib.

"Təəssüf ki, yerli qarpız sortları indi çox az qalıb, əvvəllər yetişdirilən yerli qarpızların tumları çox və böyük olurdu. Qarpızı kəsəndə içində böyük damarların aydın görünməsi ona gübrələrin qədərindən artıq verilməsindən xəbər verir. Çox böyük qarpız almaqdan da çəkinmək lazımdır, çünki onu bir dəfəyə yemək problem yarada bilər. Yaxşı olar ki, qarpız az-az və tez-tez yeyilsin. Xatırladım ki, xərçəng əleyhinə ən faydalı maddələrdən olan likopen qarpızın tərkibində pomidorda olduğundan iki dəfə çoxdur. Qarpız böyrək, qaraciyər və bağırsaq xovlarının əla təmizləyicisidir. Tərkibi A vitamini ilə zəngin olduğundan çox qarpız yeyənlərin dərisi parlaq olur, gözlər üçün faydalıdır, kalsium və kaliumla zəngin olduğuna görə sümükləri möhkəmlədir. Qarpızın tərkibində olan sitrulin maddəsi piyləri əridir, yüksəlmiş xolesterini aşağı salır, arıqlamaq istəyənlər üçün faydalı qida vasitəsidir. Orqanizmin ən çox ehtiyac duyduğu C vitamininə malik olduğundan immuniteti artırır, əzələ yorğunluğu və qıcolmaları aradan qaldırır. Lakin şəkərli diabet xəstələri qarpızla çox az miqdarda qidalanmalıdırlar", - deyə o bildirib.

Həkim-fitoterapevt daha çox iyul-avqust aylarında yetişən qarpıza üstünlük verməyi söyləyib: "Həmin aylarda yetişən məhsulda mineral və vitaminlər daha çox olur. Onun qabığı da çox qiymətli müalicə vasitəsidir. Qarpız qabığının içərisindəki ağ təbəqə kəsilib qurudulandan sonra qəhvəüyüdəndə üyüdülür, ağzı kip bağlanan qaba yığılaraq gündə üç dəfə yeməkdən 1 saat əvvəl bir çay qaşığı 1 stəkan su ilə içilməsi böyrək daşlarını əridir".

# Sabirabadda ölümlə nəticələnən yol qəzası olub

Sabirabad rayonunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Sabirabad rayonunun Qalağayın kəndi ərazisində şəhər sakini Nigar Məmmədovanın idarə etdiyi "Toyota" və İmişli rayon sakini R.Xudiyevin idarə etdiyi "Shacman" markalı avtomobillər toqquşub. Nəticədə N.Məmmədova və sərnişini Azər Hüseynov xəstəxanaya aparılarkən yolda ölüb, digər iki sərnişini xəstəxanaya yerləşdirilib. Hadisə ilə bağlı Sabirabad Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

# Riberinin evi qarət olundu

"Fiorentina"nın yarımmüdafiəçisi Frank Riberinin Florensiyadakı evi qarət olunub. Qol.az xəbər verir ki, bu barədə İtaliya mətbuatı məlumat yayıb. Naməlum şəxslər Riberi evdə olmadığı zaman onun evinə giriblər. Futbolçuya dəyən zərərinin həcmi məlum deyil. Fransa millisinin sabiq üzvü "Parma" - "Fiorentina" (1:2) matçından qayıdarkən evinin qarət olunduğunu bilib.



**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600